4.71 OF 10 (2 OF 4)

Kenan Aslanli is the project co-ordinator of the National Budget Group and a senior economist at the Public Finance Monitoring Centre. This report was written in Mr. Aslanli's personal capacity.

The Open Government Partnership (OGP) aims to secure concrete commitments from governments to promote transparency, empower citizens, fight corruption, and harness new technologies to strengthen governance. OGP's Independent Reporting Mechanism assesses development and implementation of national action plans to foster dialogue among stakeholders and improve accountability.

# QISA XÜLASƏ

## MÜSTƏQIL HESABATLILIQ MEXANIZMI (IRM):
# AZƏRBAYCAN PROQRES HESABATI 2012-2013

**Azərbaycan hökuməti dövlət orqanlarının internet səhifələri vasitəsilə vətəndaşlara daha çox informasiyaya çıxış imkanı vermək istiqamətində mühüm addımlar atıb. Bununla yanaşı, onun açıq hökumətlə bağlı götürdüyü öhdəliklərin bir çoxu qiymətləndirmək üçün o qədər də aydın ifadə edilməyib. İctimai iştirakçılığı təmin etməli olan öhdəliklər isə hesabat dövründə tam icra edilməmiş qalıb.**

Açıq Hökumət Tərəfdaşlığı (AHT) hökumətin vətəndaşlar qarşısında şəffaflığın təşviqi, vətəndaşlara daha böyük səlahiyyətlərin verilməsi, korrupsiya ilə mübarizə və idarəetmənin gücləndirilməsi üçün yeni texnologiyaların tətbiqi istiqamətində öhdəliklər götürdüyü könüllü beynəlxalq təşəbbüsdür. AHT-də iştirakçı ölkələrin hər birinin fəaliyyətinin iki ildə bir qiymətləndirməsi Müstəqil Hesabatlılıq Mexanizmi (MHM) çərçivəsində aparılır. Azərbaycan rəsmi olaraq 20 sentyabr 2011-ci ildə xarici işlər naziri Elmar Məmmədyarovun hökumətin təşəbbüsə qoşulmağa yönəlik rəsmi məktubu ilə AHT-yə qoşulmuşdur.

Azərbaycanın AHT ilə əməkdaşlığı və açıq hökumət tədbirləri Korrupsiya ilə Mübarizə Komissiyası tərəfindən koordinasiya edilir. Komissiyaya rəhbərliyi Prezident Adminstrasiyasının rəhbəri həyata keçirir. Komissiyanın katibi isə eyni zamanda Adminstrasiyanın baş məsləhətçisidir. Bir sözlə, bu qurum digər qurumlara təsir baxımından kifayət qədər güclü bir qurumdur. Azərbaycan 45 nazirliyin və mərkəzi icra hakimiyyəti orqanının, habelə 65 təyin olunan şəhər və rayon icra hakimiyyətlərinin mövcud olduğu unitar respublikadır. Açıq Hökumətin Təşviqi üzrə Milli Fəaliyyət Planı bütün mərkəzi və yerli icra hakimiyyəti orqanlarına aid öhdəliklərə malikdir. Bu qurumlar açıq hökumətlə bağlı gördükləri işləri sistemləşdirib hesabat formasında Komissiyaya və Nazirlər Kabinetinə təqdim etməlidirlər. Hökumət milli fəaliyyət planının icrası və qiymətləndirməsinə vətəndaş cəmiyyətini cəlb etməyi rəsmi bir öhdəlik kimi üzərinə götürüb.

### AHT Prosesi

Azərbaycan 2012-ci ilin 5 sentyabrında açıq hökumətin təşviqi üzrə milli fəaliyyət planını təsdiq etdi, ancaq bu prosesdə çox məhdud sayda vətəndaş cəmiyyəti təşkilatları ilə məsləhətləşmə aparılıb. Korrupsiya ilə Mübarizə Komissiyası 2012-ci ilin may ayında fəaliyyət planının ilkin versiyasını öz veb səhifəsində yerləşdirib. 2012-ci ilin may və iyun aylarında iki ictimai dinləmə keçirilib. Vətəndaş cəmiyyətindən daxil olan bəzi təkliflər fəaliyyət planının yekun versiyasında öz əksini tapıb. Məsləhətləşmə prosesində çox az sayda QHT-nin iştirakı ilə yanaşı, ölkədə açıq hökumətlə bağlı ümumi məlumatlılıq səviyyəsi də aşağıdır. Məsləhətləşmələr özəl sektoru da əhatə etməyib və ancaq Bakı şəhərində aparılıb. Açıq hökumətlə bağlı məsələhətləşmə prosesi rəsmi siyasətə təsir edəcək gücdə olmayıb. Vətəndaş cəmiyyəti təşkilatları lazımi qədər məlumatlandırılmayıb. Milli Fəaliyyət Planının icrası prosesinin davamlı müzakirə ediləcəyi bir platform yoxdur.

## ÜMUMI BAXIŞ

ÜZVLÜK TARIXI: 2012

ÖHDƏLIKLƏRIN SAYI: 37

TAMAMLANMA SƏVIYYƏSI

| | |
|---|---|
| TAMAMLANIB: | 37-dən 6 |
| XEYLI DƏRƏCƏDƏ: | 37-dən 6 |
| MƏHDUD: | 37-dən 22 |
| BAŞLANMAYIB: | 37-dən 1 |
| AYDIN DEYIL: | 37-dən 2 |

ZAMANLAMA

| | |
|---|---|
| TƏQVIM ÜZRƏ: | 37-dən 26 |

ÖHDƏLIYIN ISTIQAMƏTI:

| | |
|---|---|
| İNFORMASIYAYA ÇIXIŞ: | 37-dən 19 |
| İCTIMAI IŞTIRAKÇILIQ: | 37-dən 7 |
| HESABATLILIQ: | 37-dən 15 |
| TEXNOLOGIYA VƏ INNOVASIYA: | 37-dən 4 |
| AYDIN DEYIL: | 37-dən 6 |

ÖHDƏLIKLƏRIN XARAKTERISTIKASI:

| | |
|---|---|
| OGP DƏYƏRLƏRINƏ UYĞUN: | 37-dən 31 |
| ORTA VƏ YA TRANSFORMATIV POTENSIAL TƏSIR: | 37-dən 20 |
| ƏHƏMIYYƏTLI VƏ YA TAM ICRA: | 37-dən 12 |
| HƏR ÜÇÜ (✪): | 37-dən 3 |

*Müəllif: müstəqil tədqiqatçı Kənan Aslanlı*

## ÖHDƏLİKLƏRİN İCRASI

AHT-nin tərkib hissəsi kimi ölkələr iki illik fəaliyyət planı ilə öhdəliklər götürürlər. Cədvəl 1-də hər bir öhdəliyin tamamlanma səviyyəsi, onların ambisiyası, planlanan zaman çərçivələri və gələcək potensial öhdəliklər sistemləşdirilib. Cədvəl 2 isə göstərir ki, Azərbaycan 37 öhdəlikdən 6-nı tamamlayıb, digərlərində isə məhdud irəliləyiş olub. Azərbaycanın milli fəaliyyət planında çox geniş sektorları əhatə edən xeyli sayda ambisiyalı öhdəliklər var. Azərbaycan onunla eyni vaxtda AHT-yə qoşulan ölkələrdən öhdəliklərin icrasında 3 ay geri qalır. Azərbaycan hökuməti həmçinin özünü-qiymətləndirmə hesabatını da 2014-cü ilin fevral ayına qədər açıqlamamışdı və bu hesabatda belə bir sənədə istinad olunmayıb.

### Cədvəl 1 | Hər bir öhdəlik üzrə proqresin qiymətləndirilməsi

| ÖHDƏLİYİN QISA ADI | POTENSİAL TƏSİR | | | | TAMAMLANMA SƏVİYYƏSİ | | | | VAXT ÇƏRÇİVƏSİ | NÖVBƏTİ ADDIMLAR |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| ✪ ÖHDƏLİK AÇIQ HÖKUMƏT DƏYƏRLƏRİNƏ UYĞUNDUR, POTENSİAL TƏSİRİ ÖNƏMLİDİR, ÖNƏMLİ DƏRƏCƏDƏ İCRA OLUNUB | HEÇ BİR | KİÇİK | ORTA | TRANSFORMATİV | BAŞLANILMAYIB | LİMİTLİ | ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ | TAMAMLANMIŞ | | |
| 1. İNFORMASİYAYA ÇIXIŞ | | | | | | | | | | |
| 1.1 Dövlət qurumlarında informasiya azadlığı üzrə məsul şəxslərin müəyyən edilməsi, informasiya azadlığı ilə bağlı daxili icraat qaydalarının qəbul edilməsi və bu barədə ictimaiyyətin məlumatlandırılması | | | | | | | | | Zamanında | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |
| 1.2 İnformasiya azadlığının təmin edilməsi məqsədi ilə məsul dövlət qulluqçuları üçün ətraflı treninqlərin keçirilməsi | | | | | | | | | Zamanında | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |
| 1.3 “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinin icrasına nəzarətin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının strukturunun təkmilləşdirilməsi, aidiyyəti əməkdaşların ixtisaslaşmış treninqlərə cəlb edilməsi | | | | | Aydın deyil | | | | Aydın deyil | Öhdəliyin daha ölçüləbilən olması üçün revizə edilməsi |
| 2. DÖVLƏT ORQANLARININ FƏALİYYƏTİ BARƏDƏ İCTIMAİ MƏLUMATLILIQ | | | | | | | | | | |
| 2.1 Dövlət orqanlarının öz fəaliyyəti barədə məlumatları mütəmadi, yenilənmiş əsaslarla internet səhifələrində yerləşdirməsi | | | | | | | | | Aydın deyil | Öhdəliyin daha ölçüləbilən və real olması üçün revizə edilməsi |
| ✪ 2.2 Dövlət orqanlarının öz fəaliyyəti barədə illik məruzələr tərtib etməsi və internet səhifələrində açıqlaması. | | | | | | | | | Zamanında | İcrası tamamlanmış öhdəliyin monitorinqi |

| ÖHDƏLİYİN QISA ADI | POTENSİAL TƏSİR | | | | TAMAMLANMA SƏVİYYƏSİ | | | | VAXT ÇƏRÇİVƏSİ | NÖVBƏTİ ADDIMLAR |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| ✪ ÖHDƏLİK AÇıQ HÖKUMƏT DƏYƏRLƏRİNƏ UYĞUNDUR, POTENSİAL TƏSİRİ ÖNƏMLİDİR, ÖNƏMLİ DƏRƏCƏDƏ İCRA OLUNUB | HEÇ BİR | KİÇİK | ORTA | TRANSFORMATİV | BAŞLANILMAYIB | LİMİTLİ | ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ | TAMAMLANMIŞ | | |
| 2.3 Dövlət orqanlarının öz fəaliyyəti barədə mətbuat konfransları və ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlər keçirməsi | ■ | | | | ■ | ■ | ■ | | Zamanında | Öhdəliyin daha ölçüləbilən və real olması üçün revizə edilməsi |
| 2.4 Dövlət orqanlarının fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının anlaşılan sadə dildə yazılmış versiyasının, bələdçi qaydaların tərtib edilməsi və bu məlumatların vətəndaşlar arasında təşviq edilməsi | ■ | ■ | ■ | | ■ | | | | Aydın deyil | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |
| 2.5 Dövlət proqramlarının əhatə etdiyi sahələr üzrə internet portallarının yaradılması | ■ | ■ | ■ | | ■ | ■ | | | Zamanında | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |
| 2.6 Dövlət orqanlarının internet səhifələrinin müasir standartlara uyğun olaraq vahid nümunəvi formasının və minimum şərtlərinin müəyyən edilməsi | ■ | | | | ■ | ■ | ■ | ■ | Zamanında | İcrası tamamlanmış öhdəliyin monitorinqi |
| 2.7 Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Milli Məclisi qarşısındakı illik hesabatlarında açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər haqqında məlumat verməsi | ■ | ■ | | | ■ | ■ | | | Zamanında | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |
| 3. HÜQUQİ AKTLARIN MƏRKƏZLƏŞMİŞ ELEKTRON BAZASI | | | | | | | | | | |
| 3.1 Rəsmi hüquqi istinad mənbəyi olan Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantının mütəmadi yenilənməsi və elektron bazanın daim işlək vəziyyətdə saxlanılması | ■ | ■ | | | ■ | ■ | ■ | | Aydın deyil | İcrası tamamlanmış öhdəliyin monitorinqi |
| 4. İCTİMAİ İŞTİRAKÇILIQ | | | | | | | | | | |
| 4.1 Dövlət orqanları tərəfindən ictimai əhəmiyyət kəsb edən qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb edilməsi, ictimai dinləmələrin keçirilməsi | ■ | ■ | ■ | ■ | ■ | ■ | | | Aydın deyil | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |
| 4.2 Əhaliyə xidmət göstərən dövlət orqanları tərəfindən vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın təkmilləşdirilməsi üçün müvafiq şuraların və ya əməkdaşlıq şəbəkələrinin yaradılması | ■ | ■ | ■ | ■ | ■ | ■ | | | Öhdəlik üçün vaxt öhdəliyindən geri qalınması | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

| ÖHDƏLİYİN QISA ADI | POTENSİAL TƏSİR | | | | TAMAMLANMA SƏVİYYƏSİ | | | | VAXT ÇƏRÇİVƏSİ | NÖVBƏTİ ADDIMLAR |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| ✪ ÖHDƏLİK AÇıQ HÖKUMƏT DƏYƏRLƏRİNƏ UYĞUNDUR, POTENSİAL TƏSİRİ ÖNƏMLİDİR, ÖNƏMLİ DƏRƏCƏDƏ İCRA OLUNUB | HEÇ BİR | KİÇİK | ORTA | TRANSFORMATİV | BAŞLANILMAYIB | LİMİTLİ | ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ | TAMAMLANMIŞ | | |
| 4.3 İctimai maraq kəsb edən qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakını genişləndirmək vasitəsi kimi internet səhifələrindən istifadə edilməsi (vətəndaşların təklif və rəylərinin qəbul edilməsi, müzakirələrin təşkil edilməsi, interaktiv sual-cavab bölmələrinin yaradılması və s.) | ■ | ■ | | | ■ | ■ | | | Aydın deyil | Öhdəliyin daha ölçüləbilən və real olması çün revizə edilməsi |
| 4.4 Dövlət orqanları tərəfindən “Açıq qapı” vətəndaş forumlarının keçirilməsi | ■ | ■ | ■ | | ■ | ■ | | | Aydın deyil | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |
| 5. ELEKTRON XİDMƏTLƏR | | | | | | | | | | |
| ✪ 5.1 Elektron xidmətlər göstərilməsi üzrə qiymətləndirmənin həyata keçirilməsi və ictimaiyyətə açıqlanması | ■ | ■ | ■ | | ■ | ■ | ■ | | Aydın deyil | Maintenance and monitoring |
| 5.2 Dövlət orqanlarının öz səlahiyyətlərinə uyğun olaraq həyata keçirdikləri elektron xidmətlər barədə ildə bir dəfədən az olmayaraq ictimai təqdimatlar keçirməsi | ■ | ■ | ■ | | ■ | ■ | | | Zamanında | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |
| 5.3 Dövlət orqanları arasında elektron informasiya dövriyyəsinin təmin edilməsi məqsədi ilə vahid sistemin yaradılması | ■ | ■ | | | ■ | ■ | ■ | ■ | Öhdəlik üçün vaxt öhdəliyinin qabaqlan ması | Heç bir: öhdəliyin tamamlanmış icrası |
| 5.4 Rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi | ■ | ■ | | | ■ | ■ | | | Zamanında | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |
| 5.5 Regionlarda əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması üzrə tədbirlərin həyata keçirilməsi | ■ | ■ | ■ | | ■ | ■ | | | Zamanında | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |
| 6. DÖVLƏT MALİYYƏ NƏZARƏTİ ORQANLARININ ŞƏFFAFLIĞIS | | | | | | | | | | |
| 6.1 Dövlət maliyyə nəzarətini həyata keçirən orqanların səlahiyyətlərinin dəqiqləşdirilməsi və maliyyə nəzarəti üzrə daha təkmil hüquqi baza təmin etmək üçün maliyyə nəzarəti haqqında qanun layihəsinin hazırlanması | ■ | ■ | ■ | | ■ | ■ | | | Zamanında | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

| ÖHDƏLİYİN QISA ADI | POTENSİAL TƏSİR | | | | TAMAMLANMA SƏVİYYƏSİ | | | | VAXT ÇƏRÇİVƏSİ | NÖVBƏTİ ADDIMLARS |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| ✪ ÖHDƏLİK AÇıQ HÖKUMƏT DƏYƏRLƏRİNƏ UYĞUNDUR, POTENSİAL TƏSİRİ ÖNƏMLİDİR, ÖNƏMLİ DƏRƏCƏDƏ İCRA OLUNUB | HEÇ BİR | KİÇİK | ORTA | TRANSFORMATİV | BAŞLANILMAYIB | LİMİTLİ | ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ | TAMAMLANMIŞ | | |
| 6.2 Maliyyə nəzarəti orqanlarının hesabatlılığının artırılması və həmin orqanlar tərəfindən maliyyə nəzarətinin nəticələri barədə təhlillərin və statistik məlumatların ictimaiyyətə təqdim edilməsi | ■ | ■ | ■ | | ■ | ■ | | | Zamanında | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |
| 6.3 Maliyyə nəzarətində informasiya texnologiyalarının tətbiqi və elektron nəzarət (“e-nəzarət”) sisteminin yaradılması | ■ | ■ | | | ■ | ■ | | | Zamanında | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |
| 6.4 Maliyyə nəzarəti orqanlarının qarşılıqlı fəaliyyətinin təmin edilməsi, onlar arasında vahid elektron informasiya bazasının yaradılması, informasiya mübadiləsinin təşkili | ■ | ■ | | | ■ | ■ | | | Zamanında | Öhdəliyin daha ölçüləbilən və real olması üçün revizə edilməsi |
| 6.5 Dövlət müəssisələrinin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq tərtib edilmiş maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə dərc edilməsinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi | ■ | ■ | ■ | | ■ | ■ | | | Zamanında | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |
| 6.6 Yerli büdcənin tərtibinə və icrasına, o cümlədən sərf edilən vəsaitin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna, habelə bələdiyyələrin maliyyə hesabatlarının vaxtında təsdiq olunmasına nəzarət mexanizmlərinə və prosedurlarına dair təkliflər hazırlanması | ■ | ■ | | | ■ | ■ | | | Zamanında | Mövcud öhdəlik əsasında yeni öhdəliyin hazırlanması |
| ✪ 6.7 Dövlət büdcəsinin icrası barədə hesabat və müvafiq qanun layihələrinin Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilənədək dərc edilməsi | ■ | ■ | ■ | | ■ | ■ | ■ | | Zamanında | İcrası tamamlanmış öhdəliyin monitorinqi |
| 7. VERGİ NƏZARƏTİ VƏ YOXLAMALARI PROSESİNDƏ ŞƏFFAFLIQ | | | | | | | | | | |
| 7.1 Vergi ödəyicilərinin zəruri məlumatla təmin edilməsi və vergi ödəyiciləri ilə təbliğat işinin təkmilləşdirilməsi | ■ | | | | ■ | ■ | ■ | ■ | Zamanında | Revision of the commitment |
| 7.2 Vergi orqanlarının fəaliyyətinin Beynəlxalq Valyuta Fondunun Vergi şəffaflığı üzrə yaxşı praktika haqqında kodeksinə uyğunlaşdırılması sahəsində tədbirlər görülməsi | ■ | ■ | ■ | | ■ | ■ | | | Zamanında | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

| ÖHDƏLİYİN QISA ADI | POTENSİAL TƏSİR | | | | TAMAMLANMA SƏVİYYƏSİ | | | | VAXT ÇƏRÇİVƏSİ | NÖVBƏTİ ADDIMLAR |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| ✪ ÖHDƏLİK AÇIQ HÖKUMƏT DƏYƏRLƏRİNƏ UYĞUNDUR, POTENSİAL TƏSİRİ ÖNƏMLİDİR, ÖNƏMLİ DƏRƏCƏDƏ İCRA OLUNUB | HEÇ BİR | KİÇİK | ORTA | TRANSFORMATİV | BAŞLANILMAYIB | LİMİTLİ | ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ | TAMAMLANMIŞ | | |
| 7.3 Vergilərin və digər icbari ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görülməsi | ■ | | | | ■ | ■ | | | Zamanında | Heç bir: öhdəliyin çıxarılması |
| HASİLAT SƏNAYESİNDƏ ŞƏFFAFLIQ | | | | | | | | | | |
| 8.1 Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda davamlı tətbiqi və inkişafı üçün Azərbaycan Respublikası hökumətinin ölkədə mineral ehtiyatların hasilatı ilə məşğul olan yerli və xarici şirkətlər, habelə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığının davam etdirilməsi | ■ | | | | ■ | ■ | ■ | ■ | Zamanında | İcrası tamamlanmış öhdəliyin monitorinqi |
| 8.2 Azərbaycan Respublikası hökumətinin mədən sənayesində əldə etdiyi məcmu daxilolmalar barədə hesabatların ictimaiyyətə mütəmadi açıqlanmasının davam etdirilməsi | ■ | | | | ■ | ■ | ■ | ■ | Zamanında | Mövcud öhdəlik əsasında yeni öhdəliyin hazırlanması |
| 8.3 Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda tətbiqi üzrə illik hesabatların açıqlanması | ■ | | | | ■ | ■ | ■ | ■ | Zamanında | Mövcud öhdəlik əsasında yeni öhdəliyin hazırlanması |
| 9. AÇIQ HÖKUMƏT SAHƏSİNDƏ MƏLUMATLILIQ VƏ ƏMƏKDAŞLIQ | | | | | | | | | | |
| 9.1 Fəaliyyət Planının icrası üzrə tədbirlərin yerinə yetirilməsi vəziyyətinin hər il üzrə dəyərləndirilməsi və ictimaiyyətə açıqlanması | ■ | ■ | ■ | | ■ | ■ | | | Zamanında | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |
| 9.2 Açıq hökumət təşəbbüsü üzrə maarifləndirici materialların nəşri və əhali arasında paylanması | ■ | ■ | ■ | | ■ | ■ | | | Aydın deyil | Öhdəliyin daha ölçüləbilən və real olması üçün revizə edilməsi |
| 9.3 “Açıq Hökumət Tərəfdaşlığı” çərçivəsində öhdəliklərin icrası istiqamətində zəruri tədbirlərin davam etdirilməsi | ■ | ■ | | | Aydın deyil | | | | Aydın deyil | Öhdəliyin daha ölçüləbilən və real olması üçün revizə edilməsi |
| 9.4 Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutlarına maliyyə dəstəyi. | ■ | ■ | ■ | | ■ | ■ | | | Zamanında | Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

## Cədvəl 2 | Hər bir öhdəlik üzrə inkişafın xülasəsi

| ÖHDƏLIYIN ADI | NƏTICƏLƏRIN XÜLASƏSI |
|---|---|
| ✪ÖHDƏLİK AÇıQ HÖKUMƏT DƏYƏRLƏRİNƏ UYĞUNDUR, POTENSİAL TƏSİRİ ÖNƏMLİDİR, ÖNƏMLİ DƏRƏCƏDƏ İCRA OLUNUB | |
| 1. İNFORMASIYA ƏLDƏETMƏ | |
| 1.1 İnstitusional çərçivə<br>• AHT dəyərlərinə uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Məhdud | Azərbaycanda İnformasiya əldəetmə üzrə qanunun 2005-ci ildə qəbul olunmasına baxmayaraq, qanunun icrası hələ ki problemli olaraq qalır. İnformasiyaya çıxışın təmin olunması baxımından hökumətin daxili imkanlarını artırmaq fonunda bu qurumun potensialı var. Belə ki, vətəndaş cəmiyyətinin araşdırmasına görə, müşahidə aparılmış 90 mərkəzi və yerli icra hakimiyyəti orqanlarının cəmi 24 faizində informasiya əldəetmə məsələlərində irələləyişlər qeyd olunmuşdur. Bu qurumların 20 faizə qədəri informasiya azadlığı üzrə daxili qanunlar qəbul etmişdir və ictimai maarifləndirmə işləri aparmışlar. Nəticə etibarilə, bu istiqamətdə daha çox işlərin görülməsinə ehtiyac var. |
| 1.2 Məmurlar üçün treyninqlər<br>• AHT dəyərlərinə uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Məhdud | Vətəndaş cəmiyyəti araşdırmasına görə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının yalnız 13 faizi informasiyaya çıxışın necə təmin olunması baxımından işçiləri üçün treninqlər təşkil etmişdir. Bu təlimlərin keçirilməsi informasiya sorğularına rəsmi cavabvermə müddətinin azaldılmasına və rəsmi cavabların keyfiyyətinin artırılmasına töhfə verəcək. BTM (IRM) tədqiqatçısı hökumətin bu öhdəliyi həyata keçirməsi və QHT-lərin dövlət məmurlarının treyninqlərinə cəlb etməsini təklif edir. |
| 1.3 İnsan Haqları üzrə Müvəkkil Aparatı<br>• AHT dəyərlərinə uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Aydın deyil | Bu öhdəliyin informasiyaya çiriş üzrə qanunun icrasına nəzarət fonunda Ombudsman Aparatının imkanlarını artırmaq baxımından potensialı var. Tərəflər qanuna nəzarət baxımından Ombudsman Aparatının qeyri-effektiv olmasını düşünür, buna əsas olaraq icradan müstəqil olmamağı göstərirlər. 2012-ci ilin Sentyabr və Dekabr aylarında Ombudsman Aparatı öhdəlik fonunda bir neçə iclas və dəyirmi masa təşkil etdi. Amma milli tədqiqatçı o vaxtdan etibarən öhdəliyin faktiki icrası ilə bağlı hər hansı informasiya əldə edə bilmədi. |
| 2. DÖVLƏT MÜƏSSISƏLƏRININ FƏALIYYƏTI HAQQINDA İCTIMAI MƏLUMATLANDIRMA | |
| 2.1 Dövlət müəssisələrinin veb-səhifələrinin yenilənməsi<br>• AHT dəyərlərinə uyğunluq: Aydın<br>• Potensial təsir: Kiçik<br>• Tamamlanma: Əsaslı | Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının böyük əksəriyyəti (təxminən 65 faizi) veb-səhifələrində öz fəaliyyətləri ilə bağlı informasiyaları müntəzəm olaraq yükləyirlər və yeniləyirlər. Düzdür, bu səylər hökumətin AHT-yə qoşulmasından öncə başlanmasına baxmayaraq, Milli Fəaliyyət Planının qəbulundan sonra ciddi yaxşılaşmalar müşahidə edilməsi. Bu öhdəliyin növbəti tədbir planının müvafiq hissəsi olmasını təmin etmək üçün hökumət icraatla bağlı yoxlamaları aparmaq baxımından, son vaxt limiti daxil daha ölçüləbilir meyarlar təyin etməlidir. |
| ✪ 2.2 İllik Hesabatların Veb-səhifələrdə yerləşdirilməsi<br>• AHT dəyərlərinə uyğunluq: Aydın<br>• Potensial təsir: Kiçik<br>• Tamamlanma: Əsaslı | Mərkəzi və yerli icra hakimiyyəti orqanları illik hesabatları hazırlamaq və veb-səhifələrə yerləşdirmək baxımından ciddi irəliləyişlər əldə etmişdir. Vətəndaş cəmiyyətinin qənaətinə görə, bu öhdəlik üzrə icraat 60 faizdən yüksək olmuşdur. Nəticədə, bu öhdəlik hökumətin müntəzəm hesabatını hazırlamağa kömək etmişdir. Növbəti tədbir planında mərkəzi və yerli icra hakimiyyəti orqanlarının illik hesabatları üçün minimum standartları inkişaf etdirməyə ehtiyac var. |
| 2.3 İctimai Kommunikasiya Tədbirləri<br>• AHT dəyərlərinə uyğunluq: Aydın<br>• Potensial təsir: Kiçik<br>• Tamamlanma: Əsaslı | Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının təqribən 65 faizinin dəyərləndirmə müddətində öz fəaliyyətləri ilə bağlı azı bir mətbuat konfransı keçirməsinə baxmayaraq, bu öhdəliyin qiymətləndirilməsi çox çətindir. Mətbuat konfransları Azərbaycan cəmiyyətinin üzləşdiyi çox vacib problemli məsələləri əhatə etməyib. Bu tədbirlər hökumətə öz tənqidi mövqeyi ilə tanınan jurnalistlərə açıq olmamışdır. Milli tədqiqatçı hökumətə bu öhdəlik üzrə dəqiq şərhləri aydınlaşdırmaq və mətbuat konfranslarının maraqlı bütün yerli və xarici jurnalistlərə açıq olmasını təmin etməsini təklif edir. |

| ÖHDƏLIYIN ADI | NƏTICƏLƏRIN XÜLASƏSI |
|---|---|
| ✪ÖHDƏLİK AÇıQ HÖKUMƏT DƏYƏRLƏRİNƏ UYĞUNDUR, POTENSİAL TƏSİRİ ÖNƏMLİDİR, ÖNƏMLİ DƏRƏCƏDƏ İCRA OLUNUB | |
| 2.4 Qanunvericilik aktlarının sadə dildə yazılması<br>• AHT dəyərlərinə uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Başlanmayıb | Bu öhdəliyin icrası dəyərləndirmə müddətində başlamadı. İcraatla bağlı dəqiq vaxt çərçivəsi müəyyənləşdirmək əvəzinə, hökumət sadəcə öhdəliyin həyata keçirilməsini vəd verir. Müəyyən vaxt intervalında həyata keçməsi nəticəsində öhdəlik vətəndaşlara qanunvericiliyi daha yaxşı anlamağa imkan verəcək. |
| 2.5 Dövlət Proqramları haqqında İnternet Resursları<br>• AHT dəyərlərinə uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Məhdud | Əksər nazirliklərin xüsusi dövlət proqramları çərçivəsində internet linkləri var. Belə ki, bu internet resurslarının çoxu AHT öncəsi də mövcud idi. Hökumətin internet resurslarında dövlət proqramları ilə bağlı məlumatlar da dağınıq və qarışıqdır. Əgər informasiya onlayn olaraq hərtərəfli və mütəşəkkil şəkildə təmin olunsa idi, bu dövlət proqramlarına nəzarət edən jurnalistlər və vətəndaş cəmiyyəti fəalları üçün çox faydalı mənbə olardı. Milli tədqiqatçı dövlət proqramları internet ünvanlarında hansı məzmunda informasiyaların açıqlanması ilə bağlı minimum standartları qəbul etməyi, mümkün qədər bütün dövlət proqramları haqqında informasiyanı özündə cəmləşdirərək vahid internet ünvanı yaratmağı təklif edir. Beləcə, informasiya rahat istifadə edilən və əlçatan olar. |
| 2.6 Dövlət İnternet saytları üçün ümumi, minumum Standartlar<br>• AHT Dəyərlərinə uyğunluq: Aydın<br>• Potensial təsir: Ölçü<br>• Tamamlanma: Tam | 2012-ci il 4 sentyabr tarixində Nazirlər Kabineti bu öhdəliyin tamamlanması istiqamətində dövlət internet resurslarının dizaynı ilə bağlı texniki standartlar qəbul etdi. Öhdəliyin tamamlanmasından bir gün sonra 5 sentyabr 2012-ci il tarixində Prezident AHT Milli Fəaliyyət Planını qəbul etdi. Tamamlanmış tədbirin yenidən tədbir planına daxil edilməsi səbəbi aydın deyil. Hökumətin rəsmi internet resursları üçün minimum standartları texniki xarakterdə olsa da, qurumların vətəndaşlarla əlaqəsini yaxşılaşdırmaq üçün kommunikasiya vasitələrinin onlayn istifadəsini tələb edir. |
| 2.7 Nazirlər Kabinetinin Hesabatları<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Əsaslı | Nazirlər Kabinetinin Parlamentə təqdim etdiyi illik hesabatda anti-korrupsiya fəaliyyətləri ilə bağlı bəzi tədbirlər əhatə olunsa da açıq hökumətin təbliğatı ilə bağlı heç bir informasiya daxil edilməyib. Əfsuslar olsun ki, hökumət bu hesabatları onlayn kanallar vasitəsilə yayımlamayıb. Nəticə olaraq, milli tədqiqatçı Nazirlər Kabinetinin Parlamentə təqdim etdiyi hesabatlara açıq hökumət elementlərini daxil etmək və illik hesabatları Nazirlər Kabinetinin internet ünvanında yerləşdirilməsi istiqamətində çox işlərin görülməsini təklif edir. |
| 3. MƏRKƏZI QANUNVERICILIYIN ELEKTRONIK VERILƏNLƏR BAZASI | |
| 3.1 Qanunvericilik üçün Dövlət Qeydiyyatı<br>• AHT dəyərlərinə uyğunluq: Aydın<br>• Potensial təsir: Kiçik<br>• Tamamlanma: Məhdud | Bu öhdəlik hüquqşünaslar və bütün maraqlı vətəndaşlara hüquqi aktlara çıxış imkanı verəcəyindən əhəmiyyətlidir. Dövlət Qeydiyyatının onlayn versiyası AHT layihəsi icrası mərhələsinə başlamazdan əvvəl 2011-ci ilin noyabrında başladı. Nəticə etibarilə bu icradan öncəki öhdəlik olsa da Ədliyyə Nazirliyi AHT öhdəlik icrası mərhələsinə müntəzəm olaraq bazasını yenilədi və onlayn qeydiyyatı apardı. Digər öhdəliklərə uyğun olaraq, milli tədqiqatçı hökumətə bu öhdəliyin həyata keçməsinə görə aydın vaxt məhdudiyyəti qoymasını və başlıca kriteriyaları müəyyənləşdirməyi təklif edir. |

| ÖHDƏLIYIN ADI | NƏTICƏLƏRIN XÜLASƏSI |
|---|---|
| ✪CÖHDƏLİK AÇIQ HÖKUMƏT DƏYƏRLƏRİNƏ UYĞUNDUR, POTENSİAL TƏSİRİ ÖNƏMLİDİR, ÖNƏMLİ DƏRƏCƏDƏ İCRA OLUNUB | |
| 4. İCTIMAI İŞTIRAKÇILIQ | |
| 4.1 İlkin qanunvericilik layihəsi və İctimai Dinləmələrdə Vətəndaş Cəmiyyətinin İştirakı<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Transformativ<br>• Tamamlanma: Məhdud | Az sayda mərkəzi və yerli icra hakimiyyəti orqanları vətəndaş cəmiyyəti təşkilatlarını və vətəndaşları qanun layihələrinin hazırlanmasına dəvət edirlər. 2013-cü ilin noyabr ayında parlament ölkənin ictimai idarəetmə və qərarvermə prosesində vətəndaş iştirakının qanuni təminatını məqsəd götürən qanun qəbul etdi. Öhdəliyin tam icrası nəticəsində dövlət və qeyri-dövlət qurumları arasında yeni dialoq kanallarının açılması potensialı var. Bir az təkmilləşdirərək, öhdəliyin icrası üçün illik vaxt intervalını müəyyənləşdirməyə ehtiyac var. |
| 4.2 İctimai Şuralar<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Transformativ<br>• Tamamlanma: Məhdud | İctimai şuralar mərkəzi və yerli icra hakimiyyəti orqanları nəzdində hökumət rəsmiləri və vətəndaş cəmiyyəti nümayəndələri arasında debatların keçirilə bildiyi konsultativ qurumlardır. Milli tədqiqatçının qənaətinə görə, əksər mərkəzi və yerli icra hakimiyyəti orqanları hələ bu şuraları yaratmayıblar. İctimai şuraların mövcud olduğu yerlərdə isə onların müstəqilliyi və real gücü mübahisəlidir. Məsələn, bunlardan biri olan Gənclik və İdman Nazirliyi yanında İctimai Şura hakim partiyadan olan prezidentliyə namizədi dəstəkləmək üçün ictimai bəyanat verdi. Bundan əlavə heç də bütün mövcud ictimai şuralar hökumət və vətəndaş cəmiyyətləri arasında konsensus və bərabərlik şəraitində formalaşmayıb. Milli tədqiqatçı hökumətə mərkəzi və yerli icra hakimiyyəti orqanları nəzdində müstəqil, əhatəli və rəqabətcil ictimai şuraları yaratma prosesini stimullaşdırmaq və gücləndirməyi təklif edir. |
| 4.3 İnternet səhifələrində İctimai iştirakçılıq<br>• AHT dəyərlərinə uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Məhdud | Mərkəzi icra hakimiyyəti orqanlarının əksəriyyətinin hələ Milli Fəaliyyət Planının qəbulundan öncə rəsmi internet səhifələri vardı. İnternet ünvanlarında olan şərhlər hökumət tədbirləri haqqında ictimai fikrin yaxşılaşmasını göstərsə də internet resursları vasitəsilə ictimai fikir və mülahizələrə cavabvermə və izləmə mexanizmi yoxdur. Milli tədqiqatçı hökumətə bu öhdəliyi koordinasiya etmək üçün institut müəyyənləşdirmək, eləcə də icraatla bağlı vaxt intervalı müəyyənləşdirməyi təklif edir. Bundan əlavə, internet səhifəsi vasitəsilə təqdim olunan ictimai rəyləri (təklif, müraciət və s.) izləmə mexanizminin inkişaf etdirilməsinə ehtiyac var. |
| 4.4 “Açıq Qapı” Vətəndaş Forumları<br>• AHT dəyərlərinə uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Məhdud | “Açıq Qapı” Vətəndaş Forumları dövlət orqanlarının media, vətəndaş cəmiyyəti və vətəndaşlarla əlaqəsi baxımından mövcud imkanları artırma potensialına malikdir. AHT öhdəlik müddəti ərzində müxtəlif mərkəzi və yerli icra hakimiyyəti orqanları media nümayəndələri, QHT-lər və sadə vətəndaşlar üçün “Açıq Qapı” elan etdilər. Amma bu öhdəliyin təməl icrası baxımından daha çox işlərin görülməsinə ehtiyac var. Məsələn, forumların aydın formatı, forumları koordinasiya etmək üçün institutun müəyyənləşdirilməsi və forumları bütün maraqlı tərəflərə açıq etmək kimi. Milli tədqiqatçı hesab edir ki, “Açıq Qapı” Forumlar mərkəzi icra orqanları tərəfindən rüblük, yerli icra orqanları tərəfindən isə aylıq olaraq keçirilmədilir. |
| 5. ELEKTRON XIDMƏTLƏR | |
| ✪ 5.1 Elektron xidmətlərin Dəyərləndirilməsi<br>• AHT dəyərlərinə uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Əsaslı | 2013-cü il Yanvar ayında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi “Elektron xidmətlərin qiymətləndirilməsi üzrə Təlimat” qəbul etdi. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilk dəyərləndirmələri apararaq “Elektron Hökumət Bülleteni”ndə nəticələri nəşr etdi. Yeddinci sayı 2013-cü ilin iyul ayında nəşr olunan bülleten əsasən elektron xidmətlərin dəyərləndirilməsi və nəticələrinin ictimaiyyətə açıqlanmasına həsr olunmuşdu. Milli tədqiqatçı hökumətə öhdəlik üzrə aydın vaxt limitini müəyyənləşdirməyi və dəyərləndirmə prosesində iştirak üçün QHT-ləri dəvət etməyi təklif edir. |

| ÖHDƏLIYIN ADI | NƏTICƏLƏRIN XÜLASƏSI |
|---|---|
| ✪CÖHDƏLİK AÇIQ HÖKUMƏT DƏYƏRLƏRİNƏ UYĞUNDUR, POTENSİAL TƏSİRİ ÖNƏMLİDİR, ÖNƏMLİ DƏRƏCƏDƏ İCRA OLUNUB | |
| 5.2 Elektron xidmətlərin İllik İctimai Təqdimatları<br>• AHT dəyərlərinə uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Məhdud | Bu öhdəlik üzrə icraat aşağı səviyyədədir. Mərkəzi icra hakimiyyəti orqanlarının az qismi elektron xidmətləri üzrə ictimai təqdimatlar təşkil edib. Bunlara Əmlak Məsələləri Dövlət Komitəsi, Vergilər Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi daxildir. Bu öhdəlik üzrə təməl icra çərçivəsində daha çox işlərin görülməsinə ehtiyac var. Milli tədqiqatçı xüsusən regionları nəzərə alaraq növbəti Tədbirlər Planında təqdimatların sayını artırmağı təklif edir. |
| 5.3 Elektron İnformasiya Mübadiləsi üzrə Vahid Sistem<br>• AHT dəyərlərinə uyğunluq: Aydın deyil<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Məhdud | Xüsusi Dövlət Mühafizə Xidmətinin məlumatına görə, təhlükəsiz informasiya şəbəkəsi artıq yaradılmışdır. Hazırda, hökumət daxili bütün informasiya mübadiləsi bu şəbəkə vasitəsilə həyata keçirilir. İnformasiya təhlükəsizliyi baxımından bu öhdəlik texniki əhəmiyyət daşıdığı halda açıq hökumət prinsipləri və dəyərləri ilə əlaqəsi zəifdir. Milli tədqiqatçı hökumətə növbəti Fəaliyyət Planında bu öhdəliyi çıxartmağı təklif edir. |
| 5.4 Təkmilləşdirilmiş Elektronik Ödənişlər<br>AHT Dəyərlərinə Uyğunluq: Aydın deyil<br>• Potensial təsir: Kiçik<br>• Tamamlanma: Məhdud | Ümumiyyətlə, indi bütün vətəndaşlar vergi ödənişlərini elektron olaraq istər hökumət, istərsə də özəl şirkətlərin internet ünvanları vasitəsilə həyata keçirə bilərlər. Baxmayaraq ki, ödənişlər, vergilər və digər inzibati ödənişlərin elektron olaraq ödənişinin açıq hökumət prinsipləri ilə birbaşa əlaqəsi kiçikdir. Milli tədqiqatçı vergilərin, ödənişlərin və digər kommunal xərclərin monitorinqinə nəzarətə QHT-ləri cəlb etməyi təklif edir. |
| 5.5 Regionlarda Elektron Xidmətlərə Giriş<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Məhdud | AHT öhdəliyi müddətində, hökumət regionlarda elektron xidmətlərə çıxış imkanlarını “Asan Xidmət” şəbəkəsi və AZƏRPOÇT-un yeni regional idarə və şöbələri vasitəsilə genişləndirməyi davam etdirdi. Regionlarda elektron xidmətlərə çıxış səviyyəsinin yaxşılaşdırılması şəffaflıq və hökumət xidmətlərinin proqnozlaşdırılmasını stimullaşdıracaq ki, bu da öz növbəsində informasiyaya çıxış səviyyəsini artıraraq, korrupsiya hallarının azaldılmasına gətirib çıxaracaq. Regionlarda elektron xidmətlərə çıxış səviyyəsi istiqamətində daha yaxşı koordinasiya və etibarlı statistikanın qurulması da daxil əlavə işlərin görülməsinə ehtiyac var. |
| 6. DÖVLƏT MALIYYƏ NƏZARƏTI ORQANLARINDA ŞƏFFAFLIQ | |
| 6.1 Dövlət Maliyyə Nəzarəti üçün Leqal və İnstitutsional Çərçivə<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Məhdud | Hökumət dövlət maliyyəsi nəzarəti üzrə qanun layihəsi, nizamnamələr və qaydalar yaratma mərhələsindədir. Amma maliyyə nəzarəti üzrə qanun layihəsinin nə zaman hazırlanması və qanunverici orqana təqdim olunması və başlıca cavabdeh orqanının Maliyyə Nazirliyi, yaxud Hesablama Palatası olacağı məlum deyil. Milli tədqiqatçı maliyyə nəzarəti üzrə qanun layihəsinin hazırlanması və ilkin müzakirələrinə Maliyyə Nazirliyinin QHT-ləri cəlb etməsini təklif edir. |
| 6.2 Dövlət Maliyyə İnstitutlarının Hesabatlılığı və Şəffaflıq<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Məhdud | Bu öhdəlik üzrə işlər qismən həyata keçirilib. Analizlərin və statistik məlumatların açıqlanması və ictimaiyyətə bildirilməsi istiqamətində məhdud sayda tədbirlər görülüb. 2012-ci ilin büdcə icrası, 2012-ci il üzrə Hesablama Palatasının hazırladığı büdcə icmalı, 2013-cü il üzrə Hesablama Palatasının dövlət qurumları üzrə audit hesabatları kimi bəzi başlıca sənədlər hökumət internet resurslarına yerləşdirilib. Vergilər Nazirliyi və Maliyyə Nazirliyi müntəzəm olaraq müvafiq məlumatları öz internet ünvanlarına yerləşdirirlər. Milli tədqiqatçı fiskal siyasət məsələləri üzrə təcrübəsi olan QHT-ləri prosesə cəlb etməyi təklif edir. |
| 6.3 Dövlət Maliyyə Nəzarətində İnformasiya Texnologiyalarından İstifadə<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Məhdud | Bəzi texniki hazırlıqlar görülsə də, hökumət hələ ki elektron nəzarət sistemini yaratmamışdır. Maliyyə Nazirliyi və Vergilər Nazirliyi dövlət maliyyə nəzarətində informasiya texnologiyalarını çox tətbiq edir. Amma informasiya texnologiyaları və elektron mexanizmlərdən istifadə üzrə ictimaiyyətdə dəqiq məlumat yoxdur. Nəticədə, bu öhdəliyin açıq hökuməti hansı dərəcədə yaxşılaşdırması məlum deyil. Növbəti mərhələ olaraq, dövlət maliyyə nəzarəti sistemlərinin yaradılması və dəyərləndirilməsi prosesinə vətəndaş cəmiyyətinin cəlb edilməsinə ehtiyac var. |

| ÖHDƏLIYIN ADI | NƏTICƏLƏRIN XÜLASƏSI |
|---|---|
| ✪CÖHDƏLİK AÇıQ HÖKUMƏT DƏYƏRLƏRİNƏ UYĞUNDUR, POTENSİAL TƏSİRİ ÖNƏMLİDİR, ÖNƏMLİ DƏRƏCƏDƏ İCRA OLUNUB | |
| 6.4 Dövlət Maliyyə Nəzarəti Verilənlər Bazası<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Kiçik<br>• Tamamlanma: Məhdud | Maliyyə Nazirliyindən verilən məlumata görə, maliyyə nəzarət institutları üçün vahid elektron verilənlər bazası hazırlanır. Amma bu öhdəliyin ümumi icra səviyyəsi məhduddur. Bundan əlavə, bu öhdəliyin açıq hökumət prinsipləri ilə bağlılığı zəifdir. Bu əsasən maliyyə nəzarət institutları orqanları arasında münasibətləri əks etdirir və geniş ictimaiyyətə hesabatlılıq, iştirakçılıq və şəffaflıq vəd etmir. Milli tədqiqatçı hökumətdən bu öhdəliyə yenidən baxmağı və ya növbəti Fəaliyyət Planında nəzərə almamağı tövsiyə edir. |
| 6.5 Maliyyə Hesabatlarının Açıqlanması<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Məhdud | Dövlət mülkiyyətində olan müəssisələr milli iqtisadiyyatın və ictimai maliyyə dövriyyəsinin önəmli hissəsinə nəzarət edir. Nəticədə, Azərbaycanda dövlət mülkiyyətində olan müəssisələrin maliyyə hesabatlarını açıqlaması (audit hesabatları daxil) xüsusi önəmə sahibdir. Hökumət bu öhdəlik üzrə bəzi hazırlıq fəaliyyətlərinə 2012-ci ilin sonu və 2013-cü ilin əvvəllərində başladı. Öhdəlik istiqamətində daha çox işlərin görülməsinə ehtiyac var. |
| 6.6 Yerli Büdcələrə Nəzarət<br>• AHT Dəyərlərinə Uyğunluq: Qeyri-məlum<br>• Potensial təsir: Kiçik<br>• Tamamlanma: Məhdud | Şəhər, rayon və bələdiyyələrin büdcələrinin formalaşması və icrasının ictimai nəzarətdən kənar baş tutması fonunda bu öhdəlik əhəmiyyətlidir. Amma milli tədqiqatçı öhdəliyin icrası üzrə nə ciddi bir yeni faktla qarşılaşdı, nə də ki öhdəliyin ifadəsindən aydın oldu ki, burada ictimai iştirakçılıq elementi var, yoxsa yox. Növbəti mərhələdə vətəndaşlara yerli büdcəylə bağlı daha çox məlumatın verilməsinə imkan verən nəzarət tədbirləri müzakirə edilməlidir. |
| ✪ 6.7 İllik Büdcə İcrası Hesabatları<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial Təsir: Orta<br>• Tamamlanma: Əsaslı | Azərbaycanda büdcə hesabatları beynəlxalq standartlardan geri qalsa da Maliyyə Nazirliyi aktiv şəkildə hesabat və ilkin sənədləri vaxtında internet ünvanına yerləşdirir. Beynəlxalq standartlara uyğun şəkildə hazırlandığı təqdirdə, Azərbaycanda büdcə üzrə ictimai müzakirələr fonunda açıq hökumət baxımından önəm kəsb edəcək. |
| 7. VERGI NƏZARƏTI VƏ İMTAHANLARI İSTIQAMƏTINDƏ ŞƏFFAFLIQ | |
| 7.1 Vergi ödəyicilərinin zəruri informasiyaya sahib olması<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Yox<br>• Tamamlanma: Tam | Hökumət vergi ödəyicilərini onlayn ödənişlər, vergi dərəcələri və s. haqqında zəruri informasiya ilə təmin etmək üçün bir sıra fəaliyyətlər görmüşdür. AHT Milli Fəaliyyət Planından öncə Vergilər Nazirliyində rutin işin ayrılmaz hissəsi olan bu öhdəlik, daha şəffaf vergi sisteminin işləməsinə gətirirb çıxaracaq. Milli tədqiqatçı həmçinin müşahidə etdi ki, bu öhdəlik ümumi məna daşıyır və icrasına nəzarəti mürəkkəbləşdirir. Nəticədə, bu öhdəliyə yenidən baxılmasına və ya növbəti Faəliyyət Planından çıxarılmasına ehtiyac var. |
| 7.2 Vergi Şəffaflığı<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Məhdud | Yaxşı təcrübə sayılan Beynəlxalq Valyuta Fondunun (IMF) Vergi Şəffaflığı Məcəlləsi kimi maliyyə şəffaflığı üzrə beynəlxalq standartların qəbulu Azərbaycanda korrupsiyanın azaldılması istiqamətində çox vacibdir. Vergilər Nazirliyi IMF nümayəndələri ilə bu və aidiyyəti digər məsələlər üzrə danışıqlar aparmışdır. Vergilər Nazirliyi vergi təcrübəsini beynəlxalq standartlara uyğunlaşdırmaq çərçivəsində IMF-lə danışıqları davam etdirməlidir. |
| 7.3 Vergilərin elektron ödənişi<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın deyil<br>• Potensial təsir: Kiçik<br>• Tamamlanma: Məhdud | Bu öhdəlik 5.4 saylı öhdəliklə eyni məzmunludur və AHT kontekstində əlavə bir dəyər daşımır. Milli tədqiqatçı növbəti Faəliyyət Planında bu öhdəliyi çıxarmağı təklif edir. |

| ÖHDƏLIYIN ADI | NƏTICƏLƏRIN XÜLASƏSI |
|---|---|
| ✪CÖHDƏLİK AÇıQ HÖKUMƏT DƏYƏRLƏRİNƏ UYĞUNDUR, POTENSİAL TƏSİRİ ÖNƏMLİDİR, ÖNƏMLİ DƏRƏCƏDƏ İCRA OLUNUB | |
| 8. HASİLAT SƏNAYESİNDƏ ŞƏFFAFLIQ | |
| 8.1 Hasilat Sənayesi Şəffaflıq Təşəbbüsünün İcrası (HSŞT)<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Yox<br>• Tamamlanma: Tam | Azərbaycanın fiskal gəlirlərində hasilat sənayesi önəmli paya sahibdir və HSŞT hökumət, vətəndaş cəmiyyəti və hasilat şirkətləri arasında dialoq üçün mühüm imkanlar yaradır. AHT öhdəliyi müddətində Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) HSŞT standartlarının tətbiqinə davam etdi. Amma hökumət bu dialoqlara AHT Milli Fəaliyyət Planına daxil olmadan öncə başlamışdı. Bu dialoqların digər təşəbbüslərdə davam etdirilməsinin vacib olduğunu nəzərə alsaq, milli tədqiqatçı əvvəlki öhdəlikləri növbəti tədbir planına daxil etməyi məsləhət görmür. |
| 8.2 Hasilat Sənayesi Gəlirlərinin Açıqlanması<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Yoxdur<br>• Tamamlanma: Tam | 2013-cü ilin iyun ayında Azərbaycan 17-ci HSŞT hesabatını nəşr etdi. Bu öhdəlik əvvəldən mövcud idi və bilavasitə HSŞT-nin tələblərinə cavab verir. Nəticədə, bu öhdəlik də daxil olmaqla AHT Milli Fəaliyyət Planında heç bir əlavə dəyər yaratmadı. Gələcəkdə hökumət məhdud və status-kvonu dəyişdirmə potensialı olmayan mövcud öhdəlikləri AHT Fəaliyyət Planına yenidən daxil etməməlidir. |
| 8.3 İllik HSŞT Hesabatlarının Açıqlanması<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Yoxdur<br>• Tamamlanma: Tam | HSŞT ilə bağlı digər öhdəliklər kimi burada da Azərbaycan hökuməti tərəfindən atılan addımlar təqdirəlayiq hesab edilsə belə, AHT Milli Fəaliyyət Planında əlavə dəyər kəsb etmir. ARDNF müntəzəm olaraq HSŞT icrası ilə bağlı hesabatları nəşr etməyə başlayıb (bəzən hesabatlar vaxtında internet ünvanına yerləşdirlməsə belə). Bu baxımdan növbəti AHT Milli Fəaliyyət Planında əlavə dəyər yaratmaq üçün hökumət bu addımları atmalıdır: ARDNF HSŞT hesabatlarını bitirən kimi internet ünvanına yerləşdirməli və bu hesabatlar çərçivəsində QHT-lərlə dəyirmi masalar təşkil etməlidir. |
| 9. AÇIQ HÖKUMƏT SAHƏSİNDƏ MAARİFLƏNDİRMƏ VƏ ƏMƏKDAŞLIQ | |
| 9.1 AHT Milli Fəaliyyət Planı Nəticələrinin Açıqlanması<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Məhdud | Bu hesabat üzərində işləyərkən Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası mərkəzi və yerli icra hakimiyyəti orqanlarından icra ilə əlaqəli ilkin hesabatları toplamağa və nəticələri analiz etməyə başlamışdı. Nəticədə, hökumətin illik icra hesabatını yekunlaşdırmağı və nəticələri 2014-cü ilin əvvəllərində açıqlamasını gözləmək daha real olardı. AHT tədqiqatçısı Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyadan Milli Fəaliyyət Planının illik icrasının qiymətləndirilməsinə QHT-lər və müstəqil ekspertləri dəvət etməyi təklif edir. |
| 9.2 AHT Tədris Materiallarının Yayılması<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Məhdud | Hökumət müxtəlif tədris materialları hazırlayıb və bunları sona çatdırıb, 2013-cü ilin sonu və ya 2014-cü ilin əvvəlinə paylamağı planlaşdırırdı. Əgər hökumət asan və başadüşülən dildən istifadə edərək qeyri-texniki nəşrlər hazırlayarsa və ölkə boyu yayılarsa bu materiallar AHT haqqında ictimai maarifləndirməni tədricən artıracaq. Digər öhdəliklər kimi bu istiqamətdə vaxt baxımından dəqiqlik olmadığına görə hökumətin aydın vaxt intervalını müəyyənləşdirməsinə ehtiyac var. AHT üzrə tədris materiallarının hazırlanmasında QHT nümayəndələri və müstəqil ekspertlərin dəvət edilməsi imkanı da vardır. |
| 9.3 AHT Öhdəliklərinin İcrasının Davamı<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Kiçik<br>• Tamamlanma: Dəqiq deyil | Hökumət aktiv şəkildə AHT-nin bütün illik sammitlərində iştirak etmişdir. Amma bu öhdəliyin miqyasının qeyri-məlum olmasından, bu fəaliyyətləri bu öhdəliklə bağlamaq mümkünsüzdür. Bu öhdəliyin məzmununa yenidən baxılmasına, görülən tədbirlərə aydınlıq gətirməyə və daha dəqiq təqdim olunmasına ehtiyac var. |

| ÖHDƏLIYIN ADI | NƏTICƏLƏRIN XÜLASƏSI |
|---|---|
| ✪CÖHDƏLİK AÇıQ HÖKUMƏT DƏYƏRLƏRİNƏ UYĞUNDUR, POTENSİAL TƏSİRİ ÖNƏMLİDİR, ÖNƏMLİ DƏRƏCƏDƏ İCRA OLUNUB | |
| 9.4 Açıq Hökumət Təşəbbüsü Çərçivəsində Vətəndaş cəmiyyətlərinə Maliyyə Yardımı<br>• AHT Dəyərlərinə Uyğunluq: Aydın<br>• Potensial təsir: Orta<br>• Tamamlanma: Məhdud | Şura 2007-ci ilin dekabr ayında qurulmasına baxmayaraq, açıq hökumətlə bağlı layihələrin maliyyələşdirilməsi yeni bir istiqamət olaraq AHT Milli Fəaliyyət Planının qəbulundan sonra gerçəkləşdi. QHT-lərə Dövlət Dəstəyi Şurası Azərbaycanda açıq hökumət prinsiplərinin inkişafı istiqamətində hazırda iki layihəni dəstəkləyir. AHT tədqiqatçısı Şuranın yalnız maarifləndirmə deyil, alternativ monitorinq fəaliyyətləri də daxil olmaqla daha çox QHT layihələrini dəstəkləməsini təklif edir. Bu dəstək müxtəlif sektor və regionlardan olan QHT-ləri əhatə etməldir. Eləcə də istər hökumət, istərsə də donor agentlikləri olsun, maliyyə mənbəyindən asılı olmayaraq, hətta tənqidi baxışlarına görə QHT-lərə müdaxilə edilməməsinə və müstəqil olmaları prinsipinə hörmətlə yanaşmalıdır. |

## TƏKLİFLƏR

Azərbaycan resursla zəngin, inkişafda olan iqtisadiyyata sahib keçmiş sovet ölkəsidir. Amma institusional tədbirlər və xərclər çərçivəsində müvəqqəti problemlər var ki, bunlar fiskal davamlılıq və uzunmüddətli iqtisadi inkişaf fonunda ölkəyə gələn gəlirlərin qeyri-effektiv istifadəsini təhlükə altına qoyur. Azərbaycanın AHT-də iştirakı bu institusional çərçivənin yaxşılaşdırma potensialını yaradır.

Yüksək səviyyədə təqdirəlayiq hesab edilməsinə baxmayaraq, hökumətin Milli Fəaliyyət Planında rəsmi sənəd olaraq bəzi çatışmazlıqlar da var. Öhdəliklərin az bir qismi Azərbaycanda açıq hökumət üzrə qabarıq olan-vətəndaşların ifadə azadlıqları, toplaşma və birləşmə azadlıqları kimi fundamental məsələlərlə bilavasitə əlaqəlidir. Bundan əlavə, aydın və dəqiq vaxt məhdudiyyətinin olmaması öhdəliklərin faktiki icrasının monitorinq və dəyərləndirilmə prosesini mürəkkəbləşdirir. Başqa sözlə desək, davamlı əsaslarla vaxt məhdudiyyəti qoyulmayan öhdəlikləri daxil etməməlidirlər.

2014 və 2015-ci illərdə hökumət yeni fəaliyyət planı üzrə beş il üçün prioritetləri ideal olaraq vətəndaş cəmiyyəti ilə konsultasiya çərçivəsində müəyyənləşdirəcək. Hökumətin növbəti bir neçə il üçün başlıca prioritetləri əsasən elektron xidmətlərin artırılması və ASAN-Xidmət Mərkəzlərinin (İctimai Xidmət Mərkəzləri) artırılması olacaq. Bu vacib məqsədə əlavə olaraq, milli tədqiqatçı hökumətə aşağıdakı prioritetləri daxil etməyi təklif edir.

### İctimai İştirakçılıq

Qərar qəbuletmə prosesində ictimai iştirakçılığı təmin etmək üçün hökumətin təcili yeni imkanlar yaratmasına ciddi ehtiyac var. Bunlara vətəndaş cəmiyyətinin hökumətlə kritik siyasi məsələlər üzrə fikir mübadiləsini aparacaq mexanizmlər, eləcə də mərkəzi və yerli hakimiyyət orqanları nəzdində müstəqil ictimai şuraların yaradılması daxildir. Seçki inteqrasiyası və şəffaflıq çox tərəflər üçün prioritet məsələdir və seçki komissiyalarında geniş və bərabər iştirak şərtlərilə artırılmalıdır.

Bundan əlavə, Milli tədqiqatçı AHT Milli Fəaliyyət Planı icrasına nəzarət və müzakirəsi üçün birgə hökumət-vətəndaş cəmiyyəti dialoq platformasının yaradılmasını təklif edir. Vətəndaş cəmiyyətinin AHT üzrə fəaliyyət planının ilkin versiyasında formal iştirakı limitlidir.

### İnformasiyaya Çıxış

Hökumət informasiya əldəetmə istiqamətində ciddi uğurlar əldə etsə də, daha çox işlərin görülməsinə ehtiyac var. Tərəflər hesab edir ki, leqal və iştirakçı mexanizmlər vasitəsilə ölkə ərazisində təbii resurslar, neft, qaz və mədən tədqiqində daha çox şəffaflığın artırılmasına gətirib çıxaracaq. Dövlət rəsmilərinin mülkiyyətinin açıqlanması baxımından irəliləyişlər də korrupsiyaya qarşı mübarizə istiqamətində vacib addım hesab edilir.

Hökumət informasiya qanunu azadlığının icrasını yaxşılaşdırmaq üçün də bir sıra addımlar atmalıdır. Məsələn, hökumət açıq hökumət nəşrlərinin hazırlanmasında və qanun icra edən dövlət məmurlarına keçiriləcək təlimlərə müstəqil ekspertlər və QHT-ləri cəlb etməlidir. Mərkəzi və yerli icra hakimiyyəti orqanları onların cəmiyyətə açıqlanan illik hesabatlarında hansı məlumatların olması ilə bağlı minimum standartların olmasından ciddi şəkildə faydalana bilərlər.

Azərbaycanda ictimai xidmətlərin effektiv aparılması cəmiyyətə olan hesabatlılığın artırılmasından asılıdır. İctimai xidmətlər üzrə vahid verilənlər bazasının yaradılması, eləcə də mərkəzi hökumət şöbələri tərəfindən təmin olunan ictimai xidmətlərin siyahıya alınması ilk vacib addımdır. Hökumət tədricən ictimai xidmətlərin keyfiyyətini daha yaxşı qiymətləndirəcək və beləcə, metodologiyanı nəşr edəcək.

Son olaraq, milli tədqiqatçı beynəlxalq AHT Katibliyindən Milli Fəaliyyət Planları ilə bağlı AHT üzv ölkələrini yeni və daha dəyərli öhdəliklər yaratmaq istiqamətində tədbirlər görmək üçün ciddi keyfiyyət tələbləri təyin etməyi təklif edir.

## UYĞUNLUQ TƏLƏBLƏRİ: 2012

AHT-də iştirak üçün hökumətlər açıq hökumət istiqamətlərinə uyğun 4 uyğunluq tələblərinə cavab verməklə öhdəliklər götürürlər. Hər bir istiqamət üzrə ölkələrin performansı müvafiq indikatorların köməyi ilə ballıq sistemlə ölçülür: www.opengovpartnership.org/how-it-works/how-join/eligibility-criteria

**BÜDCƏ ŞƏFFAFLIĞI:**
BÜDCƏ LAYIHƏSI VƏ AUDIT HESABATI (4-DƏN 4)

**İNFORMASIYAYA ÇIXIŞ:**
QANUN VAR (4-DƏN 4)

**BƏYANNAMƏLƏR AÇIQLANMASI:**
MƏMURLAR PARLAMENTƏ (4-DƏN 2)

**İŞTIRAKÇILIQ:**
10-DAN 4.71 (4-DƏN 2)

Müəllif Milli Büdcə Qrupunun (MBQ) layihə koordinatoru və ictimai Vəsaitin Monitorinqi Mərkəzinin aparıcı iqtisadçısıdır. Bu hesabatı müəllif təkbaşına hazırlamışdır.

Open Government Partnership
INDEPENDENT REPORTING MECHANISM

Açıq Hökumət Tərəfdaşlığı (AHT) hökumətin vətəndaşlar qarşısında şəffaflığın təşviqi, vətəndaşlara daha böyük səlahiyyətlərin verilməsi, koorupsiya ilə mübarizə və idarəetmənin gücləndirilməsi üçün yeni texnologiyaların tətbiqi istiqamətində öhdəliklər götürdüyü könüllü beynəlxalq təşəbbüsdür. AHT-də iştirakçı ölkələrin hər birinin fəaliyyətlərinin iki ildə bir qiymətləndirməsi Müstəqil Hesabatlılıq Mexanizmi (MHM) çərçivəsində aparılır.

# I | İLKİN MƏLUMAT

**Açıq Hökumət Tərəfdaşlığı (AHT) hökumətlərdən şəffaflığın təbliğatı, vətəndaş səlahiyyətinin artırılması, korrupsiyayla mübarizə, hökumətin gücləndirilməsi üçün yeni texnologiyanın əldə edilməsi kimi konkret tələblərin yerinə yetirilməsini təmin edən könüllü, çoxtərəfli beynəlxalq təşəbbüsdür. Bu məqsədlərə çatmaq üçün AHT hökumətlər, vətəndaş cəmiyyətləri, özəl sektorlar arasında dialoq və fikir mübadiləsi apararaq beynəlxalq forumlar təşkil edir. Bütün bunlar ümumilikdə Açıq Hökumət prinsiplərinə xidmət edir. AHT üzvlərinə açıq hökumət prinsip və missiyasını dəstəkləyən iştirakçı hökumətlər, eləcə də vətəndaş cəmiyyəti və özəl sektor qurumları daxildir.**

## Giriş

Azərbaycan rəsmi olaraq AHT-ə 2011-ci ilin sentyabr ayında qoşuldu. AHT-də iştirak etməklə hökumətlər açıq hökumət çərçivəsində hökumətin cavabdehliyinin artırılması, vətəndaş iştirakının gücləndirilməsi və korrupsiya ilə mübarizə kimi başlıca parametrlər üzrə minimum iştirak kriteriyalarını qarşılayaraq öz öhdəliklərini yerinə yetirməlidir. Obyektiv olaraq, minimum uyğunluq göstəriciləri aşağıda əksini tapan hər ölçü üzrə ölkədə inkişaf dərəcəsinin təyini üçün istifadə olunur.

Azərbaycan tərəfdaş iclasına minimum tələblərə cavab verərərək qatıldı. "Büdcə şəffaflığı" kateqoriyası üzrə mümkün 4 baldan maksimum nəticə ilə 4 bal yığdı. Ölkədə informasiya qanununun olmasına görə "İnformasiya əldə etmək" üzrə mümkün 4 baldan 4 bal qazandı. Siyasətçilər və yüksək vəzifəli məmurların aktivlərinin açıqlanması ilə bağlı göstəriciyə gəlincə ölkə sadəcə parlament üzvlərinin aktivlərinin bəyan edilməsi ilə fərqlənərək 4 baldan 2 bal topladı. Yüksək vəzifəli şəxslərin aktivləri barədə məlumatlar ictimailəşdirilmir. Vətəndaş iştirakçılığına gəlincə "Economist Intelligence Unit" təşkilatının demokratikləşmə indeksinə əsaslanaraq ölkənin göstəricisi mümkün 10 baldan 4,71 bal oldu ki, bu, AHT məqsədləri üçün 4 baldan 2 balın toplanması kimi nəzərə alındı. Azərbaycan nəticədə toplam olaraq 16 baldan 12 bal topladı. AHT-dəki bütün hökumət iştirakçıları açıq hökumət üzrə ölkənin fəaliyyət planını elə inkişaf etdirməlidir ki, ilk iki illik müddətə dəqiq öhdəliklər yarana bilsin.

Hökumət özlərinin fəaliyyət planını açıq hökumət strategiyası və davam edən proqramlar daxil olmaqla açıq hökumətin beş "böyük çağırış"ının qurulması ilə əlaqədar olaraq mövcud səylərin paylaşımı ilə başlamalıdırlar (Fəsil IV böyük çağırış siyahısına bax). Fəaliyyət planı hər bir hökumətin AHT öhdəliklərini formalaşdırmalı və bunlar da öz növbələrində hökumət təcrübəsini müvafiq böyük çağırışa cavab vermək üçün onların mövcud təməl çərçivəsinə qədər daha da genişləndirməlidir. Bu öhdəliklər mövcud səylər əsasında qurula bilər və davam edən islahatları yeni mərhələlərini təyin edə bilər yaxud da tamamilə yeni sahədə yeni fəaliyyət növünün başlanğıcı ola bilər.

Azərbaycanın açıq hökumət üzrə milli fəaliyyət planı 9 müxtəlif kateqoriya çərçivəsində 37 öhdəlikdən ibarətdir. Öhdəliklərin bəziləri yenidir və bəziləri də digər əlaqədar dövlət proqramlarında artıq öz əksini tapan müxtəlif təşəbbüsləri əks etdirir. Öhdəliklərin çoxunun bir növ ünvansız olmasına baxmayaraq bu vətəndaş cəmiyyətləri qruplarından təqdim edilən təkliflərdən ibarət hərtərəfli tədbirlər planıdır.

AHT tələblərinə uyğun olaraq, AHT Müstəqil Hesabatlılıq Mexanizmi (MHM) təcrübəli və müstəqil yerli tədqiqatçı ilə Azərbaycan üzrə Fəaliyyət Planının inkişaf və həyata keçirilməsi ilə bağlı dəyərləndirmələr həyata keçirildi. Hesabatın müəllifi Kənan Aslanlı Azərbaycan üzrə Milli tədqiqatçı olmaqla Milli Büdcə Qrupunun layihə koordinatoru və İctimai Vəsaitin Monitorinqi Mərkəzinin baş iqtisadçısıdır. Xatırladaq ki, hesabat müəllifin fərdi məhsuludur və onun şəxsi imkanları hesabına yazılıb. IRM-in məqsədi hər AHT iştirakçısı üzrə gələcək öhdəliklərin yerinə yetirilməsi və inkişafı baxımından dialoq aparmaqdır.

## İnstitusional kontekst

Korrupsiyaya Qarşı Mübarizə İdarəsi Azərbaycanda 5 sentyabr 2012-ci il tarixli Prezident fərmanıyla təsdiqini tapmış "Açıq Hökumət Milli Fəaliyyət Planı 2012-2015"-in icrası ilə bağlı əsas əlaqələndirici qurumdur. Komissiyaya rəhbərliyin Prezident Administrasiyası rəhbəri tərəfindən aparılması və açıq hökumət təşəbbüsünün hökumət tərəfindən məsul şəxsinin Komissiyanın katibi olması həmin qurumun bu sahədə təsirli institut olmasından xəbər verir. Bu həmçinin Milli Fəaliyyət Planının monitorinqi və açıq hökumət məsələlərinin ictimaiyyətə çatdırılması ilə bağlı bir qurumdur.

Sentyabr 2012-ci ildə Milli Fəaliyyət Planının qəbulundan sonra Korrupsiyaya Qarşı Mübarizə İdarəsi rəsmən "qeyri-hökumət təşkilatlarını Milli Fəaliyyət Planının icrası və

dəyərləndirilməsi prosesinə cəlb etmək və geniş ictimai tədbirlər təşkil etmək" öhdəliyini üzərinə götürdü.

AHT öhdəliklərinin bir hissəsi olaraq, Prezident (13 İyul, 2012, 685 saylı fərman) Vətəndaşlara Xidmət və Sosial İnnovasiya üzrə Dövlət Agentliyini, eləcə də də Agentlik nəzdində "Asan Xidmət" mərkəzlərini yaratdı. "Asan Xidmət" mərkəzləri xidmətləri daha inteqrasiyalı, cavabdehliklə və koordinasiyalı şəkildə idarə edir. "Asan Xidmət" mərkəzləri məmur-vətəndaş münasibətlərində məmnunluq səviyyəsini artırdı. AHT işləri üzrə hökumətin keçmiş təmsilçisi cənab İman Kərimov Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri təyin edildi (O, həm də hökumətin ən gənc üzvüdür.)

Azərbaycan 45 nazirlik və digər mərkəzi icra orqanları (komitələr, komissiyalar, agentliklər və ictimai xidmətlər daxil olmaqla), eləcə də, 65 şəhər və rayon (təyin olunmuş) icra qurumlarından ibarət unitar dövlətdir. Milli Fəaliyyət Planı bütün mərkəzi və yerli idarəetmə və dövlət qurumlarının daha şəffaf, hesabatlı və iştirakçı əsaslarla fəaliyyət göstərməsini tələb edir. Bundan əlavə yetərsiz informasiya və idarəetmə çətinliklərinə görə Naxçıvan Muxtar Rrespublikası bu dəyərləndirmədən kənarda qaldı.

Milli Fəaliyyət Planı açıq hökumət təşəbbüsü çərçivəsində geniş tərkibdə dövlət problemlərini həll etmək iradəsini nümayiş etdirməsinə baxmayaraq, mürəkkəb dəyərləndirmə, effektivlik və icra prosesində vaxt amili kimi çətinliklər var.

Hesabatın məqsədləri baxımından qeyd etmək zəruruidir ki, Azərbaycan hökuməti digər 37 ölkə ilə müqayisədə AHT-də iştirakını 3 ay gec bəyan etmişdi. Bu müraciət 2012-ci il Braziliyada keçirilən sammitdə edilmişdi.

## Metodik qeyd

Milli tədqiqatçı maraqlı tərəflərin iki iclasını keçirdi. Birncisi, 11 oktyabr 2013-cü il tarixində hökumət nümayəndələri ilə, digəri isə 12 oktyabr 2013-cü il tarixində vətəndaş cəmiyyəti nümayəndələri ilə baş tutdu. Daha sonra milli tədqiqatçı açıq hökumətin müxtəlif aspektləri ilə bağlı professionallar, ictimai fikir liderləri və özəl sektor nümayəndələri ilə altı müsahibə apardı. Bunlara hökumətin Açıq Hökumət üzrə təmsilçisi cənab Vüsal Hüseynov, eləcə də çox sayda vətəndaş cəmiyyəti təşkilatları - İqtisadi Tədqiqatlar Mərkəzi, Seçkilərin Monitorinqi və Demokratiya Tədrisi Mərkəzi, İctimai Vəsaitin Monitorinqi Mərkəzi, Azad İqtisadiyyata Yardım Mərkəzi, İqtisadi Təşəbbüslərə Yardım Mərkəzi, Konstitusiya Araşdırmaları Fondu, Multimedia Mərkəzi və aktiv şəkildə tərəflərin iclas və müsahibələrinə qatılan digər təşkilatlar daxildir.

Milli tədqiqatçı tərəflərin görüş və müsahibələri fonunda iştirakçılardan müxtəlif fikirlər topladı, açıq hökumət milli planı üzrə müxtəlif dəyərləndirmələr apardı, ictimai bəyanatlar verdi və müxtəlif açıq mənbələrdə nəşr etdirdi.

Səciyyəvi olaraq, AHT müstəqil hesabatlılıq mexanizminin inkişaf hesabatları hökumətin öz dəyərləndirməsini meyar olaraq diqqətə alır. Azərbaycan digər ölkələrə nisbətən prosesə 3 ay gec başladığından özünüqiymətləndirmə hesabatını hələ açıqlamayıb və milli tədqiqatçı belə bir sənədə istinad edə bilməyib. Milli tədqiqatçının metodologiyası haqqında daha ətraflı məlumat əlavədə öz əksini tapmışdır.

## Mənbələr:

Korrupsiya ilə Mübarizə Komissiyası (7 Sept. 2012), http://www.antikorrupsiya.gov.az/view.php?lang=en&menu=3&id=301.

Demokratiya İndeksi 2011: http://www.sida.se/Global/About%20Sida/S%C3%A5%20arbetar%20vi/EIU_Democracy_Index_Dec2011.pdf.

Azərbaycan Hökuməti. Milli Fəaliyyət Planı http://www.opengovpartnership.org/country/azerbaijan.

"ASAN Xidmət," http://asan.az.

# II | PROSES: FƏALİYYƏT PLANININ HAZIRLANMASI

AHT iştirakçı ölkələri AHT Fəaliyyət planlarının inkişafı ərzində konsultasiya prosesləri keçirirlər. Ölkələr aşağıdakılara əməl etməlidir:

- İctimai konsultasiya proseslərinin detallarını hazırlamaq və konsultasiyaya uyğun iş qrafiki təyini (ən azı onlayn olaraq);
- Vətəndaş cəmiyyəti və özəl sektor daxil olmaqla geniş məsləhətləşmələr aparılmalı, fərqli yanaşmalar axtarmalı, ictimai konsultasiyanın xülasəsini hazırlamaq və bütün təqdim olunan şərhləri fərdi yazılı şəkildə onlayn olaraq yerləşdirmək;
- Konsultasiya prosesində ictimai iştirakçılığı artırmaq məqsədilə maarifləndirmə tədbirləri artırmaq;
- Müxtəlif mexanizmlər vasitəsilə (onlayn və birbaşa görüşlər) vətəndaşların cəlbi imkanlarını artırmaq və insanlarla məsləhətləşmələr aparmaq.

Konsultasiya çərçivəsində beçinci tələb Hökumətin AHT mətnində qeyd olunur. Bu öhdəlik “C bölməsi ilə: icra çərçivəsində konsultasiya ilə əlaqədardır”:

- AHT-nın icrası ilə bağlı müntəzəm olaraq maraqlı tərəflərin konsultasiyasına imkan yaradan forum təyin etmək – bu mövcud və ya yeni bir müəssisə ola bilər.

Cədvəl 1 hökumətin AHT mətnində yer alan tələblərlə uyğunluq dərəcəsini ümumiləşdirir.

## Cədvəl 1: Konsultasiya Prosesi

| | | |
|---|---|---|
| İştirak planı inkişafı ərzində konsultasiya | İş qrafiki və proses: Mövcudluğuna görə | Xeyr |
| | İş qrafiki: Onlayn | Xeyr |
| | İş qrafiki: Digər kanallar | Xeyr |
| | Əvvəlcədən bildiriş | Xeyr |
| | Əvvəlcədən bildiriş: Günlər | Bəlli deyil |
| | Əvvəlcədən bildiriş: Adekvatlıq | Bəlli deyil |
| | Maarifləndirmə fəalliyyəti | Bəli |
| | Onlayn konsultasiyalar | Bəli |
| | Şəxsi məsləhətləşmələr | Bəli |
| | Şərhlərin xülasəsi | Bəli |
| İştirak planının icrası ərzində konsultasiya | Müntəzəm forum | Xeyr. Növbəti bölməyə baxın |

XÜLASƏ

## Əvvəlcədən Məlumatlandırma Konsultasiyası

Açıq Hökumət Milli Fəaliyyət Planı və Korrupsiyaya Qarşı Milli Fəaliyyət Planı məhdud sayda vətəndaş cəmiyyəti təşkilatları ilə müzakirələrdən sonra 5 senyabr 2012-ci il tarixində Prezidentin fərmanı ilə qəbul olundu. Milli Fəaliyyət Planı 2004-2006-cı illər Korrupsiyaya qarşı Mübarizə Dövlət Proqramının və 2007-2011-ci illər üzrə Milli Strategiyanın icrası ilə bağlı Planın davamıdır.

2012-ci ilin may ayında açıq hökumət üzrə Milli Fəaliyyət Planının ilkin versiyası vətəndaş cəmiyyəti nümayəndələri və adi vətəndaşlardan ilkin cavabları əldə etmək üçün Korrupsiyaya qarşı Mübarizə İdarəsinin internet ünvanına yerləşdirildi.

Hökumət nəzdində əsas və başlıca əlaqələndirici qurum olaraq Korrupsiyaya qarşı Mübarizə İdarəsi 2012-ci lilin Mart və May aylarında açıq hökumət üzrə ilkin Milli Fəaliyyət Planının müzakirəsinə həsr olunmuş ictimai dinləmələr keçirdi. Martda baş tutan icitmai dinləmə Avropa Şurası ilə birgə keçirildi. Əlavə olaraq, Milli Büdcə Qrupu və Multimedia Mərkəzi açıq hökumət konsepti və Milli Fəaliyyət planı üzrə 2012 May və İyun aylarında bir neçə təşəbbüslə çıxış etdilər.

## Konsultasiyanın Keyfiyyəti və Əhatəsi

Az sayda vətəndaş cəmiyyəti şəbəkəsi üzvləri, QHT-lərin Anti-Korrupsiya Şəbəkəsi, Multimedia Mərkəzi və Milli Büdcə Qrupu rəsmi konsultasiya prosesində öz maraqlarını ifadə etdilər və təkliflərini təqdim etdilər. Ümumi olaraq, bu cür məsələlərin müzakirəsi platformasının çatışmazlığı və öncədən ictimai məlumatlanırmanın aşağı səviyyədə olması vətəndaş cəmiyyəti iştirakını məhdudlaşdırdı. Təəssüf ki, heç də bütün tərəflər konsultasiyaları açıq hökumət üzrə rəsmi siyasətin və qərar qəbuletmənin əsas və təsirli elementi hesab etmədi.

Konsultasiyalarda iştirak edən vətəndaş cəmiyyəti qrupları hökumətin planları üzrə məhdud olaraq məlumatlandırıldı. Ölkədə çox sayda vətəndaş cəmiyyəti təşkilatlarının olmasına baxmayaraq, konsultasiyalar az sayda vətəndaş cəmiyyəti seqmentini əhatə edəcək şəkildə əsasən paytaxt Bakıda keçirildi. Özəl sektor nümayəndələri rəsmi konsultasiya prosesinə cəlb olunmadı. Bundan əlavə, ictimai konsultasiyaların xülasəsi onlayn olaraq yerləşdirilmədi və konsultasiyaların nəticələri ilə bağlı rəsmi mətbuat nəşrləri olmadı. Bəzi vətəndaş cəmiyyəti təşkilatları Milli Fəaliyyət Planı ilə bağlı öz fəaliyyətlərini təşkil etdilər. Milli Büdcə Qrupu açıq hökumət məsələləri üzrə ictimai dinləmələr həyata keçirdi və nümayəndəsini Brazilyadakı qlobal sammitə göndərdi. Eyni zamanda, QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə iki vətəndaş cəmiyyəti koalisiyaları – "Açıq Hökumət üzrə Gənclər Koalisiyası" və "Açıq Hökumətin Təşviqi Koalisiyası – prosesə vətəndaşların cəlbini artırmaq və Milli Fəaliyyət Planının icrası ilə bağlı ictimaiyyətin öncədən məlumatlı olmalarını təmin etmək üçün regionlarda bəzi fəaliyyətlər həyata keçirdi.

## Mənbələr


Anticornet.az, "Multimedia Mərkəzinin Məlumatı" (29 June 2012), http://az.anticornet.az/index.php?newsid=1317.

Civil Society Report, Alternative Assessment and Monitoring Report On Open Government National Action Plan - April-June 2013, prepared by Transparency Azerbaijan, Economic Research Centre, Constitution Studies Fund, Internews Azerbaijan, Organisation of European Integration of Azerbaijani Youth with financial support of USAID (Baku: 2013).

Commission on Combating Corruption, "Information of the Commission on Combating Corruption on adoption of Action Plan on Open Government and Action Plan on Combating Corruption of the Republic of Azerbaijan" (7 Sept. 2012), http://www.antikorrupsiya.gov.az/view.php?lang=en&menu=3&id=301.

Milli Büdcə Qrupunun (MBQ) Azərbaycanda Açıq Hökumət Tərəfdaşlığı (AHT) təşəbbüsünün inkişafı ilə bağlı tədbirləri (20 May 2012), http://www.nbg.az/index.php?option=com_content&view=article&id=226%3Amilli-buedc-qrupunun-mbq-azrbaycanda-acq-hoekumt-trfdal-aht-tbbuesuenuen-inkiaf-il-bal-tdbirlri&catid=1%3Alatest-news&Itemid=27&lang=az.

# III | PROSES: İCRA ILƏ BAĞLI MƏSLƏHƏTLƏŞMƏLƏR

Cədvəl 1-dən də göründüyü kimi, açıq hökumət Milli Fəaliyyət Planının icrası ərzində qeyri-dövlət qurumları ilə konsultasiya üçün müntəzəm forumlar keçirilmədi.

XÜLASƏ

XÜLASƏ

# IV | ÖHDƏLİKLƏRİN HƏYATA KEÇİRİLMƏSİ

İlkin iki illik müddət üçün konkret tələblərin təkmilləşməsi məqsədilə bütün AHT iştirakçı hökumətləri AHT ölkə fəaliyyət planlarını qəbul edirlər. Hökumətlər AHT üzrə ölkənin fəaliyyət planını, açıq hökümət strategiyasını və davam edən proqramları beş "böyük çağırış" ilə uyğunlaşmasına xüsusi fikir verirlər. Milli Fəaliyyət Planı açıq hökumət öhdəliklərini müəyyən edir, bu isə müəyyən sahədə hökumətin mövcud təcrübəsini daha da zənginləşdirməyə xidmət edir. Bu öhdəliklər mövcud səylər əsasında qurula bilər və davam edən islahatların yeni mərhələlərini təyin edə, yaxud da tamamilə yeni sahədə yeni fəaliyyət növünün başlanğıcı ola bilər. AHT öhdəlikləri hökumətin üzləşdiyi "5 çağırış" ətrafında strukturlaşdırılır.

AHT bütün ölkələrin müxtəlif təcrübə səviyyəsindən başlamasını nəzərə alır. Ölkələr öz unikal ölkə kontekstləri ilə əlaqəli böyük çağırış və konkret öhdəliklərlə məşğul olur. Heç bir ölkəyə hər hansı bir fəaliyyət planı və ya standart üzrə təzyiq göstərilmir. Böyük AHT çağırışları aşağıdakılardır:

- **İctimai Xidmətlərin Yaxşılaşdırılması** – səhiyyə, təhsil, cinayət-ədliyyə, su, elektrik, telekommunikasiya və digər sahələri əhatə edəcək şəkildə bütün vətəndaş xidmətləri sferasını əhatə edən ictimai xidmətlər və özəl sektor innovasiyalarının yaxşılaşdırılması.
- **İctimai İnteqrasiyanı Artırmaq** – Korrupsiya və İctimai Etika, informasiya əldəetmə, maliyyə islahatı kampaniyası, media və vətəndaş cəmiyyəti azadlığı ilə əlaqəli tədbirlər.
- **İctimai Resursların daha Effektiv İdarəetməsi** - büdcə, satınalma, milli resurslar və xarici yardım məsələləri.
- **Təhlükəsiz Cəmiyyətlərin Yaradılması** – İctimai Təhlükəsizlik, təhlükəsizlik sektoru, fəlakət və ekoloji təhlükələrlə əlaqəli tədbirlər.
- **Korporativ Hesabatlılığın Artırılması** - ətraf mühit, anti-korrupsiya, istehlakçının qorunması və ictimai məşğulluq kimi məsələlərdə korparativ məsuliyyəti artırmaq.

Konkret öhdəlikdən asılı olaraq açıq hökumətin böyük çağırışlar sferası dəyişkən olmaqla hər ölkənin özünə xas xüsusiyyətlərinə malikdir və bütün AHT öhdəlikləri açıq hökumətin 4 başlıca prinsiplərinə riayət etməlidir:

- **Şəffalıq** - Hökumət fəaliyyəti ilə bağlı informasiya və qərarların açıq, hərtərəfli, vaxtında ictimaiyyətə sərbəst açıqlanması və bunun standartlarının olması (məsələn, məlumat bazası və elektron maşınlar tərəfindən sənədlərin "oxunabilirliyi").
- **Vətəndaş iştirakçılığı** - Hökumətlərin vətəndaşların ictimai debatlarda iştirakını təşkil etməsi, daha cavabdeh, innovativ və effektiv hökumətin formalaşması istiqamətində əməkdaşlıq.
- **Hesabatlılıq** – Hökumətin öz fəaliyyətlərini əsaslandırmaq, onların uğursuzluğu üçün məsuliyyət daşıdığı, tənqidlərə cavab verməyi məcbur edən qaydalar, tənzimləmələr və mexanizmlər.
- **Texnologiya və İnnovasiya** – Hökumətlərin vətəndaşların texnologiyaya sərbəst çıxışını təmin etməsi, innovasiyalarda yeni texnologiyanın rolu, vətəndaşların texnologiyadan istifadə bacarığının artırılmasının vacibliyi.

Ölkələr öz öhdəlikləri ilə açıq hökumət səylərinin harda daha çox effekt verməsinə inanmaqlarından asılı olaraq milli, yerli və ya submilli səviyyədə məşğul ola bilərlər. Açıq hökumət öhdəliklərinə nail olmaq bəzən bir neçə illik proses ola bilər. Bunu nəzərə alaraq hökumətlər müddət və göstəriciləri öz öhdəliklərinə əlavə edə bilər, hansılar ki, hər il mümkün qədər nəyə nail olmağı göstərir. Azərbaycanın 9 kateqoriyaya aid olan toplam 37 öhdəliyi var:

- İnformasiyaya çıxışın asanlaşdırılması (üç öhdəlik üzrə)
- Hazırkı dövlət institutlarının fəaliyyətinin açıqlanması (yeddi öhdəlik üzrə)
- Mərkəzi qanunvericilik bazasınının yaxşılaşdırılması
- Dövlət institutlarında ictimai iştirakçılığın genişləndirilməsi (beş öhdəlik üzrə)
- E-xidmətlərin yaxşılaşdırılması (5 öhdəlik üzrə)
- Dövlət maliyyə nəzarəti institutlarında şəffaflığın artması (yeddi öhdəlik üzrə)
- Vergi nəzarəti və yoxlanışında şəffaflığın artırılması (üç öhdəlik üzrə)
- Hasilat sənayesində şəffaflığın artırılması (üç öhdəlik)
- Açıq hökumətdə maarifləndirmə və əməkdaşlıq

Bu bölmə Milli Fəaliyyət Planına daxil olan Azərbaycanın öhdəliklərini ətraflı izah edir. Bəzi göstəricilər 1 səhifə yetərli olduğu halda, bəzilərində əlavə izahata ehtiyac var.

- **Əlaqəlilik: Milli tədqiqatçı hər öhdəliyi AHT Dəyərləri və AHT Böyük Çağırışına uyğun dəyərləndirdi.**
    - *AHT dəyərləri:* Bəzi AHT öhdəlikləri AHT dəyərlərinə münasibətlərinə görə qeyri-müəyyəndir. Belə məsələləri müəyyən etmək üçün milli tədqiqatçı öhdəliklərlə bağlı rəhbər sənədi oxuyaraq qərar qəbul etdi. Bu öhdəliklərin açıq hökumətin fundamental məsələləri ilə əlaqəsini izah edir.
    - *Böyük çağırışlar:* Bəzi öhdəliklərin digərlərinə nisbətən böyük çağırışa uyğun olmasına baxmayaraq, ancaq hökumət tərəfindən təyin olunanlar işarələndi (demək olar ki, bütün öhdəliklər böyük çağırışa ünvanlanır).
- **Ambisiya:**
    - *Potensial təsir: AHT ölkələri hökumətin mövcud təcrübəsinə uyğun olaraq (yeni və ya öncəki fəaliyyətləri ilə)* yeni ambisiyaya malik öhdəliklər yaratmaqda maraqlıdırlar. Ambisiyanın geniş izahatını vermək üçün milli tədqiqatçı potensial transformasiya öhdəliyinin hansı siyasət sahəsində olması barəsində rəy verir. Bu bir ekspert kimi tədqiqatçının axtarışları və təcrübəsinə əsaslanır.
    - *Yeni və ya əvvəlcədən mövcud olan:* Tədqiqatçı həmçinin öhdəliyin fəaliyyət planından əvvəl mövcud olub-olmadığını da qeyd edir.
- **Vaxt:**
    - *Layihənin başa çatması: AHT ölkələrdən öhdəlikləri irəli sürərək mərhələli şəkildə aydın başa çatma vaxtlarını göstrəmələrini istəyir.* Bu informasiya mümkün olmadıqda öhdəliyin dəyərləndirilmiş müddətin sonunda nə dərəcədə başa çata bilməsi ayrıca araşdırılır.

## 1 | MƏLUMATLARA ÇIXIŞ

### 1.1 | İnstitusional çərçivə

*Dövlət qurumlarında informasiya azadlığı üzrə məsul şəxslərin müəyyən edilməsi, informasiya azadlığı ilə bağlı daxili icraat qaydalarının qəbul edilməsi və bu barədə ictimaiyyətin məlumatlandırılması.*

| ÖHDƏLIYIN TƏSVIRI | | |
|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Mərkəzi və yerli icra hakimiyyəti orqanları |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Yüksək (öhdəliyin təsviri məqsədə çatmaq üçün aydın, ölçüləbilən və qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir) |

| **UYĞUNLUQ** | | | | | |
|---|---|---|---|---|---|
| **OGP ƏSAS ÇAĞIRIŞLARI** | | | | | |
| **OGP DƏYƏRLƏRI** | | | | | |
| **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| ✗ | | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Orta (bu öhdəlik öz sahəsi üzrə irəli doğru atılmış bir addımdır, ancaq miqyas etibarilə məhduddur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | | | | |
|---|---|---|---|---|---|---|
| **BAŞLANMA TARIXI:** 2012 | **BITMƏ TARIXI:** 2014 | | BAŞLANILMAYIB | LİMİTLİ | ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ | TAMAMLANMIŞ |
| | | Faktiki tamamlanma | | ▼ | | |
| | | Nəzərdə tutulan tamamlanma | | ▲ | | |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

## Nə baş verdi?

Şəffaflıq Azərbaycan və İqtisadi Tədqiqatlar Mərkəzinin açıq hökumət üzrə milli fəaliyyət planının (2012-2015) 2013-cü ilin sentyabrına qədər olan dövrünün alternativ monitorinq hesabatına əsasən 90 mərkəzi və yerli icra hakimiyyəti orqanının 24%-də informasiya azadlığı üzrə məsul şəxs təyin edilib. 20%-dən daha az sayda qurumlar informasiya azadlığı ilə bağlı daxili icraat qaydalarını qəbul etmiş və bu barədə ictimaiyyəti məlumatlandırmışdır.

## Bunun əhəmiyyəti nə oldu?

Bu öhdəlik hökumətin informasiya azadlığı üzrə təcrübəsini artırmaq potensialına malikdir. Bu dövlət qurumları nəzdində informasiya sorğularına cavab verən konkret şəxslərin müəyyən edilməsini və cəmiyyətin məlumatlandırılmasını nəzərdə tuturdu. Hazırda dövlət qurumları ictimai rəyə verdikləri reaksiyaları baxımından daha yaxşı performans göstərən qurumlara (məs. Dövlət Neft Fondu və ya Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi) və responsive olmayan qurumlara (məs. Dövlət Satınalmalar Agentliyi) bölünür. İnformasiya əldə etmək üzrə məsul şəxslərin təyin edilməsi institutların etibarlığını və öncədən görülənliyini artırır. İnformasiya azadlığı ilə bağlı daxili icraat qaydalarının qəbul edilməsi isə təsisatların daxili hazırlıq səviyyəsini yüksəldə bilər.

## İrəli doğru

Bu öhdəliyin icrası sürətləndirilməlidir və daha dəqiq vaxt çərçivəsi tətbiq edilməlidir. Ancaq öhdəliyin mətninin cari versiyası saxlanıla bilər.

## Mənbələr:

İqtisadi Tədqiqatlar Mərkəzi, Şəffaflıq Azərbaycan. Azərbaycanda “Açıq Hökumətin Təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın Monitorinq Hesabatı (Bakı 2013)

## 1.2 | Dövlət qulluqçuları üçün təlimlər

*İnformasiya azadlığının təmin edilməsi məqsədi ilə məsul dövlət qulluqçuları üçün ətraflı treninqlərin keçirilməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | |
|---|---|---|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Mərkəzi və yerli icra hakimiyyəti orqanları | | | |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib | | | |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox | | | |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) | | | |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABAT-LILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| | ✗ | | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Orta (bu öhdəlik öz sahəsi üzrə irəli doğru atılmış bir addımdır, ancaq miqyas etibarilə məhduddur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>2012 | **BITMƏ TARIXI:**<br>2014 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma |  |



| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

XÜLASƏ

## Nə baş verdi?

Şəffaflıq Azərbaycan və İqtisadi Tədqiqatlar Mərkəzinin açıq hökumət üzrə milli fəaliyyət planının (2012-2015) 2013-cü ilin sentyabrına qədər olan dövrünün alternativ monitorinq hesabatına və MHM tədqiqatçısının steykholder görüşlərinə əsasən qiymətləndirilən 90 mərkəzi və yerli icra hakimiyyəti orqanından yalnız 12-i informasiya azadlığının təmin edilməsi məqsədi ilə məsul dövlət qulluqçuları üçün ətraflı treninqlər keçirmişlər. Bunlara misal olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyini və ya Mingəçevir Şəhər İcra Hakimiyyətini göstərmək olar.

## Bunun əhəmiyyəti nə oldu?

Bu öhdəlik Azərbaycan hökuməti üçün kifayət qədər yenidir və informasiya azadlığı sahəsində peşəkarlığı artırmaq potensialına malikdir. Əgər tam icra edilsə, bu təlimlər dövlət orqanlarına göndərilən informasiya sorğularına daha qısa müddətdə keyfiyyətli cavablar verməsinə imkan verər.

## İrəli doğru

Vətəndaş cəmiyyəti təşkilatları və müstəqil ekspertlər bu təlimlərə cəlb edilə bilər, habelə bu təlimlər barədə məlumatlar ictimaiyyət üçün açıqlanmalıdır.

## Mənbələr:

İqtisadi Tədqiqatlar Mərkəzi, Şəffaflıq Azərbaycan. Azərbaycanda “Açıq Hökumətin Təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın Monitorinq Hesabatı (Bakı 2013)

Müəllifin Zaur İbrahimli ilə müsahibəsi (20.11.2013, Bakı)

## 1.3 | İnsan Haqları üzrə Müvəkkilin Ofisi

*"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin icrasına nəzarətin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının strukturunun təkmilləşdirilməsi, aidiyyəti əməkdaşların ixtisaslaşmış treninqlərə cəlb edilməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | | |
|---|---|---|---|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | İnsan Haqları üzrə Müvəkkil (Ombudsman) | | | | |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib | | | | |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox | | | | |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) | | | | |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət qulluğunun və bununla bağlı müsbət ictimai rəyin təkmilləşdirilməsi və artırılması | | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABAT-LILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** | |
| | ✗ | | | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Orta (bu öhdəlik öz sahəsi üzrə atılmış bir addımdır, ancaq miqyas etibarilə məhduddur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>01 Yanvar 2013 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2014 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma | BAŞLANILMAYIB — LİMİTLİ — ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ — TAMAMLANMIŞ<br>Faktiki: AYDIN DEYIL<br>Nəzərdə tutulan: AYDIN DEYIL |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Tətbiqediləbilən və ölçüləbilən olması üçün öhdəliyin yenidən gözdən keçirilməsi |

## Nə baş verdi?

İnsan Haqları üzrə Müvəkkilin Aparatı 2012-ci ilin sentyabr və dekabr aylarında Bakı və regionlarda milli fəaliyyət planındakı öhdəliklər üzrə bir sıra görüşlər və müzakirələr keçirmişdir. MHM tədqiqatçısı konkret bu öhdəliyin icrası ilə bağlı açıq mənbələrdə hər hansı məlumat tapa bilməmişdir. Quruma göndərilən informasiya sorğusuna da Ombudsman Aparatından heç bir rəsmi cavab alınmamışdır.

## Bunun əhəmiyyəti nə oldu?

Bu öhdəlik fundamental olaraq transformativ bir potensiala malik olmasa da, tam icra olunsa, bu, informasiya əldə etmək sahəsində Ombudsman Aparatının institusional, nəzarət və insan resursları imkanlarını artırar.

## İrəli doğru

Steykholderlər hesab edirlər ki, Ombudsman Aparatının informasiya əldə etmək haqqında qanunun icrası istiqamətində nəzarət funksiyası effektiv deyil və zəifdir. İnsan Haqları üzrə Müvəkkilin icraedici hakimiyyətdən funksional və təşkilati müstəqilliyə ehtiyacı var. Dəqiq illik icra planının olmaması öhdəliyin icrasının monitorinqini və qiymətləndirməsini çətinləşdirir.

## Mənbələr:

İqtisadi Tədqiqatlar Mərkəzi, Şəffaflıq Azərbaycan. Azərbaycanda “Açıq Hökumətin Təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın Monitorinq Hesabatı (Bakı 2013)

Ombudsman Milli Fəaliyyət Planının müzakirəsini keçirmişdir, http://www.ombudsman.gov.az/print_preview.php?lang=az&id=1134.

## 2 | DÖVLƏT ORQANLARININ FƏALIYYƏTI BARƏDƏ ICTIMAI MƏLUMATLILIQ

### 2.1 | Dövlət orqanlarının internet səhifələrinin yenilənməsi

*Dövlət orqanlarının öz fəaliyyəti barədə məlumatları mütəmadi, yenilənmiş əsaslarla internet səhifələrində yerləşdirməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | |
|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Mərkəzi və yerli icra hakimiyyəti orqanları |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət orqanlarının fəaliyyəti ilə bağlı müsbət ictimai rəyin artırılması |

| UYĞUNLUQ – OGP DƏYƏRLƏRI | | | | |
|---|---|---|---|---|
| **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABAT-LILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| ✗ | | ✗ | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Əvvəlcədən mövcud olan | **POTENSIAL TƏSIR**<br>Kiçik (bu öhdəlik öz sahəsi üzrə irəli doğru atılmış kiçik, amma pozitiv bir addımdır) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Aydın deyil | **BITMƏ TARIXI:**<br>Aydın deyil | | BAŞLANILMAYIB | LİMİTLİ | ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ | TAMAMLANMIŞ | |
| | | Faktiki tamamlanma | | | ▼ | | |
| | | Nəzərdə tutulan tamamlanma | AYDIN DEYIL | | | | |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Tətbiqediləbilən və ölçüləbilən olması üçün öhdəliyin yenidən gözdən keçirilməsi |

## Nə baş verdi?

Mərkəzi və yerli icra hakimiyyətlərinin böyük əksəriyyəti (təqribən 65%-i) öz fəaliyyətləri ilə bağlı məlumatları mütəmadi olaraq öz internet səhifələrində yerləşdirirlər.

## Bunun əhəmiyyəti nə oldu?

Bu öhdəliyin elə bir ciddi praktik əhəmiyyəti yoxdur, çünki AHT-yə qoşulmazdan əvvəl də dövlət orqanları öz fəaliyyətləri barədə məlumatları mütəmadi olaraq internet səhifələrində yerləşdirirdilər. Milli Fəaliyyət Planındakı bu öhdəliyin bu məsələdə hansısa müsbət bir təsiri müşahidə edilməmişdir.

## İrəli doğru

Bütün mərkəzi və yerli icra hakimiyyəti orqanları üçün nəzərdə tutulan bu öhdəliyin icrası üçün dəqiq başlanma və başaçatma vaxtının çərçivəsi müəyən edilməyib. Öhdəliyin icra zamanlamasını müəyyən edən yenidən nəzərdən keçirilməsinə ehtiyac var.

## Mənbələr:

Azərbaycan Respublikası, Siyəzən Rayon İcraHakimiyyəti, http://siyezen-ih.gov.az/index.html.

İqtisadi Tədqiqatlar Mərkəzi, Şəffaflıq Azərbaycan. Azərbaycanda "Açıq Hökumətin Təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın Monitorinq Hesabatı (Bakı 2013)

## 2.2 | İllik hesabatların internet səhifələrində yerləşdirilməsi

*Dövlət orqanlarının öz fəaliyyəti barədə illik məruzələr tərtib etməsi və internet səhifələrində açıqlaması.*

| ÖHDƏLIYIN TƏSVIRI | | |
|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Mərkəzi və yerli icra hakimiyyəti orqanları |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət qulluğunun və bununla bağlı müsbət ictimai rəyin təkmilləşdirilməsi və artırılması, dövlət resurslarının effektiv idarə edilməsi |

| OGP DƏYƏRLƏRI | | | | |
|---|---|---|---|---|
| **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| ✗ | | ✗ | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Əvvəlcədən mövcud olan | **POTENSIAL TƏSIR**<br>Orta (bu öhdəlik öz sahəsi üzrə irəli doğru atılmış bir addımdır, ancaq miqyas etibarilə məhduddur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2015 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma |  |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Tamamlanmış icranın monitorinqi |

XÜLASƏ

## Nə baş verdi?

Mərkəzi və yerli icra hakimiyyətlərinin böyük əksəriyyəti (təqribən 65%-i) öz fəaliyyətləri ilə bağlı məlumatları mütəmadi olaraq öz internet səhifələrində yerləşdirirlər.

## Bunun əhəmiyyəti nə oldu?

Bu öhdəliyin elə bir ciddi praktik əhəmiyyəti yoxdur, çünki AHT-yə qoşulmazdan əvvəl də dövlət orqanları öz fəaliyyətləri barədə məlumatları mütəmadi olaraq internet səhifələrində yerləşdirirdilər. Milli Fəaliyyət Planındakı bu öhdəliyin bu məsələdə hansısa müsbət bir təsiri müşahidə edilməmişdir.

## İrəli doğru

Bütün mərkəzi və yerli icra hakimiyyəti orqanları üçün nəzərdə tutulan bu öhdəliyin icrası üçün dəqiq başlanma və başaçatma vaxtının çərçivəsi müəyən edilməyib. Öhdəliyin icra zamanlamasını müəyyən edən yenidən nəzərdən keçirilməsinə ehtiyac var.

## Mənbələr:

İqtisadi Tədqiqatlar Mərkəzi, Şəffaflıq Azərbaycan. Azərbaycanda “Açıq Hökumətin Təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın Monitorinq Hesabatı (Bakı 2013)

Siyəzən İcra Hakimiyyəti İllik Hesabatı, http://siyezen-ih.gov.az/page/26.html.

İqtisadiyyat və Sənaye Nazirliyi İllik Hesabatı (2012) http://economy.gov.az/media/pdf/iin-hesabat-2012.pdf.

XÜLASƏ

## 2.3 | İctimai kommunikasiya tədbirləri

*Dövlət orqanlarının öz fəaliyyəti barədə mətbuat konfransları və ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlər keçirməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | | |
|---|---|---|---|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Mərkəzi və yerli icra hakimiyyəti orqanları | | | | |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib | | | | |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox | | | | |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Aşağı (öhdəliyin təsviri ölçüləbilən deyil və əlavə interpretasiyaya ehtiyac duyulur) | | | | |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət qulluğunun və bununla bağlı müsbət ictimai rəyin təkmilləşdirilməsi və artırılması | | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABAT-LILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** | |
| | ✗ | | ✗ | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Əvvəlcədən mövcud olan | **POTENSIAL TƏSIR**<br>Heç bir (bu öhdəlik yalnız status-kvonu dəstəkləyir) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2015 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma | BAŞLANILMAYIB — LİMİTLİ — ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ (faktiki / nəzərdə tutulan) — TAMAMLANMIŞ |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Tətbiqediləbilən və ölçüləbilən olması üçün öhdəliyin yenidən gözdən keçirilməsi |

## Nə baş verdi?

Baxmayaraq ki, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının 65%-i qiymətləndirmə dövründə ən azı bir mətbuat konfransı keçiriblər, ancaq "ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlər"i monitorinq etmək çətindir. Keçirilən mətbuat konfranslarının da bütün jurnalistlərə açıqlığı və mövzuların nə dərəcədə aktuallığı sual doğurur.

## Bunun əhəmiyyəti nə oldu?

Görüşlərdə vətəndaş cəmiyyəti nümayəndələri bildirdilər ki, bu öhdəliyin indiki versiyası daha çox rutin bir işi əhatə edir və açıq hökumətin təşviqinə təsiri azdır. Hətta öhdəliyi fəaliyyət planından çıxarmağı təklif edənlər də oldu.

## İrəli doğru

Bu öhdəlik yenidən nəzərdən keçirilməli və "ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlər" ifadəsinin məzmunu dəqiqləşdirilməlidir. Mətbuat konfransları isə yerli və xarici bütün jurnalistlər üçün açıq olmalıdır.

## Mənbələr:

İqtisadi Tədqiqatlar Mərkəzi, Şəffaflıq Azərbaycan. Azərbaycanda "Açıq Hökumətin Təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın Monitorinq Hesabatı (Bakı 2013)

Zaur İbrahimli ilə müsahibə (20.11.2013, Bakı)

XÜLASƏ

## 2.4 | Qanunvericilik aktlarının anlaşılan versiyaları

*Dövlət orqanlarının fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının anlaşılan, sadə dildə yazılmış versiyasının, bələdçi qaydaların tərtib edilməsi və bu məlumatların vətəndaşlar arasında təşviq edilməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | |
|---|---|---|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Mərkəzi və yerli icra hakimiyyəti orqanları | | | |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib | | | |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox | | | |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndirilə bilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) | | | |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlətin fəaliyyəti ilə bağlı müsbət ictimai rəyin artırılması | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABAT-LILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| | ✗ | | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Orta (bu öhdəlik öz sahəsi üzrə irəli doğru atılmış bir addımdır, ancaq miqyas etibarilə məhduddur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | | | | |
|---|---|---|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>Aydın deyil | Faktiki tamamlanma | BAŞLANILMAYIB ▼ | LİMİTLİ | ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ | TAMAMLANMIŞ |
| | | Nəzərdə tutulan tamamlanma | AYDIN DEYIL | | | |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

XÜLASƏ

### Nə baş verdi?
Bu öhdəliyin icrası qiymətləndirmə dövründə başlamamışdı. Mərkəzi və yerli icra hakimiyyətlərinin veb saytlarında bələdçi qaydalar və ya anlaşılan dildə yazılan normativ sənədlərlə bağlı heç bir məlumat tapılmadı. Öhdəliyin dəqiq icra planı da yoxdur, o, davamlı əsaslarla icra olunmalıdır.

### Bunun əhəmiyyəti nə oldu?
Əgər icra olunsa, bu öhdəlik mərkəzi və yerli icra hakimiyyəti orqanlarını təşviq edəcək ki, öz tənzimləyici normativ sənədlərini və qərarlarını daha rahat anlaşılan dildə hazırlasınlar.

### İrəli doğru
Steykholderlər tövsiyə edir ki, hökumət bu öhdəliyin icrasını gücləndirsin və illik dəqiq icra müddəti müəyyən etsin.

### Mənbələr:
Azərbaycan Respublikası, Nazirlər Kabineti, “Nazirlər Kabinetinin Strukturu,” http://cabmin.gov.az/?/az/content/126.

## 2.5 | Dövlət proqramları üzrə internet resursları

*Dövlət proqramlarının əhatə etdiyi sahələr üzrə internet portallarının yaradılması.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | |
|---|---|---|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Mərkəzi və yerli icra hakimiyyəti orqanları | | | |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib | | | |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox | | | |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) | | | |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət qulluğunun və bununla bağlı müsbət ictimai rəyin təkmilləşdirilməsi və artırılması | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABAT-LILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| | ✗ | | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Orta (bu öhdəlik öz sahəsi üzrə irəli doğru atılmış bir addımdır, ancaq miqyas etibarilə məhduddur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | | | | |
|---|---|---|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2014 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma | BAŞLANILMAYIB | LİMİTLİ | ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ | TAMAMLANMIŞ |
| | | Faktiki tamamlanma | | ▼ | | |
| | | Nəzərdə tutulan tamamlanma | | ▲ | | |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

## Nə baş verdi?

Müəyyən olundu ki, bir çox nazirliklərin saytında əlaqədar dövlət proqramları ilə bağlı ayrıca linklər var, ancaq bunların bir çoxu AHT-dən əvvəl mövcud olub. Qiymətləndirmə dövründə İqtisadiyyat və Sənaye Nazirliyi regional inkişaf, davamlı inkişaf və yoxsulluqla bağlı əlaqəli dövlət proqramları üzrə yeni məlumatları internet səhifəsində yerləşdirib. Ancaq ümumiyyətlə, dövlət proqramları üzrə məlumat məhdud və dağınıqdır. Müxtəlif proqramlar müxtəlif dövlət proqramlarının icrası və məzmunu ilə bağlı fərqli məlumatlar açıqlayırlar.

## Bunun əhəmiyyəti nə oldu?

Dövlət proqramları ilə bağlı internet resursları əgər vətəndaşlara yeni imkanlar və xidmətlərlə bağlı məlumat versə daha dəyərli olar. Bu cür mənbələr dövlət proqramlarını monitorinq edən jurnalistlər və vətəndaş cəmiyyəti üçün də xüsusi önəmlidir.

## İrəli doğru

Dövlət proqramları ilə bağlı xüsusi internet portalında hər bir proqram üzrə yerləşdiriləcək materialların minimum standartları müəyyən edilə bilər. Bütün dövlət proqramları üzrə vahid bir internet resursunun yaradılması məqsədəuyğundur.

## Mənbələr:


Azərbaycan Respublikası,“2007-2015 ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə DÖVLƏT PROQRAMI,” (), http://xaricdetehsil.edu.gov.az/c-elanlar.

Azərbaycan Respublikası,“İqtisadiyyat və Sənaye Nazirliyi,” http://economy.gov.az/index.php?option=com_content&view=article&id=179&Itemid=150&lang=az

İqtisadi Tədqiqatlar Mərkəzi, Şəffaflıq Azərbaycan. Azərbaycanda “Açıq Hökumətin Təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın Monitorinq Hesabatı (Bakı 2013)

## 2.6 | Dövlət orqanlarının internet səhifələri üçün vahid minimum standartlar

*Dövlət orqanlarının internet səhifələrinin müasir standartlara uyğun olaraq vahid nümunəvi formasının və minimum şərtlərinin müəyyən edilməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | |
|---|---|---|
| CAVABDEHLIK | APARICI TƏSISAT | Nazirlər Kabineti, Dövlət Xüsusi Mühafizə Xidməti, Korrupsiya ilə Mübarizə Komissiyası |
| | DƏSTƏKLƏYICI TƏSISAT | Müəyyən edilməyib |
| | ƏLAQƏLƏNDIRICI ŞƏXS | Yox |
| SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) |
| UYĞUNLUQ | OGP ƏSAS ÇAĞIRIŞLARI | Dövlətin fəaliyyəti ilə bağlı müsbət ictimai rəyin artırılması |

| UYĞUNLUQ | OGP DƏYƏRLƏRI | | | | |
|---|---|---|---|---|---|
| | MƏLUMATLARA ÇIXIŞ | İCTIMAI IŞTIRAKÇI LIQ | HESABATLILIQ | ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA | HEÇ BIRI |
| | ✗ | | | ✗ | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Heç bir (bu öhdəlik yalnız status-kvonu dəstəkləyir) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>01 Yanvar 2013 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2013 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma | BAŞLANILMAYIB · LİMİTLİ · ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ · TAMAMLANMIŞ (Faktiki: TAMAMLANMIŞ; Nəzərdə tutulan: TAMAMLANMIŞ) |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Tamamlanmış icranın monitorinqi |

XÜLASƏ

## Nə baş verdi?

Sorğulara cavab olaraq Xüsusi Dövlət Mühafizə Xidməti və Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bildiriblər ki, Nazirlər Kabineti "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarəedilməsinə dair Tələblər"in təsdiq edilməsi haqqında qərarını 4 Sentyabr 2012-ci ildə qəbul edib. Bu onu göstərir ki, öhdəlik hətta açıq hökumət üzrə milli fəaliyyət planı təsdiqlənməzdən (05.09.2012) öncə icra edilib. Demək olar ki, icra edilmiş fəaliyyətin nə üçün yenidən fəaliyyət planına daxil edilməsi aydın deyil.

## Bunun əhəmiyyəti nə oldu?

Hökumətin qəbul etdiyi minimum standartlar dövlət qurumlarının internet səhifələrinin dizaynı, funksionallığı və əks-əlaqə sistemi ilə bağlı müddəaları təsvir edir. Tələblərin 5-ci maddəsi tamamən vətəndaşlarla dövlət orqanları arasındakı onlayn kommunikasiyaya həsr edilib.

## İrəli doğru

Hökumət icrası milli fəaliyyət planından öncə başa çatan bu öhdəliyin açıq hökumət üzrə relevantlığına aydınlıq gətirməlidir. Bütün hökumət saytları istifadəçilər üçün rahat istifadəli, informativ və anlaşılan olmalıdır. İxtisaslaşmış vətəndaş cəmiyyəti təşkilatlarının müqayisəli qiymətləndirməsi göstərir ki, dövlət orqanlarının veb saytları minimum standartlara cavab vermir (http://www.informasiya.org).

## Mənbələr:

Azərbaycan Respublikası, Nazirlər Kabinetinin, "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarəedilməsinə dair Tələblər"in təsdiq edilməsi haqqında," 4.09.2012, http://www.cabmin.gov.az/?/az/pressreliz/view/755 ("Requirements on formation and management of internet information resources of state agencies" (Decree) determines minimum standards (list of minimum information uploading to the websites, information collection, language, information security and etc.) for the websites.).

## 2.7 | Nazirlər Kabinetinin hesabatları

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Milli Məclisi qarşısındakı illik hesabatlarında açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər haqqında məlumat verməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | |
|---|---|---|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Nazirlər Kabineti | | | |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib | | | |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox | | | |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) | | | |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlətin fəaliyyəti ilə bağlı müsbət ictimai rəyin artırılması | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| | | | ✗ | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Kiçik (öhdəlik bu sahədə irəli doğru atılmış kiçik, ancaq pozitiv addımdır) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2015 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma | BAŞLANILMAYIB / **LİMİTLİ** / ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ / TAMAMLANMIŞ |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

XÜLASƏ

Nazirlər Kabinetinin parlamentə təqdim etdiyi illik hesabatda anti-korrupsiya məsələləri olsa da, Açıq hökumətin təşviqinə toxunulmur. Milli tədqiqatçı müvafiq məlumatı deputatlardan əldə etmişdir. Təəssüf ki, hökumət illik hesabatlarını onlayn olaraq açıqlamır (http://www.cabmin.gov.az).

### Bunun əhəmiyyəti nə oldu?

Hökumətin illik hesabatında açıq hökumət və anti-korrupsiya məsələlərinə yer verilməsi parlamentdə yeni konstruktiv diskussiyalara səbəb ola bilər və ümumi hökumət hesabatlığını artırar.

### İrəli doğru

Nazirlər Kabinetinin hesabatlarına açıq hökumətlə bağlı məlumat daxil edilməli, illik hesabat qurumun internet səhifəsində yerləşdirilməli və bu sahədəki tədbirlərlə bağlı müzakirələr təşkil edilməlidir.

### Mənbələr:

Azərbaycan Respublikası, Nazirlər Kabinetii, http://www.cabmin.gov.az.

## 3 | HÜQUQI AKTLARIN MƏRKƏZLƏŞMIŞ ELEKTRON BAZASI

### 3.1 | Hüquqi aktların dövlət reyestri

*Rəsmi hüquqi istinad mənbəyi olan Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantının mütəmadi yenilənməsi və elektron bazanın daim işlək vəziyyətdə saxlanılması.*

| ÖHDƏLIYIN TƏSVIRI | | |
|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Ədliyyə Nazirliyi |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndirilə bilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlətin fəaliyyəti ilə bağlı müsbət ictimai rəyin artırılması |

| **UYĞUNLUQ** — OGP DƏYƏRLƏRI | | | | |
|---|---|---|---|---|
| **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| ✗ | | | ✗ | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Əvvəlcədən mövcud olan | **POTENSIAL TƏSIR**<br>Kiçik (öhdəlik bu sahədə irəli doğru atılmış kiçik, ancaq pozitiv addımdır) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>Aydın deyil | Faktiki tamamlanma<br><br>Nəzərdə tutulan tamamlanma |  |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Tamamlanmış icranın monitorinqi |

### Nə baş verdi?

Ədliyyə Nazirliyi hüquqi aktların dövlət reyestrinin onlayn versiyasını (http://www.huquqiaktlar.gov.az) davamlı olaraq yeniləyir. Burada normativ-hüquqi aktların onlayn versiyasını rahatlıqla əldə etmək mümkündür. Hüquqi aktların dövlət reyestrinin onlayn versiyası 11 noyabr 2011-ci ildən, yəni açıq hökumət fəaliyyət planından əvvəl qurulub. Qiymətləndirmə dövründə bu resurs davamlı yenilənsə də, prinsipcə, bu əvvəlcədən mövcud olan və yeni olmayan bir öhdəlikdir.

### Bunun əhəmiyyəti nə oldu?

Bu öhdəlik texniki xarakterli və köhnə olsa da, onun hüquqçular və qanunvericiliklə maraqlananlar üçün müəyyən önəmi ola bilər.

### İrəli doğru

Bu öhdəlik üçün də dəqiq müəyyən edilmiş illik icra müddətləri və ayrıca fəaliyyətlər dəqiqləşdirilməlidir. Məsələn, əvvəlcə axtarış sistemləri təkmilləşdirilə bilər, daha sonra isə xüsusi tematik bloklar əlavə oluna bilər.

### Mənbələr:

Azərbaycan Respublikası, HÜQUQİ AKTLAR, http://www.huquqiaktlar.gov.az

## 4 | İCTİMAİ İŞTİRAKÇILIQ

### 4.1 | Qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyətinin cəlbi və ictimai dinləmələr

*Dövlət orqanları tərəfindən ictimai əhəmiyyət kəsb edən qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb edilməsi, ictimai dinləmələrin keçirilməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | | |
|---|---|---|---|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Mərkəzi və yerli icra hakimiyyəti orqanları | | | | |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib | | | | |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox | | | | |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) | | | | |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət qulluğunun və bununla bağlı müsbət ictimai rəyin təkmilləşdirilməsi və artırılması, dövlət resurslarının effektiv idarə edilməsi | | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABAT-LILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** | |
| | | ✗ | | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Transformativ (öhdəlik bu sahədə ciddi dəyişikliyə səbəb ola biləcək reform xarakterlidir) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>Aydın deyil | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma | BAŞLANILMAYIB / LİMİTLİ / ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ / TAMAMLANMIŞ<br>Faktiki: LİMİTLİ<br>AYDIN DEYIL |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

XÜLASƏ

## Nə baş verdi?

Ancaq çox məhdud sayda yerli və mərkəzi icra hakimiyyəti orqanları normativ sənədlərin hazırlanmasına vətəndaş cəmiyyətini cəlb edirlər (məsələn, Vergilər Nazirliyi bu barədə açıq hökumətlə bağlı illik icra hesabatında məlumat verir). İctimai dinləmələr geniş yayılmış bir praktika deyil. Ancaq parlamentin veb səhifəsindən istifadə etməklə vətəndaşlar qanunlarla bağlı fikirlərini göndərə bilərlər (www.meclis.gov.az).

22 noyabr 2013-cü ildə parlamentdə ayrıca "İctimai iştirakçılıq haqqında" qanun qəbul edilib. Bu qanunun layihəsini QHT-lərə Dövlət Dəstəyi Şurası hazırlayıb və məqsəd vətəndaşların qərar qəbuletmə prosesində iştirakına hüquqi təminat verməkdir. 5 bölmə və 21 maddədən ibarət qanunda ictimai iştirakçılığın hüquqi forması kimi ictimai şuralar, ictimai rəy sorğuları, ictimai məsləhətləşmələr və rəsmi yazılı kommunikasiya təsbit edilir.

## Bunun əhəmiyyəti nə oldu?

Əgər bu öhdəlik tətbiq edilsə, o, ölkədəki institusional mühiti fundamental olaraq dəyişə bilər və ictimai iştirakçılıq təşəbbüslərini gücləndirər. Bu da dövlətlə vətəndaş cəmiyyəti arasında yeni dialoq kanalları aça bilər.

## İrəli doğru

İctimai iştirakçılıq haqqında qanun layihəsinin icrasına ciddi nəzarət lazımdır. Qanun ictimai şuraların icra orqanları yanında yaradılmasını, ictimai dinləmə və müzakirələrin keçirilməsini nəzərdə tutur. Həmçinin büdcə mövzusunda gələcəkdə ictimai dinləmələrə ehtiyac var. Habelə, öhdəliyin dəqiq vaxt çərçivələri müəyyən edilməlidir.

## Mənbələr:


AZADİNFORM, "İctimai iştirakçılıq" haqqında qanun layihəsi qəbul edildi," 22 Noyabr 2013, http://www.azadinform.az/news/a-58362.html.

Azərbaycan Respublikasının MilliMəclisi, İctimai iştirakçılıq haqqında (Draft Law on Public Participation), 13 June 2013, http://meclis.gov.az/?/az/law/459/2.

Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli, 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı Vergilər Nazirliyi tərəfindən 2012-ci ildə görülmüş işlər üzrə, http://vn.taxes.gov.az/qanun/dovlet_proqrami/aciq_hokumetin_tesviri_2012_2015.pdf.

## 4.2 | İctimai şuralar

*Əhaliyə xidmət göstərən dövlət orqanları tərəfindən vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın təkmilləşdirilməsi üçün müvafiq şuraların və ya əməkdaşlıq şəbəkələrinin yaradılması.*

| ÖHDƏLIYIN TƏSVIRI | | |
|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Mərkəzi və yerli icra hakimiyyəti orqanları |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) |

| **UYĞUNLUQ** | | | | | |
|---|---|---|---|---|---|
| **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət qulluğunun və bununla bağlı müsbət ictimai rəyin təkmilləşdirilməsi və artırılması, dövlət resurslarının effektiv idarə edilməsi | | | | |
| **OGP DƏYƏRLƏRI** | | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| | | ✗ | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Transformativ (öhdəlik bu sahədə ciddi dəyişikliyə səbəb ola biləcək reform xarakterlidir) |

| TAMAMLANMA SƏVIYYƏSI | | |
|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2013 | Faktiki tamamlanma<br><br>Nəzərdə tutulan tamamlanma |




| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

## Nə baş verdi?

Azərbaycanda ictimai şuralar mərkəzi və yerli icra hakimiyyəti orqanları nəzdində müxtəlif dövlət siyasətləri üzrə müxtəlif aternativlərin rəsmilər tərəfindən vətəndaşlarla müzakirə edildiyi konsultativ və məsləhətverici təsisatlardır. Bəzi nazirliklər və komitələr hələ milli fəaliyyət planından öncə vətəndaş cəmiyyəti təmsilçilərindən, ekspertlərdən ibarət ictimai şuralar təsis etmişlər (məsələn, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Ədliyyə Nazirliyi). Bəzi qurumlar isə sırf texniki ekspertlərdən ibarət texniki şuralar təsis ediblər. Mövcud şuralar tam əhatəli sayıla bilməzlər və hələ bir çox qurum belə bir şuraları heç təsis etməyib. Mövcud olan ictimai şuraların müstəqilliyi və real təsir gücü bir qədər mübahisəlidir. Belə ki, bəzi hallarda onlar siyasi proseslərə müdaxilə edirlər və siyasi bəyanatlar verirlər. steykholderlər qeyd etdilər ki, ictimai şuraların effektivliyi qarşısında bu baryerlər var: (I) ictimai şuraların tərkibinin obyektiv seçilməməsi; (II) seçilən vətəndaş cəmiyyəti nümayəndələrinin peşəkarlıq səviyyəsi; (III) belə şuraların sosial problemlərin həlli əvəzinə rəsmi təbliğat üçün istifadəsi.

## Bunun əhəmiyyəti nə oldu?

Effektiv və funksional ictimai şuraların formalaşması hazırkı inkluziv olmayan qərar qəbuletmə sistemli dövlət idarəçiliyində pozitiv dəyişiklik edə bilər. Ekspertlər və steykholder görüşlərinin iştirakçıları qeyd etdilər ki, hazırkı şuralar tam effektiv deyil, vətəndaş cəmiyyətini konsensus və paritet əsasında təmsil etmir və siyasi tərəfsizliklərini tam qoruya bilmirlər (məsələn, Gənclər və İdman Nazirliyi yanındakı şura prezident seçkilərində namizədlərdən birini dəstəkləyən bəyanat verir).

## İrəli doğru

Öhdəliyin icrası istiqamətində işlər davam etdirilməlidir. Hökumət müstəqil, inkluziv və peşəkar ictimai şuraların formalaşmasını sürətləndirməlidir. Hər bir müxtəlif siyasi baxışa malik vətəndaş cəmiyyəti nümayəndələri aydın qaydalar əsasında şuraya seçilə bilməlidirlər. İctimai şuraların üzvləri üçün informasiya sessiyaları və təlimlər keçirilməlidir. Şuralar vətəndaşların ehtiyaclarına operativ cavab verə bilən dövlət siyasətlərinin birgə hazırlanmasını məqsəd kimi qəbul etməlidir. Həmçinin öhdəlikdəki "əməkdaşlıq şəbəkələri" ifadəsinin məzmunu dəqiqləşdirilməlidir.

XÜLASƏ

## Mənbələr:

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın tərkibi, http://www.mlspp.gov.az/en/pages/174.

Gənclər və İdman Nazirliyi yanındakı İctimai Şuranın bəyanatı (13 May 2013), http://az.apa.az/news/298587.

## 4.3 | İnternet səhifələri vasitəsilə ictimai iştirakçılıq

*İctimai maraq kəsb edən qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakını genişləndirmək vasitəsi kimi internet səhifələrindən istifadə edilməsi (vətəndaşların təklif və rəylərinin qəbul edilməsi, müzakirələrin təşkil edilməsi, interaktiv sual-cavab bölmələrinin yaradılması və s.).*

| ÖHDƏLIYIN TƏSVIRI | | |
|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Mərkəzi və yerli icra hakimiyyəti orqanları |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) |

| | | | | | |
|---|---|---|---|---|---|
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət orqanlarının fəaliyyəti ilə bağlı müsbət ictimai rəyin artırılması | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| | | ✗ | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Əvvəlcədən mövcud olan | **POTENSIAL TƏSIR**<br>Kiçik (öhdəlik bu sahədə irəli doğru atılmış kiçik, ancaq pozitiv addımdır) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>Aydın deyil | Faktiki tamamlanma<br><br>Nəzərdə tutulan tamamlanma |  |



| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

XÜLASƏ

### Nə baş verdi?

Demək olar ki, bütün mərkəzi və yerli icra hakimiyyəti orqanlarının internet səhifələrində müraciətlər, sual-cavab və təkliflərin verilməsi hissəsi var. Ancaq bu saytlar vasitəsilə edilən müraciətlərin bir çox hallarda aqibəti bilinmir. Vətəndaşların təklifləri və sorğuları tam nəzərə alınmazsa, biz dövlət qurumlarının internet səhifələrinin qərar qəbuletmədə ictimai iştirakçılığı genişləndirdiyini deyə bilmərik.

### Bunun əhəmiyyəti nə oldu?

Nəzərə alsaq ki, əsasən mərkəzi və icra hakimiyyəti orqanları öz internet səhifələrini milli fəaliyyət planından əvvəl formalaşdırıblar, onda bu öhdəliyin hökumətin mövcud təcrübəsinə çox geniş, zənginləşdirici təsir etməyəcəyini söyləmək olar.

### İrəli doğru

Hökumət bu və bütün digər öhdəliklər üçün aparıcı və köməkçi təsisatlar müəyyən etməlidir, habelə icra üçün dəqiq vaxt çərçivəsini təsdiqləməlidir. Aparıcı institut qərar qəbuletmədə onlayn iştirakçılığın real imkanlarına və tətbiqinə nəzarət etməli, köməkçi qurum isə texniki dəstək verməlidir. Həmçinin mərkəzi və yerli icra hakmiyyəti orqanları vətəndaşları onların müraciətlərinin nəticələri barədə məlumatlandırmalıdır. Nəhayət, bir çox dövlət qurumlarının saytının (http://tender.gov.az/new/?lan=en, http://baku-ih.gov.az/index.html) təkmil olmayan dizaynı təkmilləşdirilməli və xidmətlərlə bağlı informasiyalar çoxaldılmalıdır.

### Mənbələr:

Dövlət Gömrük Komitəsi, http://customs.gov.az/en.

XÜLASƏ

## 4.4 | "Açıq Qapı" Vətəndaş Forumları

*Dövlət orqanları tərəfindən "Açıq qapı" vətəndaş forumlarının keçirilməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | | |
|---|---|---|---|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Mərkəzi və yerli icra hakimiyyəti orqanları | | | | |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib | | | | |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox | | | | |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndirilə bilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) | | | | |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət orqanlarının fəaliyyəti ilə bağlı müsbət ictimai rəyin artırılması | | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** | |
| | | ✗ | ✗ | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Orta (bu öhdəlik öz sahəsi üzrə irəli doğru atılmış bir addımdır, ancaq miqyas etibarilə məhduddur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>Aydın deyil | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma |  |



| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

XÜLASƏ

## Nə baş verdi?

Açıq hökumətin qiymətləndirmə dövründə bir çox yerli və mərkəzi icra hakimiyyəti orqanı media təmsilçiləri, vətəndaş cəmiyyəti nümayəndələri və sadə vətəndaşlar üçün "Açıq Qapı" tədbirləri keçirmişlər (Vergilər Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Ailə, Qadın və Uşaq Komitəsi, Dövlət Statistika Komitəsi, Qiymətli Kağızlar Dövlət Komitəsi). Həmçinin nazirlərin regionlarda vətəndaşları qəbul etməsi bir ənənə halını alıb.

## Bunun əhəmiyyəti nə oldu?

"Açıq Qapı" vətəndaş forumları bir çox məmurlar üçün tamamilə yeni kommunikasiya texnikasıdır və bu vətəndaş cəmiyyəti və media ilə hökumətin qarşılıqlı əlaqəsində hökumətə önəmli təcrübə verə bilər.

## İrəli doğru

"Açıq Qapı" vətəndaş forumlarının keçrilməsi qaydaları və təşkilati məsələlərin rəhbər sənədi hazirlanmalı, burada tədbirlərin formatı, müddəti, tezliyi və iştirakçıların tərkibi müəyyən edilməlidir. Hökumət əhatəli və uzunmüddətli "ictimai kommunikasiya strategiyası hazırlayıb strateji steykholderlərlə, media ilə, vətəndaş cəmiyyəti ilə və vətəndaşlarla əlaqələrini tənzimləməlidir. Hökumət bu öhdəlik üçün aparıcı və köməkçi təsisatlar müəyyən etməlidir, habelə icra üçün dəqiq vaxt çərçivəsini təsdiqləməlidir. "Açıq Qapı" vətəndaş forumları inkluziv olmalı, istənilən vətəndaş erkən onlayn qeydiyyatdan keçib tədbirdə iştirak edə bilməli, burada isə ona müvafiq dövlət qurumunun fəaliyyəti və xidmətləri barədə ətraflı məlumat verməlidirlər. Yerli icra hakimiyyəti orqanları ən azı ayda bir dəfə, mərkəzi icra hakimiyyəti orqanları isə ən azı rübdə bir dəfə bu forumları keçirməlidirlər.

## Mənbələr:


APA, Astara icra hakimiyyəti açıq qapı günü keçirib (11 Oktyabr 2012), http://az.apa.az/xeber_Astara_icra_hakimiyyeti_achiq__275171.html.

BakıŞəhəri, XətaiBələdiyyəsi, http://khatai-ih.gov.az/page/23.html.

Marja.az, QKDK-da "Açıq qapı günü" təşkil ediləcəkdir(12 Aprel 2013), http://www.marja.az/ksm/aksiya/item/41858-qkdk-da-%E2%80%9Ca%C3%A7%C4%B1q-qap%C4%B1-g%C3%BCn%C3%BC%E2%80%9D-t%C9%99%C5%9Fkil-edil%C9%99c%C9%99kdir.html.

İqtisadiyyat və Sənaye Nazirliyinin "Açıq Qapı" tədbiri (18 aprel. 2013), http://economy.gov.az/index.php?option=com_content&view=article&id=1101:aciq-qapi-18-04-2013&catid=8:news&Itemid=263&lang=en; () http://strategiya.az/?m=xeber&id=13945.

Mövqe.az, Dövlət Statistika Komitəsində "Açıq qapı" günü keçiriləcək (18 June 2013), http://www.movqe.az/v5/14912/D%C3%B6vl%C9%99t_Statistika_Komit%C9%99sind%C9%99_%E2%80%9CA%C3%A7%C4%B1q_qap%C4%B1%E2%80%9D_g%C3%BCn%C3%BC_ke%C3%A7iril%C9%99c%C9%99k./

Simsar.az, Vergi Auditi Departamentində "Açıq qapı günü" keçirildi (6 Mar. 2013), http://simsar.az/news/a-32299.html.

Ailə, Qadın və Uşaqlarla İş üzrə Dövlət Komitəsi,Vətəndaşlar üçün "AçıqQapı günü", http://scfwca.gov.az/news/a-714.html

Xalq qəzeti, Vergi Auditi Departamentində "Açıq qapı günü" keçirilmişdir (7 Mar. 2013), http://www.xalqqazeti.com/az/news/economy/31716.

## 5 | ELEKTRON XIDMƏTLƏR

### 5.1 | E-xidmətlərin qiymətləndirilməsi

*Elektron xidmətlər göstərilməsi üzrə qiymətləndirmənin həyata keçirilməsi və ictimaiyyətə açıqlanması.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | | |
|---|---|---|---|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi | | | | |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib | | | | |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox | | | | |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndirilə bilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) | | | | |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət xidmətlərinin təkmilləşdirilməsi | | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇILIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** | |
| | ✗ | | | ✗ | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Orta (bu öhdəlik öz sahəsi üzrə irəli doğru atılmış bir addımdır, ancaq miqyas etibarilə məhduddur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>Aydın deyil | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma | BAŞLANILMAYIB — LİMİTLİ — ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ (▼) — TAMAMLANMIŞ<br>AYDIN DEYIL |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Tamamlanmış öhdəliyin monitorinqi |

XÜLASƏ

### Nə baş verdi?

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi 11 yanvar 2013-cü ildə “Dövlət orqanlarında elektron xidmətlərin təşkili və göstərilməsi üzrə qiymətləndirmə Qaydaları”nı təsdiq edib. Rabitə və Yüksək Texnologiyalar Nazirliyi isə “Elektron hökumət bulleteni”ndə (iyul 2013, 7-ci buraxılış)) ilkin qiymətləndirmənin nəticələrini açıqlayıb. https://www.e-gov.az/upload/documents/bulleten/bulleten-7.pdf.

### Bunun əhəmiyyəti nə oldu?

Dövlət xidmətlərinin keyfiyyətli və vaxtında çatdırılmasının dəyərləndirilməsi üçün ilk öncə e-xidmətlər qiymətləndirilməlidir. Bu hökumətə üstün və zəif tərəflərini görməyə, yeni ölçmə metodları və motivasiyalar tətbiq etməyə imkan verir. Qiymətləndirmə nəticələrinin ictimaiyyətə açıqlanması isə cəmiyyətə müqayisə etmək imkanı verər. Bu zaman mövcud problemlər üzə çıxar və hədəf qruplarına xidmətlərin çatması mühakimə edilə bilər.

### İrəli doğru

Steykholder görüşlərində təklif olundu ki, vətəndaş cəmiyyəti və peşəkar ekspertlər elektron xidmətlərin qiymətləndirilməsi prosesinə cəlb olunsun. Bu, müxtəlif dövlət orqanlarında elektron xidmətlərin müqayisəli və obyektiv qiymətləndirməsinə imkan verə bilər. Məhz bu sahədə hökumətlə vətəndaş cəmiyyəti layihə əsaslı əməkdaşlıq edə bilər. Öhdəliyin dəqiq icra müddətləri də işlənməlidir.

### Mənbələr:

ASAN Xidmət, Dövlət orqanlarında elektron xidmətlərin təşkili və göstərilməsi üzrə qiymətləndirmə QAYDALARI (11 Yanvar 2013), http://www.asan.az/az/content/view/349/2283.

Elektron Hökumət Portalı, Elektron Hökumət Bülleteni (iyul 2013), https://www.e-gov.az/upload/documents/bulleten/bulleten-7.pdf.

## 5.2 | Elektron xidmətlər barədə illik ictimai təqdimatlar

*Dövlət orqanlarının öz səlahiyyətlərinə uyğun olaraq həyata keçirdikləri elektron xidmətlər barədə ildə bir dəfədən az olmayaraq ictimai təqdimatlar keçirməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | |
|---|---|---|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Mərkəzi icra hakimiyyəti orqanları | | | |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib | | | |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox | | | |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) | | | |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət xidmətlərinin təkmilləşdirilməsi və dövlətin etibarlığının artırılması | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| | | | ✗ | ✗ | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Orta (bu öhdəlik öz sahəsi üzrə irəli doğru atılmış bir addımdır, ancaq miqyas etibarilə məhduddur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>01 Yanvar 2013 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2015 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma | BAŞLANILMAYIB – **LİMİTLİ** (faktiki və nəzərdə tutulan) – ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ – TAMAMLANMIŞ |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlər görülməsi |

XÜLASƏ

### Nə baş verdi?

Bu öhdəliyin icra səviyyəsi aşağıdır. Ancaq bəzi mərkəzi icra hakimiyyəti orqanları e-xidmətlər barədə təqdimatlar keçiriblər (məs. Əmlak Məsələləri Dövlət Komitəsi, Vergilər Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi).

### Bunun əhəmiyyəti nə oldu?

Müxtəlif dövlət orqanları tərəfindən bu cür təqdimatlar ictimai məlumatlılığı artırar və e-hökuməti stimullaşdırar.

### İrəli doğru

Öhdəliyin icrası istiqamətində işlər davam etdirilməlidir. Bu cür təqdimatların sayı artırılmalıdır və daha mox regionlarda keçirilməlidir.

### Mənbələr:

Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi, İstehlak Mallarının Ekspertizası Mərkəzi, http://ekspertiza.az/index.php?option=com_content&view=article&id=169:brdd-iqtisadi-inkiaf-nazirliyinin-gstrdiyi-elektron-xidmtlr-dair-tdbir-keirilib&catid=86:&Itemid=294.

Əmlak Məsələləri Dövlət Komitəsinin Elektron Xidmətlər Portalının ictimai təqdimatı keçirilmişdir (23 Aprel. 2013), http://www.emdk.gov.az/?/az/news/view/321.

## 5.3 | Elektron informasiya dövriyyəsinin vahid sistemi

*Dövlət orqanları arasında elektron informasiya dövriyyəsinin təmin edilməsi məqsədi ilə vahid sistemin yaradılması.*

| ÖHDƏLIYIN TƏSVIRI | | |
|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi, Xüsusi Dövlət Mühafizə Xidməti |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) |

| | | | | | |
|---|---|---|---|---|---|
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət xidmətlərinin təkmilləşdirilməsi və dövlətin etibarlığının artırılması | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| | | | | | ✗ |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Əvvəlcədən mövcud olan | **POTENSIAL TƏSIR**<br>Kiçik (bu öhdəlik öz sahəsi üzrə irəli doğru atılmış kiçik, ancaq pozitiv bir addımdır) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>01 Yanvar 2013 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2014 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma |  |



| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Tamalanmış fəaliyyət |

XÜLASƏ

## Nə baş verdi?

Xüsusi Dövlət Mühafizə Xidmətindən gələn rəsmi məktuba əsasən (31.05.2013) dövlət orqanları arasında elektron informasiya dövriyyəsinin təmin edilməsi məqsədi ilə vahid sistemi artıq qurulub (İPMPLS, 10Gb/san.). Hazırda bütün hökumətdaxili informasiya mübadiləsi bu şəbəkə vasitəsilə aparılır.

## Bunun əhəmiyyəti nə oldu?

Bu öhdəlik informasiya təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət daşısa da, açıq hökumət prinsiplərinə və dəyərlərinə çox az aidiyyəti var.

## İrəli doğru

Bu öhdəliyin icrası texniki baxımından bitib. Bu tipli öhdəliklər növbəti fəaliyyət planından çıxarıla bilər.

## Mənbələr:

Xüsusi Dövlət Mühafizə Xidmətindən rəsmi məktub (31.05.2013).

## 5.4 | Elektron ödənişlərin təkmilləşdirilməsi

*Rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | | |
|---|---|---|---|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi, mərkəzi icra hakimiyyətləri | | | | |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib | | | | |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox | | | | |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Aşağı (öhdəliyin təsviri qiymətləndirilə bilən fəaliyyətlər müəyyən etmir və bunlar çox spesifik deyil) | | | | |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət xidmətlərinin təkmilləşdirilməsi və dövlət resurslarının effektiv idarə edilməsi | | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** | |
| | | | | | ✗ | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Əvvəlcədən mövcud olan | **POTENSIAL TƏSIR**<br>Kiçik (bu öhdəlik öz sahəsi üzrə irəli doğru atılmış kiçik, ancaq pozitiv bir addımdır) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>01 Yanvar 2013 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2014 | Faktiki tamamlanma<br><br>Nəzərdə tutulan tamamlanma | <br> |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

XÜLASƏ

## Nə baş verdi?

Vergilər Nazirliyi 2012-ci ildə açıq hökümət üzrə milli fəaliyyət panının icrası üzrə heabatında vergilərin elektron ödənişi və elektron xidmətlərin təkmilləşməsi ilə bağlı ciddi bir informasiya vermir. Ancaq vergi ödəyiciləri vahid ƏDV deposit hesabı açıb buradan ödəniş edə bilərlər. Bəzi communal ödənişləri https://www.hesab.az vasitəsilə də həyata keçirmək olar.

## Bunun əhəmiyyəti nə oldu?

Rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsinin açıq hökumət prinsipləri ilə birbaşa əlaqəsi çox zəifdir.

## İrəli doğru

Elektron ödənişlərlə bağlı koordinasiyaedici ayrıca dövlət orqanı seçilməlidir. Bu, Vergilər Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, yaxud Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ola bilər. Vergilərin və icbari ödənişlərin elektron ödənişini elektron hökumət portalına daxil etmık lazımdır (www.e-gov.az).

Bu öhdəliyin icrasına nəzarət funksiyasını həyata keçirmək üçün vətəndaş cəmiyyəti təşkilatları cəlb olunarsa açıq hökumət üzrə öhdəliyin relevantlığı artar. OECD sənədlərində effektiv ictimai iştirakçılığın internet və elektron xidmətlərlə bağlı həyata keçirilməsi xüsusi qeyd olunur.

## Mənbələr:


Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası ilə bağlı Vergilər Nazirliyi tərəfindən 2012-ci ildə görülmüş işlər üzrə, http://vn.taxes.gov.az/qanun/dovlet_proqrami/aciq_hokumetin_tesviri_2012_2015.pdf.

Azərbaycan Respublikası Vergilər Nazirliyi, İSTİFADƏÇİ TƏLİMATLARI, https://www.e-taxes.gov.az/dispatcher?menu=edvdep&submenu=1&nav=edvdep.

Elektron Hökumət Portalı, Qurumlar üzrə, https://www.e-gov.az/e-services/?i=citizen.

OECD, (2009), Vətəndaşlara fokuslaşmaq: daha yaxşı siyasət və xidmətlər üçün ictimaiyyətin cəlbi. http://www.iadb.org/intal/intalcdi/pe/2009/03785.pdf.

QoldenPey, https://www.hesab.az/Default.aspx?ReturnUrl=%2f.

## 5.5 | Regionlarda elektron xidmətlərdən istifadə

*Regionlarda əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması üzrə tədbirlərin həyata keçirilməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | | |
|---|---|---|---|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Mərkəzi icra hakimiyyəti orqanları, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi | | | | |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib | | | | |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox | | | | |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndirilə bilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) | | | | |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət xidmətlərinin təkmilləşdirilməsi | | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABAT-LILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** | |
| | ✗ | | ✗ | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Orta (öhdəlik irəli doğru atılmış ciddi bir addımdır, ancaq miqyas etibarilə məh-duddur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>01 Yanvar 2013 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2014 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma |  |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

## Nə baş verdi?

ASAN Xidmətin regionlarda avtobuslar və xüsusi maşınlar vasitəsilə həyata keçirdiyi səyyar xidmətlər başlatması, bütün ölkəni əhatə etməsi baxımından xüsusi önəm daşıyır. Bu, son nəticədə vətəndaş məmnuniyyətini artıran tədbirlərdəndir. Rabitə və Yüksək Texnologiyalar Nazirliyi isə AzərPoçtun regionlardakı filiallarında maliyyə xidmətlərini də əlavə olaraq başladıb (16.04.2010-da Mərkəzi Bankın lisenziyası əsasında). 2012 və 2013-cü illərdə, yəni açıq hökumət planının qiymətləndirmə müddətində bu xidmətlər davam edib.

## Bunun əhəmiyyəti nə oldu?

Açıq hökumət prinsip və dəyərlərini bütün ölkəboyu yaymaq üçün regionlarda elektron xidmətlərdən istifadə təşviq edilib genişləndirilməlidir. Bu iqtisadi gücündən asılı olmayaraq bütün regionlar boyu korrupsiya riskini azaldar və dövlət xidmətlərinin verilməsində şəffaflığı artırar. Dövlət xidmətlərinin verilməsi qaydalarının vətəndaşlar üçün öncədəngörülən olması da önəmlidir.

## İrəli doğru

Öhdəliyin icrası istiqamətində işlər gücləndirilməlidir. Bunun üçün də ilk növbədə regionlarda internetə çıxış yaxşılaşdırılmalıdır (paytaxt Bakıda 100 nəfərdən 87-i, regionlarda isə hər 100 nəfərdən 60-ı internet istifadəçiləridir (ölkə üzrə ortalama hər 100 nəfərdən 70-i)).

## Mənbələr:

Asan Xidmət, ASAN Səyyar fəaliyyətdə! (29 May 2013), http://www.asan.az/az/content/view/249/2235.

Azərpoçt, http://www.azerpost.az/index.php?options=news&id=33.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi, http://www.asan.az/en/content/index/201.

Dövlət Statistika Komitəsi, "İnformasiya Cəmiyyəti," http://www.stat.gov.az/source/information_society/indexen.php.

## 6 | DÖVLƏT MALİYYƏ NƏZARƏTİ ORQANLARININ ŞƏFFAFLIĞI

### 6.1 | Dövlət maliyyə nəzarəti üçün hüquqi və institusional çərçivə

*Dövlət maliyyə nəzarətini həyata keçirən orqanların səlahiyyətlərinin dəqiqləşdirilməsi və maliyyə nəzarəti üzrə daha təkmil hüquqi baza təmin etmək üçün maliyyə nəzarəti haqqında qanun layihəsinin hazırlanması.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | | |
|---|---|---|---|---|---|---|
| CAVABDEHLIK | APARICI TƏSISAT | Nazirlər Kabineti, Hesablama Palatası, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi | | | | |
| | DƏSTƏKLƏYICI TƏSISAT | Müəyyən edilməyib | | | | |
| | ƏLAQƏLƏNDIRICI ŞƏXS | Yox | | | | |
| SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK | | Orta (öhdəliyin təsviri qiymətləndirilə bilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) | | | | |
| UYĞUNLUQ | OGP ƏSAS ÇAĞIRIŞLARI | Dövlət xidmətlərinin təkmilləşdirilməsi və dövlət resurslarının effektiv idarə edilməsi | | | | |
| | OGP DƏYƏRLƏRI | | | | | |
| | MƏLUMATLARA ÇIXIŞ | İCTIMAI IŞTIRAKÇI LIQ | HESABATLILIQ | ŞƏFFAFLIQ VƏ HESABAT-LILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA | HEÇ BIRI | |
| | | | ✗ | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Əvvəlcədən mövcud olan | **POTENSIAL TƏSIR**<br>Orta (öhdəlik irəli doğru atılmış ciddi bir addımdır, ancaq miqyas etibarilə məhduddur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>01 Yanvar 2013 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2014 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma | BAŞLANILMAYIB — **LİMİTLİ** (faktiki və nəzərdə tutulan) — ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ — TAMAMLANMIŞ |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

XÜLASƏ

## Nə baş verdi?

Dövlət maliyyə nəzarətini həyata keçirən orqanların (Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Hesablama Palatası) səlahiyyətlərinin dəqiqləşdirilməsi işi başa çatmayıb. Maliyyə Nazirliyi nəzdində Dövlət Maliyyə Nəzarəti Xidməti üçün yeni qaydalar hazırlanıb. Həmçinin, Maliyyə Nazirinin müavini Azər Bayramov 21 fevral 2013-cü ildə mətbuata bildirib ki, "Maliyyə nəzarəti haqqında" qanunun layihəsi hazırlanır və burada Avropanın mütərəqqi təcrübəsi öz əksini tapacaq. Ancaq həmin qanun layihəsinin hazırlanması üçün Maliyyə Nazirliyinin, yoxsa Hesablama Palatasının əsas məsul qurum olması, habelə layihənin nə zaman hazır olub parlamentə göndəriləcəyi bəlli deyil.

## Bunun əhəmiyyəti nə oldu?

Bu öhdəliyin hər iki komponenti (qanun layihəsinin hazırlanması və səlahiyyətlərin dəqiqləşdirilməsi) daha hesabatlı və aydın dövlət maliyyə idarəetməsi sisteminə töhfə verə bilər. Bununla yanaşı, bəzi steykholderlər vurğuladı ki, Hesablama Palatası parlament tərəfindən funksional və təşkilati müstəqillik əsasıyla formalaşdırılıb və ona hesabat verir. Bu qurumun açıq hökumət üzrə milli fəaliyyət planına daxil edilməsi tam olaraq əsaslandırılmayıb.

## İrəli doğru

Maliyyə Nazirliyi ixtisaslaşmış vətəndaş cəmiyyəti nümayəndələrini maliyyə nəzarəti haqqında qanunun layihəsinin hazırlanmasına cəlb edə bilər. Xüsusilə nəinki Azərbaycanın, bütövlükdə bölgənin büdcə üzrə ixtisaslaşmış ilk sivil qurumu olan Milli Büdcə Qrupunun (MBQ) büdcə sənədlərinin təhlili və beynəlxalq qaydalar üzrə təcrübəsindən istifadə oluna bilər.

## Mənbələr:


İqtisadi Tədqiqatlar Mərkəzi, Şəffaflıq Azərbaycan. Azərbaycanda "Açıq Hökumətin Təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın Monitorinq Hesabatı (Bakı 2013)

Milli Büdcə Qrupunun ixtisaslaşmış büdcə portalı, http://www.budget.az/budget.

SalamNews, Azərbaycanda "Dövlət maliyyə nəzarəti haqqında" yeni qanun hazırlanır – nazir müavini 21 Fevral 2013), http://salamnews.org/az/news/read/59879/azerbaycanda-doumlvlet-maliyye-nezareti-haqqinda-yeni-qanun-hazirlanir--nazir-muumlavini.

## 6.2 | Dövlət maliyyə nəzarəti orqanlarının hesabatlılığı və şəffaflığı

*Maliyyə nəzarəti orqanlarının hesabatlılığının artırılması və həmin orqanlar tərəfindən maliyyə nəzarətinin nəticələri barədə təhlillərin və statistik məlumatların ictimaiyyətə təqdim edilməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | | |
|---|---|---|---|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Nazirlər Kabineti, Hesablama Palatası, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi | | | | |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib | | | | |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox | | | | |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) | | | | |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət xidmətlərinin təkmilləşdirilməsi və dövlət resurslarının effektiv idarə edilməsi | | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** | |
| | | | ✗ | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Orta (öhdəlik irəli doğru atılmış ciddi bir addımdır, ancaq miqyas etibarilə məhduddur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | | | | |
|---|---|---|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>01 Yanvar 2013 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2015 | | BAŞLANILMAYIB | LİMİTLİ | ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ | TAMAMLANMIŞ |
| | | Faktiki tamamlanma | | ▼ | | |
| | | Nəzərdə tutulan tamamlanma | | ▲ | | |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

XÜLASƏ

## Nə baş verdi?

Bu öhdəlik qismən icra edilib. Təhlillərin və statistik məlumatların açıqlanması üçün məhdud ölçüdə tədbirlər görülüb. Məsələn, 2013-cü ilin may və iyun aylarında həm 2012-ci il dövlət büdcəsinin icrası ilə bağlı məlumatlar, həm də Hesablama Palatasının buna rəyi açıqlanıb (http://ach.gov.az). Hesablama Palatası kənar audit tədbirləri ilə bağlı, Vergilər Nazirliyi vergi yoxlamaları ilə bağlı, Maliyyə Nazirliyi isə sığorta sektoruna nəzarət tədbirləri ilə bağlı müntəzəm məlumatlar açıqlamışlar.

## Bunun əhəmiyyəti nə oldu?

Maliyyə nəzarəti orqanlarının hesabatlılığının artırılması açıq hökumətin prinsiplərinə olduqca yaxın olan fiskal şəffaflıq və hesabatlılığı da artırır. Bu öhdəlik maliyyə nəzarəti orqanlarının statistik məlumat və təhlillərinin açıqlanmasının dövriliyinə müsbət təsir göstərə bilər.

## İrəli doğru

Öhdəliyin icrası sürətləndirilməlidir və vətəndaş cəmiyyəti ilə əməkdaşlığa xüsusi önəm verilməlidir. Maliyyə nəzarəti orqanları vətəndaş cəmiyyəti ilə birgə dəyirmi masa müzakirələri keçirə bilərlər.

## Mənbələr:

Hesablama Palatası, Xəbərlər, http://ach.gov.az.

Maliyyə Nazirliyi Dövlət Sığorta Nəzarəti Xidməti, http://www.sigorta.maliyye.gov.az/en.

VergilərNazirliyi, YeniliklərArxivi, http://www.taxes.gov.az/?name=yenilikler&page=2.

## 6.3 | Dövlət maliyyə nəzarətində informasiya texnologiyalarından istifadə

*Maliyyə nəzarətində informasiya texnologiyalarının tətbiqi və elektron nəzarət ("e-nəzarət") sisteminin yaradılması.*

**ÖHDƏLIYIN TƏSVIRI**

| | | |
|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Nazirlər Kabineti, Hesablama Palatası, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndirilə bilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət xidmətlərinin təkmilləşdirilməsi və dövlət resurslarının effektiv idarə edilməsi |

**OGP DƏYƏRLƏRI**

| MƏLUMATLARA ÇIXIŞ | İCTIMAI IŞTIRAKÇI LIQ | HESABATLILIQ | ŞƏFFAFLIQ VƏ HESABAT-LILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA | HEÇ BIRI |
|---|---|---|---|---|
| | | | | ✗ |

**AMBISIYA**

| | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Kiçik (öhdəlik irəli doğru atılmış kiçik və pozitiv addımdır) |

**TAMAMLANMA SƏVIYYƏSI**

| | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>01 Yanvar 2013 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2014 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma | BAŞLANILMAYIB — **LİMİTLİ** (faktiki və nəzərdə tutulan) — ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ — TAMAMLANMIŞ |

**NÖVBƏTI MƏRHƏLƏLƏR**

Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi

XÜLASƏ

## Nə baş verdi?

Elektron nəzarət (“e-nəzarət”) sistemi hələ formalaşmayıb, ancaq bəzi hazırlıqlar aparılır. Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti və Vergilər Nazirliyi maliyyə nəzarətində informasiya texnologiyalarını aktiv tətbiq edirlər. Hesablama Palatası ilə bağlı isə məlumat yoxdur.

## Bunun əhəmiyyəti nə oldu?

Maliyyə nəzarətində informasiya texnologiyalarının tətbiqi və elektron nəzarət (“e-nəzarət”) sisteminin yaradılması ümumən dövlət maliyyəsi üzərində nəzarətin keyfiyyətini yüksəldə bilər. Ancaq ümumən bu öhdəlik gələcəkdə yeni şəffaflıq, hesabatlılıq və iştirakçılıq imkanları açmasa onun açıq hökumət prinsipləri ilə əlaqəsi bir qədər dolayı olacaq.

## İrəli doğru

Maliyyə nəzarətində informasiya texnologiyalarının tətbiqi və elektron nəzarət (“e-nəzarət”) sistemi ilə bağlı rəhbər sənəd (effektivlik kriteriyaları, nəzarət qaydaları və s.) hazırlana bilər ki, burada da vətəndaş cəmiyyətində təmsil olunan ekspetlər (məsələn, MBQ ekspetləri) də cəlb oluna bilər.

## Mənbələr:


Azərbaycan Respublikası Maliyyə Nazirliyi, Dövlət Maliyyə Nəzarəti Xidməti - Əsasnamə, http://maliyye.gov.az/node/1077.

Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci iltarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası ilə bağlı Vergilər Nazirliyi tərəfindən 2012-ci ildə görülmüş işlər üzrə, http://vn.taxes.gov.az/qanun/dovlet_proqrami/aciq_hokumetin_tesviri_2012_2015.pdf.

Hesablama Palatası, Xəbərlər, http://ach.gov.az.

Maliyyə Nazirliyindən rəsmi məktub (07.08.2013)

## 6.4 | Dövlət maliyyə nəzarəti üzrə informasiya bazası

*Maliyyə nəzarəti orqanlarının qarşılıqlı fəaliyyətinin təmin edilməsi, onlar arasında vahid elektron informasiya bazasının yaradılması, informasiya mübadiləsinin təşkili.*

| ÖHDƏLIYIN TƏSVIRI | | |
|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Nazirlər Kabineti, Hesablama Palatası, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Aşağı (öhdəliyin təsviri ölçüləbilən fəaliyyətlər müəyyən etmir) |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət xidmətlərinin təkmilləşdirilməsi və dövlət resurslarının effektiv idarə edilməsi |

| OGP DƏYƏRLƏRI | | | | |
|---|---|---|---|---|
| **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABAT-LILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| | | | | ✗ |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Kiçik (öhdəlik irəli doğru atılmış kiçik və pozitiv addımdır) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>01 Yanvar 2013 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2014 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma |  |



| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin daha ölçüləbilən olması üçün revizə edilməsi |

XÜLASƏ

### Nə baş verdi?
Maliyyə Nazirliyinin 7 avqust tarixli məktubuna əsasən maliyyə nəzarəti orqanlarının vahid elektron informasiya bazasının formalaşması istiqamətində işlər gedir. Ancaq ümumiyyətlə bu öhdəliyin icra səviyyəsi məhduddur.

### Bunun əhəmiyyəti nə oldu?
Bu öhdəliyin açıq hökumət prinsipləri ilə əlaqəsi olduqca zəifdir. Həmin məsələ daha çox maliyyə nəzarəti orqanlarının qarşılıqlı fəaliyyətindəki münasibətlərlə bağlıdır. Bu öhdəlik geniş ictimaiyyət üçün şəffaflıq, hesabatlılıq və iştirakçılıq imkanları açmır.

### İrəli doğru
MHM tədqiqatçısı tövsiyə edir ki, hökumət bu öhdəliyi ya AHT prinsiplərinə relevant etmək üçün yenidən yazmalıdır, ya da növbəti fəaliyyət planından çıxarmalıdır.

### Mənbələr:
İqtisadi Tədqiqatlar Mərkəzi, Şəffaflıq Azərbaycan. Azərbaycanda "Açıq Hökumətin Təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın Monitorinq Hesabatı (Bakı 2013)

Maliyyə Nazirliyindən rəsmi məktub (07.08.2013

XÜLASƏ

## 6.5 | Maliyyə hesabatlarının açıqlanması

*Dövlət müəssisələrinin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq tərtib edilmiş maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə dərc edilməsinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | |
|---|---|---|
| CAVABDEHLIK | APARICI TƏSISAT | Nazirlər Kabineti, Hesablama Palatası, Maliyyə Nazirliyi |
| | DƏSTƏKLƏYICI TƏSISAT | Müəyyən edilməyib |
| | ƏLAQƏLƏNDIRICI ŞƏXS | Yox |
| SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) |

| UYĞUNLUQ | | | | | |
|---|---|---|---|---|---|
| OGP ƏSAS ÇAĞIRIŞLARI | Dövlət xidmətlərinin təkmilləşdirilməsi və dövlət resurslarının effektiv idarə edilməsi | | | | |
| OGP DƏYƏRLƏRI | | | | | |
| MƏLUMATLARA ÇIXIŞ | İCTIMAI IŞTIRAKÇI LIQ | HESABATLILIQ | ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA | HEÇ BIRI | |
| | | ✗ | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Orta (öhdəlik irəli doğru atılmış ciddi bir addımdır, ancaq miqyas etibarilə məhduddur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | |
|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>01 Yanvar 2013 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2014 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma |




| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

XÜLASƏ

### Nə baş verdi?

Hökumət bu öhdəlik üzrə bəzi hazırlıq işlərini 2012-ci ilin sonu və 2013-cü ilin əvvəllərində artıq başlayıblar və müvafiq işlər davam etdirilir. Habelə İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklərlə artıq maliyyə hesabatını açıqlamayan dövlət müəssisələri məsuliyyət daşıyacaqlar.

### Bunun əhəmiyyəti nə oldu?

Dövlət müəssisələrinin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq tərtib edilmiş maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə dərc edilməsi ona görə həyati önəm daşıyır ki, konkret olaraq SOCAR-ın timsalında dövlət şirkətləri dövlət resurslarının önəmli hissəsinə nəzarət edirlər. Ancaq SOCAR öz mühasibat və maliyyə hesabatlılığını tamamilə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun qurmağa çalışır. Digər dövlət müəssisələrinin bəzilərində isə bu sahədə çətinliklər var.

### İrəli doğru

Milli tədqiqatçı hesab edir ki, artıq növbəti mərhələdə dövlət şirkətlərinin maliyyə hesabatlığı üzərində effektiv nəzarət qurmaq üçün addımlar atılmalıdır. Maliyyə Nazirliyi, Hesablama Palatası və Nazirlər Kabineti birgə şəkildə dövlət şirkətlərinin maliyyə hesabatlarının açıqlanması üzərində nəzarət qaydalarını ayrıca sənəd kimi işləməlidirlər.

### Mənbələr:

İqtisadi Tədqiqatlar Mərkəzi, Şəffaflıq Azərbaycan. Azərbaycanda “Açıq Hökumətin Təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın Monitorinq Hesabatı (Bakı 2013)

Dövlət Neft Şirkəti, İqtisadiyyat və Statistika. http://new.socar.az/socar/en/economics-and-statistics/economics-and-statistics/socar-reports.

XÜLASƏ

## 6.6 | Yerli büdcəyə nəzarət

*Yerli büdcənin tərtibinə və icrasına, o cümlədən sərf edilən vəsaitin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna, habelə bələdiyyələrin maliyyə hesabatlarının vaxtında təsdiq olunmasına nəzarət mexanizmlərinə və prosedurlarına dair təkliflər hazırlanması.*

| ÖHDƏLIYIN TƏSVIRI | | |
|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Ədliyyə Nazirliyi, Hesablama Palatası, Maliyyə Nazirliyi |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Aşağı (öhdəliyin təsviri ölçüləbilən fəaliyyətlər müəyyən etmir) |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət resurslarının effektiv idarə edilməsi |

| OGP DƏYƏRLƏRI | | | | |
|---|---|---|---|---|
| **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABAT-LILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| | | | | ✗ |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Kiçik (öhdəlik irəli doğru atılmış kiçik və pozitiv addımdır) |

| TAMAMLANMA SƏVIYYƏSI | | |
|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>01 Yanvar 2013 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2013 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma |




| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin yenilənməsi |

XÜLASƏ

## Nə baş verdi?

Alternativ qiymətləndirmələr yerli budcənin tərtibinə və nəzarət mexanizmlərinə və prosedurlarına dair təkliflərin hazırlanması işlərinin getdiyini qeyd etsə də, milli tədqiqatçı bununla bağlı ciddi faktlar tapa bilməyib.

## Bunun əhəmiyyəti nə oldu?

Azərbaycanda bələdiyyələrin mövqeyi və onların idarə etdikləri maliyyənin miqyası o qədər də güclü və geniş deyil. Öhdəliyin indiki ifadə şəkli orada hesabatlılıq, şəffaflıq və iştirakçılıq prinsiplərinə xüsusi vurğu vurmur. Beləliklə də, öhdəliyin açıq hökumət prinsipləri ilə əlaqəsi bir qədər zəif görünür. Nəinki bələdiyyə, həmçinin şəhər və rayon büdcələri üçün maliyyə hesabatlılığı problemli məsələdir. Bələdiyyələr və yerli icra hakimiyyətləri cəmiyyətə olduqca məhdud büdcə məlumatı verirlər.

## İrəli doğru

Bu öhdəliyi yenidən işləyib bundan sonrakı fəaliyyət planında ona ciddi şəkildə diqqət yetirmək, nəticədə yerli büdcələrin effektivliyinə və şəffaflığına nail olmaq lazımdır. Ancaq indiki şəkliylə öhdəlik bir qədər ümumi və anlaşılmazdır.

## Mənbələr:

İqtisadi Tədqiqatlar Mərkəzi, Şəffaflıq Azərbaycan. Azərbaycanda “Açıq Hökumətin Təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın Monitorinq Hesabatı (Bakı 2013)

Sumqayıt Bələdiyyəsi, SUMQAYIT BƏLƏDİYYƏSİNİN 2011-Cİ İLDƏ FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİNƏ DAİR HESABATI, http://sumqayit-bl.gov.az/view.php?lang=az&menu=8076&id=718.

## 6.7 | Büdcənin illik icra hesabatları

*Dövlət büdcəsinin icrası barədə hesabat və müvafiq qanun layihələrinin Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilənədək dərc edilməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | | |
|---|---|---|---|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Nazirlər Kabineti, Maliyyə Nazirliyi | | | | |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib | | | | |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox | | | | |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) | | | | |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət resurslarının effektiv idarə edilməsi | | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** | |
| | ✗ | | | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Orta (öhdəlik irəli doğru atılmış ciddi bir addımdır, ancaq miqyas etibarilə məhduddur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>01 Yanvar 2013 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2015 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma | BAŞLANILMAYIB | LİMİTLİ | ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ ▼▲ | TAMAMLANMIŞ | |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Tamamlanmış öhdəliyin monitorinqi |

XÜLASƏ

### Nə baş verdi?

Dövlət büdcəsinin icrası barədə hesabat və müvafiq qanun layihələrinin Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilənədək dərc edilməsi, demək olar ki, 2013-cü ildə təmin olunub. Ümumiyyətlə, Maliyyə Nazirliyi öz intenet səhifəsinə əvvəlki dövrlərə nisbətən bir qədər çox məlumat yerləşdirib (http://maliyye.gov.az/). Azərbaycan büdcə şəffaflığı indeksində büdcə açıqlığı yüksək olmayan ölkə kimi qiymətləndirilib. Açıq Büdcə İndeksi (Open Budget Index - OBI) xüsusi sorğu vasitəsilə ölkələrin büdcə prosesinin şəffaflığını ümumi şəkildə ölçməyə və digərləri ilə müqayisə etməyə imkan verən indeksdir. İndeksin əsaslandığı Açıq Büdcə Sorğusu (Open Budget Survey – OBS) büdcə sənədlərinin açıqlığını, büdcə üzərində effektiv kənar nəzarəti və ictimai iştirakçılıq imkanlarını dəyərləndirir.

### Bunun əhəmiyyəti nə oldu?

Bu öhdəlik müxtəlif steykholderlərin iştirakı ilə büdcəöncəsi debatları təşviq edə bilər və bununla da açıq hökumət təşəbbüsünün tətbiqinə önəmli töhfə verər.

### İrəli doğru

Maliyyə Nazirliyi illik büdcə icrası hesabatlarının məzmununu daha da təkmilləşdirməli və onların mütəmadi açıqlanmasını təmin etməlidir. Bu, başda İBP olmaqla bir sıra təşkilatın tövsiyələrində də öz əksini tapıb.

### Mənbələr:

Azərbaycan Respublikası Maliyyə Nazirliyi, http://maliyye.gov.az/node/1621.

Azərbaycan Respublikası Maliyyə Nazirliyi, 2013-cü ilin dövlət və icmal büdcələrinin layihələrinin təqdimatı, http://maliyye.gov.az/sites/default/files/2013-1.pdf.

Açıq Büdcə Sorğusu 2012: Azərbaycan, http://internationalbudget.org/wp-content/uploads/OBI2012-AzerbaijanCS-English.pdf.

MBQ-nin büdcə portalı, http://www.budget.az/budget.

## 7 | VERGİ NƏZARƏTİ VƏ YOXLAMALARININ ŞƏFFAFLIĞI

### 7.1 | Vergi ödəyicilərinin zəruri məlumatlara çıxışı

*Vergi ödəyicilərinin zəruri məlumatla təmin edilməsi və vergi ödəyiciləri ilə təbliğat işinin təkmilləşdirilməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | |
|---|---|---|---|---|---|
| CAVABDEHLIK | APARICI TƏSISAT | Vergilər Nazirliyi | | | |
| | DƏSTƏKLƏYICI TƏSISAT | Müəyyən edilməyib | | | |
| | ƏLAQƏLƏNDIRICI ŞƏXS | Yox | | | |
| SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK | | Aşağı (öhdəliyin təsviri ölçüləbilən fəaliyyətlər müəyyən etmir) | | | |
| UYĞUNLUQ | OGP ƏSAS ÇAĞIRIŞLARI | Dövlətin etibarlığının artırılması və dövlət resurslarının effektiv idarə edilməsi | | | |
| | OGP DƏYƏRLƏRI | | | | |
| | MƏLUMATLARA ÇIXIŞ | İCTIMAI IŞTIRAKÇI LIQ | HESABATLILIQ | ŞƏFFAFLIQ VƏ HESABAT-LILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA | HEÇ BIRI |
| | ✗ | ✗ | ✗ | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Əvvəlcədən mövcud olan | **POTENSIAL TƏSIR**<br>Kiçik (öhdəlik irəli doğru atılmış kiçik və pozitiv addımdır) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2014 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma | BAŞLANILMAYIB — LİMİTLİ — ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ — TAMAMLANMIŞ (faktiki: Tamamlanmış; nəzərdə tutulan: Tamamlanmış) |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin revizə edilməsi |

XÜLASƏ

## Nə baş verdi?

Hökumət vergi ödəyicilərini zəruri məlumatlarla tanış etmək üçün müxtəlif tədbirlər görmüşlər. Bunların bir çoxu Milli Fəaliyyət Planı təsdiqlənməzdən əvvəldən başlayıb (qaynar xətt xidməti, müxtəlif nəşrlər, qısa mesaj sistemi, rəsmi internet səhifəsi və s.). Bu öhdəlik yeni olmamaqla yanaşı, eyni zamanda həddən artıq ümumidir və monitorinqi xeyli çətindir.

## Bunun əhəmiyyəti nə oldu?

Vergi ödəyicilərinə zəruri məlumatların verilməsi MFP-dan kənarda da Vergilər Nazirliyinin rutin iş öhdəliyidir və bu baxımından bunun fəaliyyət planında olamğının praktik əhəmiyyəti azdır. O da nəzərə alınmalıdır ki, Vergilər Nazirliyi veb səhifəsi kifayət qədər dolğundur və bu qurum ictimai məlumatlandırma funksiyasını əvvəldən yüksək səviyyədə yerinə yetirirdi.

## İrəli doğru

Steykholderlər və MHM tədqiqatçısı hesab edirlər ki, bu öhdəlik Vergilər Nazirliyi üçün yeni öhdəlik deyil. Əgər bu öhdəliyin açıq hökumətlə əlaqəliliyi və ölçüləbilən olması əsaslandırılmasa, onda onun milli fəaliyyət planından çıxarılması və ya yenidən yazılması baş verməlidir.

## Mənbələr:

Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası ilə bağlı Vergilər Nazirliyi tərəfindən 2012-ci ildə görülmüş işlər üzrə, http://vn.taxes.gov.az/qanun/dovlet_proqrami/aciq_hokumetin_tesviri_2012_2015.pdf.

Azərbaycan Respublikası Vergilər Nazirliyi, http://www.taxes.gov.az/?name=qanun&cat=19.

İnformasiya Azadlığı portalı, http://informasiya.org.

## 7.2 | Vergi şəffaflığı

*Vergi orqanlarının fəaliyyətinin Beynəlxalq Valyuta Fondunun Vergi şəffaflığı üzrə yaxşı praktika haqqında kodeksinə uyğunlaşdırılması sahəsində tədbirlər görülməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | |
|---|---|---|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Vergilər Nazirliyi | | | |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib | | | |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox | | | |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) | | | |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət in etibarlığının artırılması və dövlət resurslarının effektiv idarə edilməsi | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| | ✗ | | ✗ | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Orta (öhdəlik irəli doğru atılmış ciddi bir addımdır, ancaq miqyas etibarilə məhduddur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2013 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma |  |



| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

XÜLASƏ

## Nə baş verdi?

Vergilər Nazirliyi BVF ilə Fiskal (Vergi) Şəffaflığı üzrə Yaxşı Təcrübələr Kodeksi, Fiskal Şəffaflıq, Hesabatlılıq və Risk Kodeksi də daxil olmaqla bir sıra sənədlər üzrə ilkin müzakirələr aparmışlar.

## Bunun əhəmiyyəti nə oldu?

BVF-nin Fiskal (Vergi) Şəffaflığı üzrə Yaxşı Təcrübələr Kodeksinin qəbulu Azərbaycanda fiscal şəffaflığın yüksəldilməsü üçün önəmlidir. Kodeks dövlət maliyyəsinin strukturu ilə bağlı prinsipləri və təcrübələri müəyyən edir. Bunun həmçinin anti-korrupsiya siyasəti baxımından da xüsusi önəmi vardır (vergi orqanlarının siyasi təsirdən azad olması, vergi ödəyicilərinin hüquqlarının qorunması, ictimaiyyət qarşısında hesabatlılıq).

## İrəli doğru

Vergilər Nazirliyi yerli vergi praktikasını BVF-nin standartlarına uyğunlaşdırılması üçün danışıqları davam etdirməlidir.

## Mənbələr:

Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci iltarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı Vergilər Nazirliyi tərəfindən 2012-ci ildə görülmüş işlər üzrə hesabat, http://vn.taxes.gov.az/qanun/dovlet_proqrami/aciq_hokumetin_tesviri_2012_2015.pdf.

Beynəlxalq Valyuta Fondu "Fiskal şəffaflıq" http://www.imf.org/external/np/fad/trans.

XÜLASƏ

## 7.3 | Vergilərin elektron ödənişi

*Vergilərin və digər icbari ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görülməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | | |
|---|---|---|---|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Vergilər Nazirliyi | | | | |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib | | | | |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox | | | | |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Aşağı (öhdəliyin təsviri ölçüləbilən fəaliyyətlər müəyyən etmir) | | | | |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlətin xidmətlərinin təkmilləşdirilməsi və dövlət resurslarının effektiv idarə edilməsi | | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABAT-LILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** | |
| | | | | | ✗ | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Əvvəlcədən mövcud olan | **POTENSIAL TƏSIR**<br>Heç bir (öhdəlik status-kvonu dəyişmir) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2013 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma |  |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin milli fəaliyyət planından çıxarılması |

XÜLASƏ

## Nə baş verdi?

Bu öhdəliyin məzmunu 5.4-cü öhdəliyin məzmunu ilə təqribən eynidir. Milli Fəaliyyət Planının qəbul edilməsindən (sentyabr 2012) bir neçə ay öncə (aprel 2012) Vergilər Nazirliyi bəzi vergilər və icbari ödənişlərin elektron ödənişi üçün addımlar atıb.

## Bunun əhəmiyyəti nə oldu?

Bu öhdəliyin məzmunu 5.4-cü öhdəliyin məzmunu ilə təqribən eynidir və açıq hökumət prinsipləri baxımından heç bir əlavə dəyəri yoxdur.

## İrəli doğru

MHM tədqiqatçısı tövsiyyə edir ki, təkrarçılıq səbəbindən bu öhdəlik milli fəaliyyət planından çıxarılsın.

## Mənbələr:

Vergilər Nazirliyi, "İnfoMərkəz http://www.taxes.gov.az/?lang=_eng.

## 8 | HASİLAT SƏNAYELƏRİNDƏ ŞƏFFAFLIQ

### 8.1 | 1 EITI təşəbbüsünün tətbiqi

*Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda davamlı tətbiqi və inkişafı üçün Azərbaycan Respublikası hökumətinin ölkədə mineral ehtiyatların hasilatı ilə məşğul olan yerli və xarici şirkətlər, habelə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığının davam etdirilməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | |
|---|---|---|
| CAVABDEHLIK | APARICI TƏSISAT | Dövlət Neft Fondu (SOFAZ) |
| | DƏSTƏKLƏYICI TƏSISAT | Müəyyən edilməyib |
| | ƏLAQƏLƏNDIRICI ŞƏXS | Yox |
| SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK | | Orta (öhdəliyin təsviri qiymətləndirilə bilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) |

| UYĞUNLUQ | | | | | |
|---|---|---|---|---|---|
| OGP ƏSAS ÇAĞIRIŞLARI | Dövlətin etibarlığının artırılması və dövlət resurslarının effektiv idarə edilməsi | | | | |
| OGP DƏYƏRLƏRI | | | | | |
| | MƏLUMATLARA ÇIXIŞ | İCTIMAI IŞTIRAKÇI LIQ | HESABATLILIQ | ŞƏFFAFLIQ VƏ HESABAT-LILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA | HEÇ BIRI |
| | ✗ | ✗ | ✗ | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Əvvəlcədən mövcud olan | **POTENSIAL TƏSIR**<br>Heç bir (öhdəlik status-kvonu dəyişmir) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2015 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma |  |



| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Tamamlanmış öhdəliyin monitorinqi |

XÜLASƏ

### Nə baş verdi?

Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda davamlı tətbiqi və inkişafı üçün Azərbaycan Respublikası hökumətinin ölkədə mineral ehtiyatların hasilatı ilə məşğul olan yerli və xarici şirkətlər, habelə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığının davam etdirilməsi artıq başa çatmış öhdəlikdir. Bu işlərin hamısı EITI çərçivəsində vaxtı-vaxtında həyata keçirilən fəaliyyətlərdir (30.10.2013) və yenidən açıq hökumət planına salınması sual doğurur.

### Bunun əhəmiyyəti nə oldu?

Azərbaycanın fiskal gəlirlərində ixrac sənayesi önəmli paya sahibdir və HSŞT hökumət, vətəndaş cəmiyyəti və ixrac şirkətləri arasında dialoq üçün mühim imkanlar yaradır. AHT öhdəliyi müddətində Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) Hasilat Sənayesində Çoxtərfli Qrup (2010) müvafiq standartların tətbiqinə davam etdi. Amma hökumət bu dialoqlara AHT Milli Fəaliyyət Planına daxil olmadan öncə başlamışdı.

### İrəli doğru

Çoxtərəfli qrupdakı konstruktiv dialoqların davam etdirilməsinin vacibdir. Ancaq milli tədqiqatçı digər parale təşəbbüsün olduğunu nəzərə alaraq bu və əvvəlki öhdəlikləri növbəti tədbir planına daxil etməyi məsləhət görmür.

### Mənbələr:


EİTİ Azərbaycan Çoxtərəfli Qrup http://www.eiti.az/index.php/en/mhsht-ve-azerbaycan-2/multi-stakeholder-group.

Azərbaycan üzrə EİTİ Standartları (iyul 2013) http://www.eiti.az/index.php/en/senedler-2/eiti-standards.

SOFAZ-dan rəsmi məktub (30.10.2013)

SOFAZ Xəbər arxivi http://www.oilfund.az/en_US/metbuat-gusesi/xeberler-arxivi.asp.

UGE-lancer EİTİ-a qoşuldu (24.01.2013) http://en.trend.az/capital/energy/2111905.html.

## 8.2 | Mədən sənayesindən daxilolmaların açıqlanması

*Azərbaycan Respublikası hökumətinin mədən sənayesində əldə etdiyi məcmu daxilolmalar barədə hesabatların ictimaiyyətə mütəmadi açıqlanmasının davam etdirilməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | |
|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Dövlət Neft Fondu (SOFAZ) |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət resurslarının effektiv idarə edilməsi |

| OGP DƏYƏRLƏRI | | | | |
|---|---|---|---|---|
| **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| ✗ | | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Əvvəlcədən mövcud olan | **POTENSIAL TƏSIR**<br>Heç bir (öhdəlik status-kvonu dəyişmir) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2015 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma |  |



| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin yenilənməsi |

XÜLASƏ

## Nə baş verdi?

2013-cü ilin iyun ayında Azərbaycan 17-ci HSŞT hesabatını nəşr etdi. Bunları SOFAZ-ın (www.oilfund.az) və EITI Katibliyinin (www.eiti.az) internet səhifələrində tapmq mümkündür. Azərbaycanda EİTİ üzrə QHT-lərin Koalisiyası və Hökumətin müvafiq katibliyi aktiv çalışır.

## Bunun əhəmiyyəti nə oldu?

Bu öhdəlik əvvəldən mövcud idi və bilavasitə HSŞT-nin tələblərinə cavab verir. Nəticədə, bu öhdəlik də daxil olmaqla AHT Milli Fəaliyyət Planında heç bir əlavə dəyər yaratmadı.

## İrəli doğru

Gələcəkdə hökumət məhdud və status-kvonu dəyişdirmə potensialı olmayan mövcud öhdəlikləri AHT Fəaliyyət Planına yenidən daxil etməkdən yayınmalıdır.

## Mənbələr:

Azərbaycan üzrə EİTİ Standartları (iyul 2013) http://www.eiti.az/index.php/en/senedler-2/eiti-standards. SOFAZ Azərbaycan EİTİ Hesabatı (10.06.2013) http://www.oilfund.az/en_US/news/850/100/Azerbaijan-discloses-17th-EITI-report.asp.

XÜLASƏ

## 8.3 | İllik EITI hesabatlarının açıqlanması

*Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda tətbiqi üzrə illik hesabatların açıqlanması.*

| ÖHDƏLIYIN TƏSVIRI | | |
|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Dövlət Neft Fondu (SOFAZ) |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət resurslarının effektiv idarə edilməsi |

| OGP DƏYƏRLƏRI | | | | |
|---|---|---|---|---|
| **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| ✗ | | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Əvvəlcədən mövcud olan | **POTENSIAL TƏSIR**<br>Heç bir (öhdəlik status-kvonu dəyişmir) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2015 | Faktiki tamamlanma<br><br>Nəzərdə tutulan tamamlanma | BAŞLANILMAYIB — LİMİTLİ — ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ — TAMAMLANMIŞ (faktiki: TAMAMLANMIŞ; nəzərdə tutulan: TAMAMLANMIŞ) |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin yenilənməsi |

## Nə baş verdi?

ARDNF 2012-ci il üzrə EITI-ın Azərbaycanda illik hesabatını milli tədqiqatçıya məktubla göndərmişdir. Hesabatın məzmunu kifayət qədər relevant informasiyalara malik olsa da, onu daha da zənginləşdirmək olar.

## Bunun əhəmiyyəti nə oldu?

HSŞT ilə bağlı digər öhdəliklər kimi bu çərçivədə Azərbaycan hökuməti tərəfindən atılan təqdirəlayiq hal hesab edilsə belə, AHT Milli FəaliyyətPlanında əlavə dəyər kəsb etmir. ARDNF müntəzəm olaraq HSŞT icrası ilə bağlı hesabatları nəşr etməyə başlayıb. (bəzən hesabatlar vaxtında internet ünvanına yerləşdirlməsə belə).

## İrəli doğru

AHT Milli Fəaliyyət Planında əlavə dəyər yaratmaq üçün hökumət bu addımları atmalıdır: (i) ARDNF HSŞT hesabatlarını bitirən kimi internet ünvanına yerləşdirməli və (ii) bu hesabatlar çərçivəsində QHT-lərlə dəyirmi masalar təşkil etməlidir.

## Mənbələr:


EITI Azərbaycan üzrə İllik Hesabat 2011, http://www.oilfund.az/pub/uploads/Yr48K5Hz.pdf.

BVF Resurs Gəlirlərinin Şəffaflığı Sənədi (2007) http://www.imf.org/external/np/pp/2007/eng/101907g.pdf.

SOFAZ Hesabatlar Arxivi http://www.oilfund.az/en_US/hesabatlar-ve-statistika/hesabat-arxivi.asp.

## 9 | AÇIQ HÖKUMƏT SAHƏSİNDƏ MAARİFLƏNDİRMƏ VƏ ƏMƏKDAŞLIQ

### 9.1 | Milli fəaliyyət planının qiymətləndirilməsi nəticələrinin açıqlanması

*Fəaliyyət Planının icrası üzrə tədbirlərin yerinə yetirilməsi vəziyyətinin hər il üzrə dəyərləndirilməsi və ictimaiyyətə açıqlanması.*

| ÖHDƏLIYIN TƏSVIRI | | | | | | |
|---|---|---|---|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Korrupsiya ilə Mübarizə Komissiyası | | | | |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib | | | | |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox | | | | |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) | | | | |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət in etibarlığının artırılması | | | | |
| | **OGP DƏYƏRLƏRI** | | | | | |
| | **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** | |
| | | | ✗ | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Orta (öhdəlik irəli doğru atılmış ciddi bir addımdır, ancaq miqyas etibarilə məhduddur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2015 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma |  |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

XÜLASƏ

## Nə baş verdi?

Bu hesabat üzərində işləyərəkən Korrupsiyaya Qarşı Mübarizə İdarəsi  mərkəzi və yerli icra hakimiyyəti orqanlarından icra ilə əlaqəli ilkin hesabatları toplamağa və nəticələri analiz etməyə başlamışdı. Nəticədə hökumətin illik icra hesabatını yekunlaşdırmağı  və nəticələri 2014-cü ilin Fevral və ya Mart ayında açıqlamasını gözləmək daha real olardı.

## Bunun əhəmiyyəti nə oldu?

Vətəndaşı cəmiyyəti üçün Milli Fəaliyyət Planının icrası üzrə tədbirlərin yerinə yetirilməsi vəziyyətinin hər il üzrə dəyərləndirilməsi və ictimaiyyətə açıqlanması yeni ictimai vəkillik fəaliyyətləri üçün əsas verə bilər. Hökumət isə vətəndaş cəmiyyətinin konstruktiv və peşəkar təkliflərindən yararlana bilər.

## İrəli doğru

AHT tədqiqatçısı Korrupsiyaya Qarşı Mübarizə İdarəsindən Milli Fəaliyyət Planının illik icrasının qiymətləndirilməsinə QHT-lər və müstəqil ekspertləri dəvət etməyi təklif edir. Eyni zamanda, hökumət qurumların açıq hökumət performansını göstərən müqayisəli cədvəllər hazırlayıb açıqlaya bilər (ABŞ nümunəsində olduğu kimi).

## Mənbələr:

Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, http://antikorrupsiya.gov.az/view.php?lang=az&menu=0.

ABŞ Hökumətinin Açıq Hökumət Təşəbbüsü http://www.whitehouse.gov/open/around.

## 9.2 | Açıq hökumət təşəbbüsü üzrə məlumatlandırıcı materiallar

*Açıq hökumət təşəbbüsü üzrə maarifləndirici materialların nəşri və əhali arasında paylanması.*

| ÖHDƏLIYIN TƏSVIRI | | |
|---|---|---|
| CAVABDEHLIK | APARICI TƏSISAT | Korrupsiya ilə Mübarizə Komissiyası, Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyəti orqanları |
| | DƏSTƏKLƏYICI TƏSISAT | Müəyyən edilməyib |
| | ƏLAQƏLƏNDIRICI ŞƏXS | Yox |
| SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK | | Orta (öhdəliyin təsviri qiymətləndirilәbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) |

| UYĞUNLUQ | | | | | |
|---|---|---|---|---|---|
| OGP ƏSAS ÇAĞIRIŞLARI | Dövlət in etibarlığının artırılması | | | | |
| OGP DƏYƏRLƏRI | | | | | |
| MƏLUMATLARA ÇIXIŞ | İCTIMAI IŞTIRAKÇI LIQ | HESABATLILIQ | ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA | HEÇ BIRI | |
| ✗ | | | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Orta (öhdəlik irəli doğru atılmış ciddi bir addımdır, ancaq miqyas etibarilə məhduddur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | |
|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>Aydın deyil | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma |




| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin daha ölçüləbilən olması üçün revizə edilməsi |

## Nə baş verdi?

Hökumət müxtəlif tədris materialları hazırlayıb və bunları sona çatdırıb, 2013-cü ilin sonu və ya 2014-cü ilin əvvəlinə paylamağı planlaşdırır.

## Bunun əhəmiyyəti nə oldu?

Əgər hökumət asan və başadüşülən dildən istifadə edərək qeyri-texniki nəşrlər hazırlarsa və ölkə boyu yayılarsa, bu materiallar AHT haqqında ictimai maarifləndirməni tədricən artıracaq.

## İrəli doğru

Digər öhdəliklər kimi bu istiqamətdə vaxt baxımından dəqiqlik olmadığına görə, hökumətin aydın vaxt intervalını müəyyənləşdirilməsinə ehtiyac var. AHT üzrə tədris materiallarının hazırlanmasında QHT nümayəndələri və müstəqil ekspertlərin (MBQ, QHT-lərin Antikorrupsiya Şəbəkəsi və s.) dəvət edilməsi imkanı da vardır.

## Mənbələr:

Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, http://antikorrupsiya.gov.az/view.php?lang=az&menu=0.

MBQ Büdcə ilə bağlı 33 Sual: http://www.budget.az/budget/upload/files/Budce_kitab_son.pdf.

## 9.3 | Açıq hökumət öhdəliklərinin davamlı icrası

*"Açıq Hökumət Tərəfdaşlığı" çərçivəsində öhdəliklərin icrası istiqamətində zəruri tədbirlərin davam etdirilməsi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | |
|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Nazirlər Kabineti, Korrupsiya ilə Mübarizə Komissiyası, mərkəzi və yerli icra hakimiyyəti orqanları |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Aşağı (öhdəliyin təsviri ölçüləbilən fəaliyyətlər müəyyən etmir) |
| **UYĞUNLUQ** | **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət in etibarlığının artırılması |

| **OGP DƏYƏRLƏRI** | | | | |
|---|---|---|---|---|
| **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABATLILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** |
| | | ✗ | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Kiçik (bu öhdəlik öz sahəsi üzrə irəli doğru atılmış kiçik, ancaq pozitiv bir addımdır) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>31 dekabr 2015 | Faktiki tamamlanma<br><br>Nəzərdə tutulan tamamlanma | AYDIN DEYIL<br>BAŞLANILMAYIB — LİMİTLİ (▲) — ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ — TAMAMLANMIŞ |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin daha ölçüləbilən olması üçün revizə edilməsi |

XÜLASƏ

### Nə baş verdi?
Öhdəliyin məzmunu mətndə aydın ifadə edilməyib.

### Bunun əhəmiyyəti nə oldu?
Azərbaycan hökuməti AHT-nin bütün illik sammitlərində aktiv iştirak edir. Ancaq bu öhdəliyin qeyri-müəyyən məzmunu bu iştirakları öhdəlik çərçivəsində qiymətləndirməyə imkan vermir.

### İrəli doğru
Bu öhdəliyin revizə edilərək daha aydın bir öhdəlik kimi ifadə edilməsinə ehtiyac duyulur.

### Mənbələr:
Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, http://antikorrupsiya.gov.az/view.php?lang=az&menu=0.

## 9.4 | Açıq hökumət üzrə vətəndaş cəmiyyətinə maliyyə yardımı

*Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutlarına maliyyə dəstəyi.*

| ÖHDƏLIYIN TƏSVIRI | | |
|---|---|---|
| **CAVABDEHLIK** | **APARICI TƏSISAT** | Korrupsiya ilə Mübarizə Komissiyası, mərkəzi və yerli icra hakimiyəti orqanları, QHT Dövlət Dəstəyi Şurası |
| | **DƏSTƏKLƏYICI TƏSISAT** | Müəyyən edilməyib |
| | **ƏLAQƏLƏNDIRICI ŞƏXS** | Yox |
| **SPESIFIKLIK VƏ ÖLÇÜLƏBILƏNLIK** | | Orta (öhdəliyin təsviri qiymətləndiriləbilən fəaliyyətlər müəyyən edir, ancaq bunlar çox spesifik deyil) |

| **UYĞUNLUQ** | | | | | |
|---|---|---|---|---|---|
| **OGP ƏSAS ÇAĞIRIŞLARI** | Dövlət in etibarlığının artırılması | | | | |
| **OGP DƏYƏRLƏRI** | | | | | |
| **MƏLUMATLARA ÇIXIŞ** | **İCTIMAI IŞTIRAKÇI LIQ** | **HESABATLILIQ** | **ŞƏFFAFLIQ VƏ HESABAT-LILIQ NAMINƏ TEXNOLOGIYA VƏ INNOVASIYA** | **HEÇ BIRI** | |
| | ✗ | | | | |

| AMBISIYA | |
|---|---|
| **YENI, YOXSA ƏVVƏLCƏDƏN MÖVCUD OLAN**<br>Yeni | **POTENSIAL TƏSIR**<br>Orta (öhdəlik irəli doğru atılmış ciddi bir addımdır, ancaq miqyas etibarilə məhdududdur) |

| TAMAMLANMA SƏVIYYƏSI | | | |
|---|---|---|---|
| **BAŞLANMA TARIXI:**<br>Sentyabr 2012 | **BITMƏ TARIXI:**<br>31 Dekabr 2015 | Faktiki tamamlanma<br>Nəzərdə tutulan tamamlanma |  |

| NÖVBƏTI MƏRHƏLƏLƏR |
|---|
| Öhdəliyin icrası istiqamətində işlərin davam etdirilməsi |

### Nə baş verdi?

Şura 2007-ci ilin Dekabr ayında qurulmasına baxmayaraq, layihələrin maliyyələşdirilməsi yeni bir inkişaf olaraq AHT Milli Fəaliyyət Planının qəbulundan sınra gerçəkləşdi. QHT-lərə Dövlət Dəstəyi Şurası Azərbaycanda açıq hökumət prinsiplərinin inkişafı istiqamətində hal-hazırda iki layihəni dəstəkləyir. AHT tədqiqatçısı Şuranın yalnız maarifləndirmə deyil, alternative monitorinq fəaliyyətlərini daxil daha çox QHT layihələrini dəstəkləməyi təklif edir. Bu dəsətk müxtəlif sector və regionlardan olan QHT-ləri əhatə etməldir. Eləcə də istər hökumət, istərsə də donor agentlikləri olsun, maliyyə mənbəyindən asılı olmayaraq, hətta tənqidi baxışlarına görə QHT-lərə müdaxilə edilməməsinə və müstəqil olmaları prinsipinə hörmətlə yanaşılmalıdır.

### Bunun əhəmiyyəti nə oldu?

Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutlarına maliyyə dəstəyi açıq cəmiyyət prinsiplərinin yayılmasına müsbət təsir göstərə bilər. Ancaq Azərbaycan vətəndaş cəmiyyəti institutları üçün alternativ fondlar da mövcuddur.

### İrəli doğru

Şura həmçinin alternativ monitorinq layihələrini dəstəkləməlidir və bu zaman fərqli regionlardan olan QHT-lərlə davamlı əməkdaşlıq etməlidir, habelə sektoral fərqlər də burada nəzərə alınmalıdır.

### Mənbələr:

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, http://cssn.gov.az.

Gün.az, "Gənclər koalisiyası Açıq Hökumətin təşviqi ilə bağlı Göygöldə ictimai dinləmə keçirdilər"(17 Oct. 2013), http://www.gun.az/nesil/86722.

Qhtxeber.az, "Açıq hökumətin təşviqi" Koalisiyası Şuranın dəstəyi ilə Şirvan şəhərində və Hacıqabul rayonunda ictimai dinləmə keçirib(6 Sept. 2013), http://qhtxeber.az/news/a-25765.html.

# V | ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ (SELF-ASSESSMENT)

“Açıq hökumətin təşviqi üzrə milli fəaliyyət planı 2012-2015” bütün mərkəzi və yerli icra hakimiyyəti orqanlarından 15 yanvar 2014-cü ildən gec olmayaraq ötən il ərzində milli fəaliyyət planının icrası ilə bağlı illik hesabatları Nazirlər Kabinetinə və Korrupsiya ilə Mübarizə Komissiyasına təqdim etməyi tələb edir. Hökumətin illik proqres hesabatı bu icra hesabatlarına əsaslanaraq 2014-cü ilin ilk aylarında hazır olmalıdır. Açıq hökumətin təşviqi üzrə milli fəaliyyət planı 2012-2015” bütün mərkəzi və yerli icra hakimiyyəti orqanlarından 15 yanvar 2014-cü ildən gec olmayaraq ötən il ərzində milli fəaliyyət planının icrası ilə bağlı illik hesabatları Nazirlər Kabinetinə və Korrupsiya ilə Mübarizə Komissiyasına təqdim etməyi tələb edir. Hökumətin illik proqres hesabatı bu icra hesabatlarına əsaslanaraq 2014-cü ilin ilk aylarında hazır olmalıdır.

## Cədvəl 2: Özünüqiymətləndirmə sualları

| | |
|---|---|
| İllik proqres hesabatı nəşr edilirmi? | ☐ bəli ☒ Yox |
| Bu hesabat əvvəlcədən nəzərdə tutulan vaxtda açıqlanıbmı? | Məlum deyil |
| Hesabat yerli dildə əlçatandırmı? | Məlum deyil |
| Steykholderlərin fikrincə, bu hesabat adekvat hazırlanıbmı? | Məlum deyil |
| Hesabat ingilis dilində əlçatandırmı? | Məlum deyil |
| Hökumət özünüqiymətləndirmə hesbatının ilkin versiyası üçün iki həftəlik ictimai rəy müddəti nəzərdə tuturmu? | Məlum deyil |
| İctimaiyyətdən bu hesabatla bağlı hansısa rəylər alınıbmı? | Məlum deyil |
| Hesabat OGP-nin internet resurslarında yerləşdirilibmi? | Məlum deyil |
| Özünüqiymətləndirmə hesabatı konsultasiya prosesini də əhatə edirmi? | Məlum deyil |
| Hesabat bütün öhdəlikləri əhatə edirmi? | Məlum deyil |
| Hesabat öhdəliklərin vaxtında tamamlanmasına toxunurmu? | Məlum deyil |
| Hesabat açıqlıqla bağlı səlahiyyətləri vurğulayırmı? | Məlum deyil |
| Hesabat fəaliyyət planı ilə OGP-nin 5 əsas çağırışı arasındakı əlaqələri təsvir edirmi? | Məlum deyil |

**Mənbələr:**

Azərbaycan hököməti, Milli Fəaliyyət Planı 2012-2015, http://www.opengovpartnership.org/country/azerbaijan.

Azərbaycan hököməti ilə steykholder görüşü (11 Oktyabr 2013).

XÜLASƏ

# VI | İRƏLİ DOĞRU

**Bu bölmə AHT Milli Hərəkət Planını daha geniş prizmadan ələ alır və əvvəlki bölmələrdə göstərildiyi kimi vövbəti mərhələlərin potensialını, çoxistiqamətli prioritetləri işıqlandırır.**

## ÖLKƏ KONTEKSTI

Azərbaycan artan iqtisadi gücə və keçid xüsusiyyətlərinə malik keçmiş Sovet ölkəsidir. Azərbaycanın cari institusional sistemi və xərcləmə çərçivəsi maliyyə davamlılığını təhlükə altında qoyur və uzun müddətdə gəlirlərin iqtisadi inkişafda rolunu sual altına qoyur. AHT ölkədə institutsional çərçivənin yaxşılaşdırılmasını nəzərdə tutan bir sıra önəmli məqsədləri özündə ehtiva edir.

Bu tədqiatın yazılması çərçivəsində IRM tədqiqatçısı da qeyd etdi ki, qeyri hökumət və beynəlxalq müşahidəçilərin ölkə üzrə təyin etdiyi Milli Fəaliyyət Planı və Açıq Büdcə müddəalarının yerinə yetirilməsi öhdəliyi üzrə hökumətlə zəif əlaqə var. Hazırkı fəaliyyət planı bu məsələlərin bəzilərini ünvanlamasa da, digər ölkələr etdiyi kimi hökumətin növbəti fəaliyyət planında bu məsələləri birbaşa qabartmaq şansı vardır. Açıq Hökumət Bəyannaməsinə uyğun olaraq, bütün AHT üzv hökumətləri üçün aşağıdakı məsələlər açıq hökumətin tətbiqi və gələcək uğuru baxımından əhəmiyyətli dərəcədə vacibdir.

### İfadə, birləşmə və toplaşma azadlıqları

Bəzi yerli və beynəlxalq təşkilatlar müntəzəm olaraq hökuməti müstəqil media, insan haqları müdafiəçiləri, vətəndaş cəmiyyəti, gənc liderlər və siyasi fəallara qarşı təzyiqlərindən dolayı tənqid edir. Son bəyanatda AB "bir sıra müxalif fəalların, vətəndaş cəmiyyəti və müstəqil mediaya qarşı hədə-qorxu, şübhəli ittihamlarla həbs, saxlanma, beynəlxalq standartlara və günahlandırılan şəxsin hüquqlarına hörmət etmədən məhkum edilməsindən narahat olduğunu vurğuladı." Bəzi insan haqları təşkilatları Azərbaycanın əsas azadlıqlar baxımından ciddi problemlə üzləşməsini irəli sürərərək narahatlıqlarını ifadə etmişlər (ifadə azadlığı, toplaşma azadlığı, birləşmə azadlığı.)

Bundan əlavə, yerli təşkilatlar Azərbaycanda informasiyaya hazırkı əlçatanlıq səviyyəsinin problemli olduğunu vurğulayır. Məsələn, Azərbaycan 2005-ci ildə informasiyaya çıxış üzrə qanun qəbul etməsinə baxmayaraq, bir neçə maraqlı tərəflərin bu hesabat çərçivəsində müsahibəsi bu qanunun icrasında problemlərin olduğunu deməyə əsas verir. Həqiqətən, yerli hüquqşünaslar Avropa İnsan Haqları Məhkəməsində qanunun zəif icrası ilə bağlı bir neçə iddia qaldırıb. Vətəndaş Cəmiyyəti Təşkilatları Azərbaycanda, xüsusən regionlarda fəaliyyət ilə bağlı bir sıra çətinliklərlə qarşılaşıb. Regionlarda hər hansı bir tədbiri təşkil etmək üçün QHT-lər hökumətə müraciət etməli və rəsmi icazə almalıdır. Bundan əlavə yüzlərlə qeydiyyatdan keçməyən QHT-lər var ki, onlar hökumət tərəfindən qeydiyyata alınmaqda məhdudiyyətlərlə qarşılaşıblar. Beynəlxalq təşkilatlar da qeyri-hökumət təşkilatlarına aid cari qanunların birləşmə azadlığını pozmasını qeyd edib. Mənfəət güdməyən Təşkilatların Hüququ üzrə Beynəlxalq Mərkəz qeyd edir ki;

> "Azərbaycanda istər yerli, istər xarici QHT-nin qeydiyyata alınması çox çətindir. Azərbaycan hökuməti Avropa İnsan Haqları Məhkəməsindən öncə azı 5 məsələni, birləşmə azadlığının pozulmasıyla bağlı qeydiyyatları inkar edərək uduzub. Bundan əlavə, Azərbaycan QHT-lərinin maliyyə hesabatları öhdəliklərini yerinə yetirməklə bağlı çətinlikləri var. Çox sayda QHT-lərin bu tələbləri yerinə yetirməklə bağlı məhdud imkanları var və öhdəliyi yerinə yetirməməklə bağlı cərimə ödəmələri qorxusu altındadırlar."

Bu hesabatın yazılması əsnasında tərəflərin fikirləri hökumətin vətəndaş cəmiyyətlərinə yanaşmasında oxşar narahtçılığı ifadə etdi. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının və Azərbaycan Gənclər Fondunun vətəndaş cəmiyyəti üçün yeni maliyyə imkanlarını açmasına baxmayaraq, maliyyə qıtlığı səbəbindən hələ də bəzi QHT-lər üçün "beyin axını" ciddi problem olaraq qalır. Bundan əlavə, tərəflər hökumətin siyasi qərar qəbuletmədə vətəndaş cəmiyyətləri ilə olan əlaqəsini yetərli saymır.

### İnformasiyaya İctimai Əlçatanlıq Korrupsiyayla Mübarizənin bir aləti kimi

2013-cü ilin sentyabrında İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) Azərbaycanın anti-korrupsiya təşəbbüslərində uğur əldə etdiyini qeyd etdi. Eyni zamanda OECD bir neçə islahatların yarımçıq və məhdud səviyyədə yerinə yetirildiyini vurğuladı. Bura digər məsələlərlə yanaşı, informasiya əldəetmə qanununun "sürətli həyata keçirilməsindəki" çatışmazlıq da daxildir. IRM tədqiqatçısı OECD anti-korrupsiya təkliflərinin həyata keçməsinin digər üzv ölkələrin AHT Milli Planında başlıca təsirinin olduğunu vurğulayır.

Oxşar olaraq, iyun 2012-ci ildə cari AHT hesabatı dövründə, Parlament maliyyə məlumatlarının sirr hesab edilməsi ilə bağlı qanun qəbul etdi. Beynəlxalq təşkilatların hesabatlarına

görə “Dəyişikliklər maliyyə qurumlarına qeydiyyat, mülkiyyət və struktur baxımından bəzi informasiyaları gizli tutmağa imkan verir ki, bu da öz növbəsində təhqiqatçı jurnalistlərin korporativ sektorda korrupsiyanın ifşası və dövlət qurumlarında özəl aktivlərin müəyyənləşdirilməsi imkanlarını məhdudlaşdırır”.

Fərqli müstəqil müşahidəçilərin iddiasına görə ölkədə keçirilən seçkilər beynəlxalq standartlara cavab verməyib. Sonuncu 9 oktyabr 2013-cü il president seçkilərində OSCE/ODIHR Seçki Müşahidə Missiyasının Son Hesabatında qeyd edir ki, “səslərin sayılmasını əsasən neqativ qiymətləndirilib, belə ki, seçki məntəqələrinin 58 faizində ciddi problemlər göstərilərək nəticələr pis və ya çox pis olaraq qiymətləndirilib”.

Seçkidən 2 ay sonra Seçki Monitoringi və Demokratiyanın Tədrisi Mərkəzinin rəhbəri və AB Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun keçmiş İdarə Heyətinin üzvü Anar Məmmədli seçikləri izləyib nəticələrə tənqidi rəy verdiyindən bir qədər sonra bəzi ittihamlarla həbs edilib.

Seçki monitorinqindəki şəffaflıq məsələsi birbaşa AHT-yə təsir edir. Nəticə etibarilə, hökumətin növbəti Milli Fəaliyyət Planında seçkilərin monitorinqi ilə bağlı daha ciddi öhdəliyi daxil etmələri üçün imkan var.

### Vətəndaşlara hesabatlılıq

Bundan əlavə, müxtəlif yerli və beynəlxalq qurumlar Azərbaycanda qanunverici, məhkəmə və icraedici güclər arasında yetərli olmayan bölgünün olduğu qənaətindədirlər. Beynəlxalq təşkilatlar iddia edir ki, qanunvericiliyin məhkəmə müstəqilliyinə təminat verməsinə baxmayaraq, reallıqda məhkəmə hakimiyyəti icraedici gücdən yüksək səviyyədə asılıdır. Hesabata görə ölkənin məhkəmə sistemi “hüquq pozuntularına qarşı effektiv kompensasiyanı təmin etmir” və mülkiyyət hüquqları ilə bağlı problemlər yaradır. Effektiv hesabatlılıq mexanizmləri bu zaman yenidən gündəmə gəlir. Təəssüf ki, öhdəliklərin çox az hissəsi ölkənin açıq hökumət prinsipləri ilə əlaqəli fundamental problemlərini reallıqda qismən həll etmək potensialına malikdir.

## CARI PLAN: TƏRƏFLƏRIN PRIORITETLƏRI

Hökumətin Milli Fəaliyyət Planı 9 prioritet və 37 əlaqədar öhdəlikdən ibarətdir. Tərəflərin iclasında və fərdi müsahibələrdə, bəzi ekspertlər planın hərtərəfli və idialı olmasına baxmayaraq, bu illər ərzində onu əldə etməyin qeyri-real olduğunu qeyd etdilər. Hökumət 11 Oktyabr 2013-cü ildə əlaqədar tərəflərin birinci iclasında mövcud və yeni elan olunmuş prioritetləri qeyd etdi: “mövcud milli planın bütün fəaliyyət və prioritetləri vacibdir”. Vətəndaş cəmiyyəti təşkilatları və eləcə də qeyri-dövlət subyektləri üçün, mövcud fəaliyyət planında ən vacib prioritetlər informasiyaya çıxışın asanlaşdırılması, dövlət instutlarının fəaliyyətinin ictimailəşdirilməsi, e-xidmətlərin yaxşılaşdırılması, dövlət maliyyə nəzarəti institutları və vergi nəzarətində şəffaflığın artırılmasıdır.

## GƏLƏCƏK PLAN: TƏRƏFLƏRIN PRIORITETLƏRI

2014-cü ildə hökumət, vətəndaş cəmiyyətləri ilə əlaqədə olaraq, qısa müddət üçün yeni və müasir fəaliyyət planı prioritetlərini müəyyən edə bilər. Görünür, növbəti bir neçə il üçün başlıca prioritet elektron xidmətlərin sayının artırılması və ASAN-Xidmət Mərkəzlərinin (İctimai Xidmət mərkəzləri) coğrafiyasının genişləndirilməsi olacaq. Tərəflər həmçinin hesabatlılığın, şəffaflığın artırılmasında, dövlət investisiya layihələri və dövlət proqramlarında ictimai iştirakın artırılmasında maraqlıdır.

## TƏKLIFLƏR

Qarşıya qoyduğu təminatlara və imkanlara baxmayaraq, Milli Fəaliyyət Planının rəsmi sənəd olaraq bəzi çatışmazlıqları var.

- Milli Faəliyyət Planında dəqiq və aydın illik icra müddətlərinin və konkret işlərin olmaması icranın monitorinqini və qiymətləndirməsini çətinləşdirir (“mütəmadi” əsaslı icra olunan tədbirlər olmamalıdır və müddətlər konkret göstərilməlidir).
- Milli Fəaliyyət Planındakı bəzi öhdəliklər bir-birini təkrarlayır (məs; 5.4 və 7.3 sayılı müddəalar).
- Bəzi öhdəliklər əvvəlcədən bu və ya digər şəkildə mövcud olub və yeni deyil. Hökumət əvvəldən mövcud olan və status-kvonu dəyişmək potensialı olmayan və ya limitli olan öhdəlikləri növbəti fəaliyyət planından çıxarmalıdır.
- Bütün öhdəliklər ünvanlı olmalıdır və bu öhdəliklər xarici rəyçilər tərəfindən anlaşılır olmalıdır.
- Hökumət əsas və dəstəkləyici institutları müəyyən etməli və bütün öhdəliklərin yerinə yetirilməsi üçün vaxt dəqiqləşdirməlidir.
- Aydın olmayan və ya açıq hökumət prinsipləri ilə əlaqəsi zəif olan bəzi müddəaların əhəmiyyətli dərəcədə yenidən yazılmasına və ya Milli Fəaliyyət Planından çıxarılmasına ehtiyac var.

IRM milli tədqiqatçısı, müstəqil ekspertlər və vətəndaş cəmiyyəti aktivistləri müsahibələrində hökumətə növbəti Milli Fəaliyyət Planında aşağıdakı prioritetləri qeyd etməsini təklif edir.

### İctimai İştirakçılıq

- Birgə hökumət-vətəndaş cəmiyyəti dialoqu platformasını quraraq Milli Fəaliyyət Planınında yeni məsələlər və maneələr üzrə əməkdaşlıq.
- İctimai iştirakçılığın təməlində dayanan seçki məsələləri

üzrə: seçki komissiyalarında geniş və birgə iştirak ilə seçki şəffaflığını təmin etmək.

- Mühim dövlət məsələləri və siyasi təkliflərdə davamlı dəyişikliyi təmin etmək üçün vətəndaş cəmiyyətləri üçün daha effektiv institusional mexanizmlərin qurulması.
- Mərkəzi və yerli icraedici orqanların nəzdində müstəqil, əhatəli və rəqabətli ictimai şuraların yaradılaraq qərar-qəbul etmə proseslərində ictimai iştirakçılığı təmin etmək baxımından yeni imkanlar əldə etmək.

### İnformasiya əldə etmə

- Ölkədə neft, qaz və mədən sənayesi kimi milli resursların istifadəsində daha çox şəffaflığı təmin etmək üçün hüquqi və iştirakcı mexanizmlərin yaradılması.
- Dövlət məmurlarının gəlir və əmlak bəyannaməsinin vaxtaşırı açıqlanması.
- Mərkəzi hökumət qurumları tərəfindən təmin edilən ictimai xidmətlərin siyahısını tutaraq, ictimai xidmətlər üzrə vahid verilənlər bazasının yaradılması.
- İctimai xidmətlərdə keyfiyyəti ölçmək üçün metodologiyanın hazırlanması.
- Mərkəzi və yerli qurumlar üzrə illik hesabatların yazılması üçün minimum standartların inkişafı.
- Müstəqil ekspertlərin və ixtisaslaşdırılmış vətəndaş cəmiyyəti təşkilatlarının məlumatlılıq səviyyəsinin artırılması, açıq hökumət üzrə nəşrlərin hazırlanması və vətəndaşlarla iş üzrə təlimlərin keçirilməsi, nəticə etibarilə informasiya azadlığını təmin etmək.

Hökumətlərin milli fəaliyyət planlarına yeni və dəyərli öhdəliklər daxil etməsi prosesinə qlobal AHT Katibliyi xüsusi diqqət yetirməlidir, bununla bağlı fəaliyyət planlarına qarşı ciddi tələblər işlənməlidir.

### Mənbələr:


Amnesty International, Annual Report 2013: Azerbaijan, http://www.amnesty.org/en/region/azerbaijan/report-2013.

Article 19, "Azerbaijan," http://www.article19.org/pages/en/azerbaijan.html.

Eastern Partnership Civil Society Forum, Statement of Eastern Partnership Civil Society Forum on arrest by Azerbaijan authorities of Anar Mammadli, who led election monitoring of Presidential elections in Azerbaijan (17 Dec. 2013), http://www.eap-csf.eu/assets/files/EAPCSF_statement_AZ_17dec2013.pdf.

Eastern Partnership Civil Society Forum, "The Steering Committee of the EaP Civil Society Forum condemns the continuing crackdown on independent media and human rights advocates in Azerbaijan" (2013), http://www.eap-csf.eu/en/news-events/news/the-steering-committee-of-the-eastern-partnership-civil-society-forum-condemns-the-continuing-crackdown-on-independent-media-and-human-rights-advocates-in-azerbaijan.

European Union @ the United Nations, "Azerbaijan: EU HR Ashton and Commissioner Füle worried by cases of pressure on opposition, civil society and media" (3 Oct. 2013), http://www.eu-un.europa.eu/articles/en/article_14029_en.htm.

European Union @ the United Nations, Statement by the Spokespersons of EU HR Ashton and Commissioner Füle on the detention of Mr.AnarMammadli, chairman of the Election Monitoring and Democracy Studies Centre in Azerbaijan (20 Dec. 2013), http://www.eu-un.europa.eu/articles/en/article_14422_en.htm.

Freedom House, Freedom of the Press 2013: Azerbaijan, http://www.freedomhouse.org/report/freedom-press/2013/azerbaijan.

Freedom House, Nations in Transit 2012: Azerbaijan, http://www.freedomhouse.org/report/nations-transit/2012/azerbaijan.

Human Rights Watch, "Azerbaijan: Prominent Election Monitor Arrested" (18 Dec. 2013), http://www.hrw.org/news/2013/12/18/azerbaijan-prominent-election-monitor-arrested.

Human Rights Watch, Tightening the Screws: Azerbaijan's Crackdown on Civil Society and Dissent (Sept. 2013), http://www.hrw.org/reports/2013/09/01/tightening-screws.

International Center for Not-for-Profit Law, NGO Law Monitor: Azerbaijan, http://www.icnl.org/research/monitor/azerbaijan.html#resources.

Organisation for Economic Co-operation and Development (OECD), Anti-Corruption Network for Eastern Europe and Central Asia, Third Round of Monitoring: Azerbaijan (Sept. 2013), http://www.oecd.org/corruption/acn/AZERBAIJANThirdRoundMonitoringReportENG.pdf.

Organisation for Security and Co-operation in Europe (OSCE), Office for Democratic Institutions and Human Rights, Election Observation Mission Final Report: Republic of Azerbaijan, Presidential Election, 9 October 2013 (Warsaw: Dec. 2013), http://www.osce.org/institutions/110015.

Stakeholder meetings with the Government of Azerbaijan (11 Oct. 2013); civil society (12 Oct. 2013); and individual interviews.

U.S. State Department, Azerbaijan 2012 Human Rights Report, http://photos.state.gov/libraries/azerbaijan/749085/hajiyevsx/hr_report2012.pdf.

# AÇIQLAMA: METODOLOGIYA

Hökumətin özünü dəyərləndirməsinə paralel olaraq hər AHT iştirakçı ölkəsi idarəetmə məsələləri üzrə tanınmış tədqiqatçıları tərəfindən müstəqil dəyərləndirmə hesabatları hazırlayır. Bu ekspertlər yerli AHT tərəflərindən alınan müsahibələr əsasında ilkin analiz fonunda ümumi müstəqil hesabat sualları və sənədləri hazırlayır. Tədqiqatın yüksək standartlara cavab verməsinə əmin olmaq və lazımı tədqiqat üçün hesabat Beynəlxalq Ekspert Paneli (AHT İdarə Heyəti tərəfindən tərəfindən təyin olunur) tərəfindən paylanılır. AHT fəaliyyət planları üzrə inkişaf hesabatı müsahibələr, tədqiqatlar və vətəndaş cəmiyyəti iclaslarından alınan təkliflərin toplusudur. IRM hesabatı hökumətin özünü dəyərləndirmə hesabatı, vətəndaş cəmiyyətləri, özəl sektor və beynəlxalq təşkilatlar tərəfindən irəli sürülən istənilən inkişaf dəyərləndirmələri əsasında formalaşır. Hadisələrin dəqiq təsvirini aparmaq üçün hər tədqiqatçı tərəflərin iclasını keçirir. Mövcud büdcə və təqvim məhdudiyyətlərindən dolayı, IRM bütün maraqlı tərəflərlə məsləhətləşmələr apara bilmir. Nəticə etibarilə, IRM metodoloji şəffaflığı təmin etmək üçün çalışır, ona görə də mümkün qədər tədqiqatda tərəflərin iştirakını ictimailəşdirməyə çalışır (daha ətraflı növbəti bölmədə). Bu milli kontekstlərdə istər hökumət, istər qeyri hökumət olaraq məlumat vericilərin anonimliyi tələb olunur ki, IRM məlumat mənbələrinin anonimliklərini saxlamağa imkan verir. Əlavə olaraq, metodun vacib məhdudiyyətindən dolayı, IRM hər milli sənədin ictimai baxımından şərh edilməsini təklif edir.

### Giriş

IRM Azərbaycan üzrə milli tədqiqatçı Fəaliyyət Planını əsas tədqiqat metodları olaraq hökumətin icra dəyərləndirmələrini monitorinq edən tədqiqatlardan və eyni zamanda ekspert müsahibələrindən istifadə etmişdir. Hökumət və vətəndaş cəmiyyəti nümayəndələri, özəl sektor nümayəndələri müsahibə və qrup tədbirlərinə cəlb edilib. Səciyyəvi olaraq, AHT IRM inkişaf hesabatları hökumətin özünü dəyərləndirməsindəki bəzi amilləri nəzərə alır. Çünki Azərbaycan AHT prosesi üç aya qədər gecikməsinə baxmayaraq hələ də hökumət belə bir sənədi hazırlamayıb.

Nəticə etibarilə, IRM tədqiqatçısı olaraq bu informasiyaların nəzərə alınması mümkün olmadı. IRM milli tədqiqatçısı tərəflərin iclasında və müsahibələrində aşağıdakı məqamları özündə cəmləşdirən əvvəlcədən hazırlanmış suallar siyahısından istifadə etdi:

- Azərbaycanda hökumət dəyərlərini irəli və ya geri aparmaq üçün mövcud isntitusional mühitin ümumi vəziyyəti;
- Milli Fəaliyyət Planının inkişafı və icrası ilə bağlı konsultasiya və əməkdaşlığın dərəcəsi;
- Bəzi konkret öhdəliklərin ölkədə idarəetməyə müsbət təsir etməsi;
- Hər bir öhdəliyin AHT dəyər və prinsiplərinə uzlaşdırılması;
- Mövcud iştirak planı ilə bağlı ümumi nəticələr və gələcək addımlar üçün təkliflərin verilməsi.

### Tərəflərin seçimi

Hökumətlə əlaqə çərçivəsində IRM müstəqil tədqiqatçısı tədqiqat zamanı Korrupsiyaya qarşı Komissiyasının rəsmisindən (cənab Vusal Hüseynov) əməkdaşlıq xahiş etdi. Baçlıca olaraq bütün əlaqədar qurumlardan informasiya və fikirlərin toplanması cəhdləri baş tutdu. IRM milli tədqiatçısı açıq hökumət məsələləri ilə yaxınlığı olan müxtəlif pillələrdən olan təşkilat və fərdləri tədqiqata daxil etdi. Ona görə, milli tədqiqatçı geniş tərkibdə təşkilatlarla işlədi və müxtəlif məzmuna malik təşkilat və fərdlərlə iclaslar təşkil etdi.

### Tərəflərin birinci iclası

Tərəflərin hökumətlə baş tutan ilk iclası 11 Oktyabr 2013 tarixində baş tutdu. Bu iclas Korrupsiya Qarşı Mübarizə İdarəsinin rəsmisi cənab Vüsal Hüseynovla baş tutdu. O, bütün əlaqədar dövlət qurumlarını AHT IRM prosesi haqqında məlumatlandırıldı. Bu qurumlar öz mövqelərini bildirmək üçün səlahiyyətləndirildi.

Görüşün formatı müsahibə xarakterli idi. Görüşdə hökumət rəsmisi və IRM milli tədqiqatçısı Milli Fəaliyyət Planına aid məsələləri, o cümlədən hökumət daxili müzakirələri, layihələndirmə və vətəndaş cəmiyyətləri ilə ilkin əməkdaşlıq səviyyələrini müzakirə etdilər.

Hökumət rəsmisi bildirdi ki, qeyri-hökumət subyektləri fəaliyyət planının hazırlanmasına cəlb edilməyib. Baxmayaraq ki, bunlar əsasən paytaxt Bakıda işləyən təşkilatlardır. Prosesə müxtəlif yerli təşkilatlardan, gender qruplarından, xüsusi həssas qruplardan, qaçqınlardan və ya məcburi köçkünlərdən, etnik azlıqlardan (Azərbaycanda 600 mindən çox yurd-yuvasından didərgin düşmüş məcburi köçkün insan olmasına baxmayaraq) ibarət QHT-lər cəlb olunmayıb. Milli Fəaliyyət Planının icrasında müxtəlif imkanlar və maneələr də müzakirə olundu. Hökumət tərəfi qeyd etdi ki, vətəndaş cəmiyyətlərinin təkliflərinin böyük əksəriyyəti nəzərə alınıb və alınacaq.

### Tərəflərin ikinci iclası

Tərəflərin vətəndaş cəmiyyəti təşkilatları ilə birgə baş tutan

ikinci iclası 12 oktyabr 2013-cü ildə baş tutdu. Azərbaycan üzrə milli tədqiqatçı tədqiqatın gedişi zamanı İqtisadi Tədqiqat Mərkəzindən (ERC) Azərbaycan Şəffaflıq Təşkilatı ilə birgə hazırladığı "2012-2015-ci illər üçün Açıq Hökumətin Təşviqi üçün Milli Fəaliyyət Planı üzrə hesabat"-ı diqqətə alaraq yardım etməsini xahiş etdi. İTM öz hesabatlarını, o cümlədən milli tədqiqat ilə bağlı müxtəlif nazirliklərdən və yerli qurumlardan gələn informasiya sorğularını paylaşdı. IRM milli tədqiqatçısı İTM-nin ofisini tərəflərin ikinci iclasının istər Bakı, istərsə də regionlarda təşkili üçün istifadə etdi. Milli tədqiqatçı Milli Büdcə Qrupunu, QHT Anti Korrupsiya Şəbəkəsini və Açıq Hökumət Təşviqi üzrə Gənclik Koalisiyasını dəvət etdi. QHT Anti-Korrupsiya Şəbəkəsi əlavə iclasın keçirilməsini tələb etdi və Açıq Hökumət Təşviqi üzrə Gənclik Koalisiyası IRM'in milli tədqiqat suallarına yazılı cavab vermələrinə razılıq verdi. Əsasən, tərəflərin ilk iclas iştirakçıları Milli Büdcə Qrupunun üzvləri oldu (xüsusən İqtisadi Tədqiqatlar Mərkəzi, İctimai Vəsaitin Monitorinqi Mərkəzi, Azad İqtisadiyyata Yardım İctimai Birliyi və İqtisadi İnnovasiya Mərkəzi).

İclasın formatı qrup müzakirəsi əsaslı idi. Görüş zamanı iştirakçıların Milli Fəaliyyət Planının yaradılması və icrası ilə bağlı fikir və münasibətləri alındı. Milli Büdcə Qrupu üzvləri əməkdaşlıq səviyyəsini və fəaliyyət planının icrasının ilkin formasını yetərsiz hesab etdi. Tərəflərin bu iclaslarından əlavə IRM milli tədqiqatçısı cənab Osman Gündüz (Azərbaycan İnternet Forum və Multimedia Mərkəzinin rəhbəri), cənab Zaur İbrahimli (Konstitutsiya Araşdırmaları Fondunun eksperti) və digər hörmətli ekspertlərdən fərdi müsahibə götürdü.

## Müstəqil Hesabatlılıq Mexanizmi (IRM) haqqında

Müstəqil Hesabatlılıq Mexanizmi hökumətə, vətəndaş cəmiyyətinə və özəl sektora açıq hökumət üzrə fəaliyyət planının hazırlanması və icrasını ildə iki dəfə dəyərləndirməyə imkan verən bir vasitədir. Tədqiqatın dizaynı və hesabatın keyfiyyətinə nəzarət şəffaflıq, iştirakçılıq, hesabatlılıq və sosial elmlərdə tədqiqat metodları istiqamətlərində tanınmış ekspertlərdən ibarət Beynəlxalq Ekspert Paneli tərəfindən həyata keçirilir. Beynəlxalq Ekspert Panelinin indiki üzvləri bunlardır:

- Yamini Aiyar
- Debbie Budlender
- Jonathan Fox
- Rosemary McGee
- Gerardo Munck

IRM-in işçi heyəti ABŞ-ın paytaxtı Vaşinqton şəhərində çalışır və onlar hesabatlılıq prosesini yerli tədqiqatçılarla koordinasiya şəraitində aparırlar. Bu hesabat haqqında fikirlər və suallar aşağıdakı e-mail ünvanına göndərilə bilər: irm@opengovpartnership.org




**Independent Reporting Mechanism**
**Open Government Partnership**
**c/o OpenGovHub**
**1110 Vermont Ave NW**
**Suite 500**
**Washington, DC 20005**


Open Government Partnership
INDEPENDENT REPORTING MECHANISM